5 mart 2021-ci il
№09 (8917)

www.muallim.edu.az
muallim@edu.gov.az

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

*Təhsil millətin gələcəyidir!*
*Heydər Əliyev*

# Şəhid ailələri və qazilər dövlət qayğısı ilə əhatə olunur



Şəhid ailələri və müharibə əlillərinin həyat şəraitinin və rifahının yaxşılaşdırılması məqsədilə dövlət tərəfindən daim xüsusi diqqət və həssaslıqla layihələr icra olunur. Fevralın 25-də Bakının Ramana qəsəbəsindəki yaşayış kompleksində şəhid ailələri və müharibə əlillərinə mənzillərin təqdimatı da bu istiqamətdə görülən silsilə işlərin davamıdır. Kompleks doqquzmərtəbəli 30 bina, ümumilikdə 1512 mənzildən ibarətdir. Ərazidə məktəb, uşaq bağçası, klub-icma mərkəzi inşa olunub. Dövlət başçısının bu ilin yanvarında imzaladığı sərəncamla təsdiq olunmuş proqramlara əsasən, 2021-2025-ci illərdə ev şəraitinin yaxşılaşdırılmasına ehtiyacı olan 11 mindən çox şəhid ailəsi və müharibə əlili mənzil, fərdi evlə təmin ediləcək.

⇨Ardı səh.5

## Vətən müharibəsi iştirakçılarının ailə üzvləri işə qəbul olunub

Şəhid və qazi ailəsi üzvlərinin sosial müdafiəsinin, məşğulluğunun təmin edilməsi məqsədilə cari ilin 28 yanvar tarixindən etibarən Təhsil Nazirliyi sisteminə daxil olan dövlət ümumi təhsil müəssisələrində müvafiq vakansiyalara işə qəbul prosesi dayandırılıb və həmin kateqoriyadan olan şəxslərə üstünlük verilməsi üçün tədbirlər həyata keçirilib.

Belə ki, fevral ayında Təhsil Nazirliyinə şəhid, qazi və Vətən müharibəsi iştirakçılarının ailə üzvləri tərəfindən işə qəbulla əlaqədar 183 müraciət daxil olub, müraciətlər araşdırıldıqdan və vakant yerlərlə bağlı həmin şəxslərlə əlaqə saxlanılaraq rəylər alındıqdan sonra 87 müraciət müsbət həllini tapıb.

## UNESCO-nun İpək Yolu Proqramı tədqiqat müsabiqəsi elan edir

UNESCO-nun İpək Yolu Proqramı "Silk Roads Youth Research Grant" qrant layihəsi çərçivəsində tədqiqat müsabiqəsi elan edir.

Yaşı 35-dək olan gənc tədqiqatçılar İpək Yolu ortaq irsi ilə əlaqədar olaraq müəyyən edilmiş mövzular üzrə tədqiqat layihəsi təqdim edə bilərlər.

Müsabiqədə iştirak etmək istəyən namizədlər üçün son müraciət tarixi 18 aprel 2021-ci ildir.

Müsabiqə barədə ətraflı məlumatla *https://edu.gov.az/uploads/elan/2021/03/silk-roads-youth-research-grant.pdf* vasitəsilə tanış ola bilərsiniz.

## III, VI və VII sinif şagirdləri üçün milli qiymətləndirmə keçiriləcək

5-12 mart tarixlərində III, VI və VII sinif şagirdləri arasında milli qiymətləndirmə təşkil ediləcək. Məqsəd ümumi təhsil pilləsində keyfiyyət göstəricilərini müəyyən etməkdir.

7000-ə yaxın şagirdin iştirakı nəzərdə tutulan milli qiymətləndirmə əyani formada təşkil olunacaq. Qiymətləndirmə COVID-19 pandemiyasının tələb etdiyi gigiyenik şərtlərə uyğun olaraq ölkənin təsadüfi seçilmiş 20 regionunda keçiriləcək.

Qeyd edək ki, milli qiymətləndirmənin nəticəsi şagirdlərin məktəbdaxili qiymətləndirmə üzrə nəticələrinə təsir göstərmir. Bu qiymətləndirmə tədqiqat xarakteri daşıyır və tədris ili ərzində mütəmadi təşkil olunacaq. Tədqiqatın nəticələri əsasında şagirdlərə dəstək üsulları hazırlanacaq.




**"Microsoft"la əməkdaşlıq yeni müstəvidə**

⇨səh.6



**Sabahın alimləri**

⇨səh.7



**Hər uşaq şərtsiz sevildikdə və sevməyi öyrəndikdə...**

⇨səh.10

# QARABAĞ - inkişaf, tərəqqi meydanı

**Müəllimlərin, onların yetirmələrinin, bütövlükdə təhsil sisteminin də fəal iştirak etdiyi 44 günlük Vətən müharibəsi böyük qələbəmizlə başa çatdı. Azərbaycan öz torpaqlarını geri qaytardı. İki aya yaxın bir vaxtda illərdir uzanan böyük bir münaqişə ocağı söndürüldü. İndi dünyanın gözü ölkəmizdədir.Bizim üçün isə artıq tamamilə yeni bir mərhələ başlayıb. Xalq sadəcə müharibənin yaralarını sağaltmağa yox, həm də 30 illik işğalın nəticələrini aradan qaldırmağa çalışır. Azərbaycanın böyük qələbədən sonrakı yolu uzundur. "İndi bizim əsas vəzifəmiz həmin ərazilərin bərpa edilməsi, keçmiş köçkünlərin qaytarılması və bu insanların normal həyatının təmin edilməsidir", - deyən Prezident İlham Əliyev yerli və xarici media nümayəndələri üçün keçirdiyi mətbuat konfransında bundan sonrakı hədəflərimizi dünyaya bəyan etdi. Dağılan yollarımızı yenidən çəkəcək, yıxılan evlərimizi ucaldacaq, müqəddəs yerlərimizi bərpa edəcəyik. Biz YOLA ÇIXDIQ. Qarabağa inkişaf gətirəcək yola yoldan başladıq.**



**Prezident İlham ƏLİYEV:**

**"İndi bizim əsas vəzifəmiz həmin ərazilərin bərpa edilməsi, keçmiş köçkünlərin qaytarılması və bu insanların normal həyatının təmin edilməsidir"**

## Qarabağa gedən yol

Dünyanın hava yollarının bağlandığı bir vaxtda Qarabağa hava yolu açmaq üçün Azərbaycan İLK addımlarını atıb. Ağır texnika əraziyə gətirilib və dünya azərbaycanlılarını, Qarabağı görmək istəyən bütün əcnəbiləri gətirəcək təyyarələr üçün uçuş-enmə zolağı hazırlayır. Özü də burda sadəcə sərnişin deyil, ən ağır yük təyyarələrinin rahatca enib yenidən havalana biləcəyi uçuş-enmə zolaqları olacaq. Məlumata görə, uçuş-enmə zolaqları ilə yanaşı, aeroportun fəaliyyətini təmin edəcək naviqasiya sistemləri operativ istifadəyə veriləcək. Aeroport beynəlxalq hava limanı olacaq.

Bünövrəsi qoyulan ilk aeroportun qonaqlarını qarşılayacağı o gün uzaqda deyil.

Tikilməkdə olan aeroportdan gediş-gəlişi təmin edəcək avtomobil yolunun da əsası qoyulub. Nisbətən aran ərazidən çəkilən yol Şuşaya gedən yollardan biri olacaq.

"Bu yol Şuşaya aparır", - deyib göstərəcəyimiz və sükanı qürurla o tərəfə çevirəcəyimiz ikinci yol qələbəmizin şərəfinə "Qələbə yolu" adlandırılıb.

Bir sözlə, Qarabağın inkişafına start verilib. Boşuna deyilməyib ki, inkişaf yoldan başlayır. Yeni yollar bölgənin inkişafını sürətləndirəcək və regionun tranzit əhəmiyyətini artıracaq.

## Planlı iş

Qarabağ və ətrafındakı rayonlar haqqında danışarkən canlanan mənzərə binasız şəhərlər, evlərsiz kəndlər, yaşıllıqsız dağlardan ibarətdir. Bu bölgənin mövcudluğu işğala qədərdir. Ondan sonrası yoxdur. Təbii ki, bir də bərpadan sonra olacaq. Ancaq bunun üçün əvvəlcə plan qurulmalıdır. Böyük şəhərlərin baş planı tərtib edilməli, infrastruktur qurulmalı, planlı şəkildə tikinti başlamalıdır. Bu planda ilk növbədə tikiləcək şəhərlərin böyüməkdə olan əhalisi nəzərə alınmalıdır. Nədən ki, münaqişəyə qədər Ağdam şəhərində təqribən 40 minə yaxın insan yaşayırdısa, ötən dövr ərzində əhalinin sayı artaraq 50 mindən çox olub. Bu da o deməkdir ki, Ağdamda tikiləcək şəhərin planında artım dinamikası nəzərə alınmalı, minimum 70 minlik bir şəhər planlaşdırılmalıdır ki, işıqlı, günəşli Ağdamda məskunlaşmaq istəyən minlərlə insan burda rahatlıqla özünə yer tapa - yaşaya, oxuya, lazım gələndə müalicə oluna, ehtiyac duyanda haqqını araya bilsin.

Sadəcə böyük şəhərlər deyil, kəndlər də plan əsasında tikiləcək. Artıq ilk kəndlər üçün işlərə start verilib. Pilot olaraq icrasına başlanan kəndlər "ağıllı kənd" layihəsi əsasında qurulur.Zəngilan rayonunun üç kəndindən - Birinci, İkinci, Üçüncü Ağalı kəndlərindən başlayan layihə ilin sonunadək yekunlaşacaq. 1000-ə yaxın insanın yerləşdiriləcəyi kəndlərdə lazım olan bütün infrastruktur qurulacaq, əkin sahələri bərpa ediləcək.Bununla da kəndlər, sadəcə Qarabağ üçün yox, Azərbaycan üçün də bir nümunə, bir təcrübə olacaq. İnsanlar üçün maksimum əlverişli imkanların yaradıldığı və təqdim edildiyi maraqlı təcrübə. Nədən olmasın, Azərbaycanda insan dəyərlidir.

## Qarabağ "yaşıl enerji" zonasıdır

"İşıqlı, günəşli" demişkən, Qarabağ həm də alternativ enerji mənbəyinə çevriləcək. Məlum olduğu kimi, Azərbaycan ərazisində bu istiqamətdə fəaliyyətə çoxdan start verilib. Ölkəmizdə bərpaolunan enerji sahəsinə investisiya cəlbinə, demək olar ki, nail olunub. Belə ki, dünyanın aparıcı enerji şirkətləri arasında keçirilən tenderin nəticələrinə görə, günəş və külək elektrik stansiyaları tikintisinə sərmayə yatırmaq arzusunda olan iki şirkət ən yaxşı təklif irəli sürüb. Bu barədə dövlət başçısı yerli və xarici media nümayəndələri üçün keçirdiyi mətbuat konfransında məlumat verib. İki iri beynəlxalq şirkət ümumi həcmi 440 meqavata bərabər günəş və külək elektrik stansiyaları tikintisinə sərmayə yatırmaq arzusunda olduğunu bildirib. Erməni işğalından azad edilmiş ərazilərdəki imkanlara diqqət çəkən Azərbaycan Prezidenti Qarabağı "yaşıl enerji" zonasına çevirmək planlarını açıqlayıb.

Bu plan heç də təsadüfi deyil. Kəlbəcər və Laçının güclü küləyi külək stansiyaları, Zəngilan və Cəbrayılın qızmar günəşi günəş stansiyaları qurmaq üçün bu əraziləri əlverişli edir.

Bir sözlə, Qarabağ "yaşıl enerji" zonasıdır və Azərbaycan bu imkanlarından istifadə edərək Qarabağın inkişafını sürətləndirəcək.

## Azərbaycan indi böyük investorlar üçün daha maraqlı, daha cəlbedicidir

Qarabağ çoxşaxəli iqtisadi potensiala malikdir. Bu potensialından maksimum istifadə edilərək çoxşaxəli və müxtəlif təyinatlı logistik layihələr icra olunacaq. Ancaq məlumdur ki, irimiqyaslı layihələr böyük maliyyə vəsaiti tələb edir. İcra olunacaq layihələr milyonlarla, hətta bir neçə milyard dollar vəsait tələb edəcək. Qarabağda üç - Füzuli şəhərindən sonra Laçında və Zəngilanda da aeroportlar tikiləcək. Yüz kilometrlərlə dəmir yolu, şəhərləri və kəndləri birləşdirəcək minlərlə kilometrlik avtomobil yolu çəkiləcək.Bütün kənd yolları asfaltlanacaq. Bölgələrdə elektrik enerjisi ilə bağlı layihələrin bu ilin sonuna qədər icra edilməsi planlaşdırılıb. Qayıdacaq əhalinin içməli suyu, məşğuliyyəti, kənd təsərrüfatı ilə bağlı işlərin həlli maliyyə vəsaiti tələb edir. Bir milyon insanı ora qaytarmaq üçün həyata keçiriləcək inşaat işlərinin, məktəblər, xəstəxanalar, idman kompleksləri, mədəniyyət ocaqlarının tikintisinin vaxtında yekunlaşması da məhz maliyyə vəsaitinə bağlıdır.

Beləliklə, müharibədən sonrakı Qarabağın inkişafı həm də qoyulacaq sərmayədən asılıdır. Azərbaycan dövlətinin ayırdığı 2,2 milyard manat investisiya bu istiqamətdə bir başlanğıcdır. Prezident İlham Əliyevin açıqladığına görə, Qarabağın bərpası üçün təklif edilən investisiya proqramından bu il həyata keçiriləcək infrastruktur layihələrinin təxminən bir milyard manatı praktik olaraq paylanıb. İlk vəsait elektrik enerjisi, avtomobil və dəmir yolları, minalardan təmizləmə və s.sahələri əhatə edən infrastruktur layihələrinin icrasına yönəldilib.Ancaq 10 min kvadratkilometrdən çox ərazi azad edilib və rəqəmdən də göründüyü kimi, işin həcmi çox böyükdür. Ona görə də, sərmayədar yalnız Azərbaycan dövləti olmayacaq. Bütün tərəfdaş və maraq göstərən ölkələr bərpa işlərinə cəlb oluna bilər. Şəhərlərin planlaşdırılması, obyektlərin, o cümlədən infrastruktur obyektlərinin, yolların, körpülərin, elektrik stansiyalarının tikintisi ilə bağlı sifarişlər artıq edilib. Bir sözlə, Azərbaycanın sevincinə şərik olan, Qarabağın bərpasına töhfə vermək istəyən dostları üçün kifayət qədər iş var. Geriyə qalır hərənin işin bir qulpundan yapışması. Qarabağı inkişaf etdirərkən Azərbaycan tək olmayacaq. Üstəlik, Qarabağ müharibəsinin qalibi olmaq Azərbaycanı böyük investorlar üçün də daha maraqlı, daha cəlbedici investisiya ölkəsinə çevirib. Bundan sonra ölkəmizə daha fəal şəkildə sərmayə qoyulacağı şübhəsizdir. Sərmayədarlar üçün ən böyük zəmanət isə Prezident İlham Əliyevin sözüdür: "Hamı başa düşür ki, hərbi əməliyyatların yenidən başlanması riski praktik olaraq, sıfra bərabərdir. Azərbaycana gəlincə, bizim tərəfimizdən heç bir təcavüzkar hərəkətlər olmayacaq".

## Zamanla yarışırıq!

30 il əvvəl çıxdığımız yuvamıza kitab-dəftərimiz, rəngli qələmlərimizlə qayıdacaq, həsrətdən bozaran torpaqlarımıza öz tündlüyünü, yanğınlardan qaralan meşələrimizə yaşıllığını, qara buludlar arxasında qalan səmaya açıq mavi, çöllərimizə al-əlvan rəngini qaytaracağıq. Bu işdə tək qalmayacağıq. Tərəqqiyə xidmət edən, yaşatmaq, yaratmaq arzusunda olan, dünyaya sevgi və təbəssüm bəxş etmək istəyən qüvvələr də yanımızda olacaq. Dövlətimiz inkişaf etmək, özü ilə bərabər dünyanı da böyütmək istəyənlərə qapılarını açıb. Azərbaycan indi beynəlxalq əhəmiyyətli yolların kəsişdiyi, böyük iqtisadi layihələrin gerçəkləşdiyi, yeni iqtisadi imkanların yarandığı bir ölkədir. Burada həllini gözləyən işlərə heç bir şirkət, heç bir güc biganə qala bilməz.

İndi - Qarabağın yaralarını sağaldarkən Azərbaycanın yarışacağı əsas tərəfmüqabili zamandır. Zamanı dayandırmaq istəyənlər yox, zamanla bizimlə birgə yarışmaq istəyənlər üçün Qarabağ bir meydandır. Döyüş, münaqişə yox, inkişaf, tərəqqi meydanı.

**Ruhiyyə DAŞSALAHLI**

---



# "Qarabağ Azərbaycandır!" adlı lektoriya

Bakının Səbayıl rayonunda yerləşən 239 nömrəli məktəbdə "Qarabağ Azərbaycandır!" adlı lektoriya yaradılıb. Lektoriyanın yaradılmasında əsas məqsəd Təhsil nazirinin müvafiq əmrinə əsasən təhsil ocağında Azərbaycan ərazilərinin işğaldan azad edilməsində ordumuzun və dövlətimizin əldə etdiyi nailliyyətlərin təşviqinin aparılması, Azərbaycan Ordusunun şanlı qələbəsi barədə maarifləndirici tədbirlərin görülməsidir. Bundan başqa məktəbdə şagirdlərin milli-vətənpərvərlik ruhunda tərbiyə olunması, torpaqlarımızın azad olunması uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi, gənc nəslin şəhidlərimizin nümunəsində Vətən eşqi ilə yetişdirilməsi əsas məqsədlərdəndir.

Lektoriyada Ali Baş Komandan, ölkə Prezidenti cənab İlham Əliyevin 44 günlük Vətən Müharibəsi dövründə Azərbaycan Dövlətini Şanlı qələbəyə aparan daxili və xarici siyasəti, Ordumuzun Zəfər yürüşü, "Dəmir yumruq" əməliyyatı haqqında məlumatlar, fotostendlər öz əksini tapıb.

Lektoriyada həmçinin 239 nömrəli məktəbin həm Birinci Qarabağ müharibəsində, həm də Vətən müharibəsində canlarından keçən 8 şəhid məzununun həyat və döyüş yolunu əks etdirən stendlər yaradılıb. Bundan başqa Azərbaycanın Milli Qəhrəmanlarından ibarət stend, Azərbaycan tarixinin müxtəlif dövrlərini əhatə edən xəritələr, Qarabağın tarixi ilə bağlı kitablar, videomateriallar, elektron məlumatlar da lektoriyada mövcuddur.

Pandemiya qaydalarına riayət edilməklə həftə ərzində məktəbin şəhid məzunlarının ailələri lektoriyaya baxış keçirib. Şəhidlərimizin əziz xatirələrini əks etdirən lektoriya ilə yaxından tanış olublar.

Vətən müharibəsi Şəhidlərindən Zakir Teymurovun anası Nahidə Teymurova, Şəhid Vüsal Həsənovun anası Mərifət Həsənova lektoriyada igid övladları haqqında xatirələrini danışaraq onların məktəb həyatından, döyüş yolundan söhbət açıblar. Məktəbin adını daşıyan Birinci Qarabağ müharibəsi Şəhidi Tofiq Məmmədovun döyüş yoldaşı Kamil Şirinov da lektoriyaya baxış keçirən zaman qəhrəman şəhidimizin şücaətlərindən danışıb.

**Niyazi RƏHİMOV**

Vətən müharibəsinin ilk günlərindən, daha doğrusu, ilk saatlarından biz Türkiyənin dəstəyini hiss edirdik. Türkiyənin Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan ilk saatlardan Azərbaycanın haqq işinə öz dəstəyini verdi... Türkiyənin Azərbaycana verdiyi siyasi və mənəvi dəstək hər bir Azərbaycan vətəndaşını qürurlandırır, sevindirir. Bu gün biz birlikdə Zəfər paradında iştirak edərkən, bir daha bizim birliyimizi həm xalqlarımıza, eyni zamanda, bütün dünyaya göstəririk.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti



Türkiyə Azərbaycanın apardığı mübarizəyə ilk günlərdən bütün qurum və təşkilatları ilə dəstək vermiş, bütün imkanları ilə azərbaycanlı qardaşlarının yanında olmuşdur. Türkiyə olaraq Azərbaycan ilə münasibətlərimizdə özümüzə hər zaman böyük lider Heydər Əliyevin "Bir millət, iki dövlət" şüarını rəhbər tutduq. Qazi Mustafa Kamal Atatürkün dəqiq ifadəsi ilə Azərbaycanın kədərini kədərimiz, sevincini sevincimiz bildik.

Rəcəb Tayyib ƏRDOĞAN,
Türkiyə Respublikasının Prezidenti

# Bir millət, iki dövlət

## Türkiyənin siyasi və mənəvi dəstəyi bu Qələbənin qazanılmasında çox böyük rol oynamışdır

Azərbaycanla Türkiyə arasında əlaqələrin tarixinə nəzər salsaq görərik ki, bu dostluğun çox dərin kökləri var. Bu əlaqələri şərtləndirən amillər sırasında ortaq kökümüzün, dilimizin, din birliyimizin, oxşar mədəniyyətimizin və adət-ənənələrimizin olmasıdır. Türkiyə və Azərbaycan öz tarixlərinin ən mürəkkəb dövrlərində hər zaman bir-birlərinə dəstək olduqlarını nümayiş etdiriblər, sevincli, kədərli günləri birgə paylaşıblar.

Ulu öndər Heydər Əliyevin bir millət, iki dövlət kimi xarakterizə etdiyi Azərbaycan-Türkiyə dövlətləri arasındakı münasibətlər hər iki ölkə rəhbərliyi tərəfindən həyata keçirilən düzgün, məqsədyönlü siyasətin məntiqi nəticəsi olaraq hazırda bölgədə sülhün bərqərar olması işinə öz töhfəsini verməkdədir.

### Azərbaycan tək deyil, Türkiyə onun yanındadır

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Ermənistanın Azərbaycana qarşı növbəti hərbi təxribatının ilk saatlarından etibarən bütün səviyyələrdə bu xain təcavüz aktını qətiyyətlə pisləməsi, Azərbaycanın haqlı savaşında hər zaman yanında olduqlarını açıq şəkildə deməsi bəzi ölkələr tərəfindən qısqanclıqla qarşılansa da, haqq-ədalətin qalib gələcəyinə inamımızı daha da artırdı. Türkiyə Prezidenti bu məsələylə bağlı verdiyi çox açıq və sərt bəyanatları, məsajları ilə bir daha Azərbaycanın öz haqq işində yalnız olmadığını göstərdi. Türkiyənin müvafiq dövlət qurumlarının rəhbərləri, parlament üzvləri və ictimaiyyət nümayəndələri də məsələyə qəti və birmənalı münasibət bildirməklə ən çətin anlarımızda dost etibarını növbəti dəfə nümayiş etdirdi.

Azərbaycan Ordusunun ötən ilin sentyabrın 27-də başladığı genişmiqyaslı əks-hücum əməliyyatının nəticəsində 30 ilə yaxın düşmən tapdağı altında olan əzəli torpaqlarımızın işğaldan azad etməsinə özümüz qədər sevinən məhz qardaş Türkiyə oldu. Və qeyd etdiyimiz kimi möhtəşəm Qələbəmizdən söhbət açarkən Türk xalqının, Türkiyə dövlətinin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın mənəvi, siyasi, diplomatik dəstəyi danılmazdır. Təsadüfi deyil ki, ötən ilin noyabrın 11-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın 1 saylı Kliniki Tibbi Mərkəzdə müalicə olunan hərbçilərlə görüşündə bu məqam xüsusi qeyd olunub. Görüşdə çıxış edən ölkə başçısı İlham Əliyev deyib: "Biz tarixi anlar yaşayırıq. Görürsünüz ki, küçələrdə insanlar bu bayramı necə qeyd edirlər. Bu bayramı bütün Azərbaycan qeyd edir, bütün dünya azərbaycanlıları qeyd edirlər. Bu bayram qardaş Türkiyədə bizdəki kimi qeyd olunur. Bu, təbiidir. Çünki biz bir millət, iki dövlətik. Bu günlər ərzində əziz Qardaşım, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana dəfələrlə öz təşəkkürümü bildirmişəm. Dünən də telefonla danışmışıq. Yenə də təşəkkürümü bildirdim. Türkiyənin siyasi və mənəvi dəstəyi bu Qələbənin qazanılmasında çox böyük rol oynamışdır. Çünki Prezidentin, Qardaşımın ilk saatlardan dediyi "Azərbaycan tək deyil, Türkiyə onun yanındadır" sözləri bir çoxlarının bu münaqişəyə müdaxilə cəhdlərini alt-üst etdi".

### Dünya ölkəmizin hərbi gücünü gördü

44 günlük Vətən müharibəsi göstərdi ki, bizim güclü ordumuz var, texniki təchizat da yüksək səviyyədədir. Bütün dünya gördü ki, biz hansı texniki imkanlardan istifadə edirik. Haqlı savaşımızda Azərbaycanın Rəşadətli Ordusunun əldə etdiyi qələbə və aparılan hərbi əməliyyatlar həm texniki imkanlar , eyni zamanda operativ addımlar, əməliyyatların hazırlanması və icra edilməsi baxımından hazırda bütün dünyada öyrənilir. Dövlət başçısı İlham Əliyevin qeyd etdiyi kimi, bu, yeni nəsil müharibə üsuludur, hansı ki, texniki təchizat, texnologiyaların tətbiqi, əməliyyatların düzgün planlaşdırılması və həyata keçirilməsi, hərbçilərimizin döyüş qabiliyyəti və mənəvi ruh birləşir, vəhdət təşkil edir. Və bu müharibə ölkəmizin hərbi gücünü, qəhrəmanlıq nümayiş etdirən Müzəffər Ordumuzun nəyə qadir olduğunu dünyaya nümayiş etdirməyi bacardı. Təbii ki, bu ordunun güclü olması üçün illər sərf edilib.

30 ildir ki, BMT, ATƏT və digər beynəlxalq təşkilatlar gözümüzə kül üfürməklə məşğul idilər, torpaqlarımızı işğal edən ermənilərlə bacara bilmirdilər. Ancaq bu gün qürur hissi ilə deyirik ki, adları qeyd olunan və olunmayan təşkilatların 30 ilə görə bilmədiyi işi Azərbaycan Respublikasının Prezidenti 44 günə həll etdi. Cənab Prezidentin həm döyüş meydanında, həm də siyasi arenada göstərdiyi qətiyyət apardığımız haqlı savaşdan Qələbə ilə çıxmağımızla nəticələndi. Və bu haqlı savaşımızda Türkiyə hər zaman yanımızda oldu.

Ordumuzun xarici ölkələrin Silahlı Qüvvələri ilə əməkdaşlığı, həmçinin ölkəmizlə strateji tərəfdaşları arasında müdafiə, eləcə də ən müasir silahlar ilə təchiz olunması sahəsində görülən işlər sayəsində aparıcı dövlətlərdən birinə çevrilən Azərbaycan bir sıra güclü ölkələrin diqqətini öz üzərinə çəkməyi bacardı.

İkinci Qarabağ müharibəsində bizim ordunun məharətlə istifadə etdiyi, erməni ordusunun isə kabusuna çevrilən PUA-lar dünya mətbuatının üzun müddət gündəmindən düşmədi. Prezident İlham Əliyevin "France 24" televiziya kanalına müsahibəsi zamanı müxbirin Türkiyənin hərbi iştirakı, eyni zamanda PUA-larla bağlı verdiyi suallara mükəmməl cavabları hamının marağına səbəb olmuşdu: "Türkiyənin hərbi iştirakı yoxdur. Biz Türkiyə istehsalı olan hərbi avadanlıqlardan istifadə edirik, bu, doğrudur. Lakin biz Rusiya istehsalı olan hərbi avadanlıqlardan, İsrail istehsalı olan hərbi avadanlıqlardan, digər ölkələrin istehsalı olan hərbi avadanlıqlardan istifadə edirik. Bunu pulsuz əldə edən Ermənistandan fərqli olaraq biz bu hərbi avadanlıqları alırıq. Siyasi müstəvi istisna olmaqla,Türkiyə heç bir halda prosesdə iştirak etmir. Burada Türkiyə qoşunları yoxdur".

Həmin müsahibədə jurnalistin Siz, Türkiyə istehsalı olan neçə dron cəlb etmisiniz?, Onlar bu münaqişədə öz sözünü deyirlər? suallarına da dövlətimizin başçısı aydınlıq gətirməklə yanaşı, eyni zamanda kimləri isə onun sayını öyrənməkdə "nigaran"qoydu: "Hədəflərimizə çatmağımız üçün kifayət qədər varımızdır. Zənnimcə, məni başa düşə bilərsiniz ki, bu, mənim açıqlamamağa üstünlük verdiyim məlumatdır. Əlbəttə, onlar çox müasir, inkişaf etmiş silahlardır. Sizə deyə bilərəm ki, təkcə Türkiyədən əldə etdiyimiz dronlar vasitəsilə biz Ermənistanın bir milyard dollar dəyərində hərbi texnikasını məhv etmişik, yalnız dronlar vasitəsilə".

### Tarixi bəyanat

Rəşadətli Ordumuzun sayəsində Azərbaycanın mirvarisi sayılan Şuşanın erməni işğalçılarından azad olunması Ermənistanı faktiki olaraq darmadağın etdi, onun bütün manevr imkanlarını çökdürdü. .Artıq bu məğlubiyyəti yaşayan Ermənistanın ağ bayraq qaldırmaq və kapitulyasiya etməkdən başqa çıxış yolu yox idi. Və ötən ilin noyabrın 10-da Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın baş nazirinin birgə bəyanat imzalanması ilə Dağlıq Qarabağ münaqişəsi bitdi. Bu tarixi bəyanat mahiyyət etibarilə Ermənistanın kapitulyasiyasıdır. Döyüş meydanında tamamilə məhv edilən Ermənistanın Azərbaycan Prezidentinin münaqişənin ilk günlərindən bəyan etdiyi şərtləri qəbul etməkdən başqa çıxış yolu qalmadı. İmzalanmış bəyanatda göstərilən müddəalardan biri də sülhməramlı mərkəzin yaradılması ilə bağlı idi. Ermənistan işğalından azad olunmuş Ağdam rayonunun ərazisində inşa edilən Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzi artıq öz fəaliyyətinə başlayıb. Mərkəzin əsas məqsədi 2020-ci il noyabrın 10-da Azərbaycan, Rusiya və Ermənistan arasında bağlanmış üçtərəfli bəyanatın bəndlərinin və əldə olunmuş razılaşmaların yerinə yetirilməsinə nəzarət etməkdir.Eyni zamanda bu Mərkəzin əsas funksiyalarından biri və ən önəmlisi postmüharibə dövründə işğaldan azad edilən torpaqlarımızda sabitliyin pozulmamasına nəzarət etmək, həmçinin pilotsuz uçuş aparatlarından da istifadə olunmaqla münaqişə zonasında hər hansı bir qarşıdurmanın olmasına imkan verilməməsidir.

### Bölgədə davamlı, dayanıqlı sülh və təhlükəsizliyin yeganə yolu əməkdaşlıqdır

2020-ci il sentyabrın 27-də Ermənistanın təxribatlarına cavab olaraq Azərbaycanın "Dəmir Yumruq" əməliyyatı ilə başladığı 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusunun düşmən üzərində qələbəsi tariximizə qızıl hərflərlə yazıldı. Bədnam qonşularımızdan fərqli olaraq biz ölkə olaraq nikbinik və gələcəyə dair planlar qururuq. Prezident İlham Əliyevin cari ilin fevralın 26-da yerli və xarici media nümayəndələri üçün keçirdiyi mətbuat konfransında jurnalistləri maraqlandıran sualların hər birinə verdiyi əhatəli cavablarında bölgədə davamlı, dayanıqlı sülh və təhlükəsizliyin yeganə yolunun əməkdaşlıq olması xüsusi vurğulanmaqla yanaşı, azad olunan torpaqlarımızın gələcək perspektivlərinə, qonşu ölkələrlə iqtisadi əməkdaşlıq məsələlərinə də toxunuldu: "Əlbəttə ki, biz davamlı sülhə nail olmaq istəyirik. Bu düşmənçilik səhifəsini çevirmək üçün yeganə yoldur. ...Mən deyə bilərəm ki, Türkiyədən olan şirkətlər artıq bizim layihələrimizdə yer alıblar. Bizim üçün strateji önəm daşıyan Füzuli-Şuşa avtomobil yolunun inşası ilə bağlı türk şirkətləri artıq fəaliyyətdədirlər. Eyni zamanda, Göygöl bölgəsindən Kəlbəcərə çəkilən yolda da türk şirkətləri fəaliyyət göstərirlər və o da çox mürəkkəb, çətin bir ərazidən keçir, orada tunellər qazılmalıdır. Artıq ilkin razılaşmalar əldə edilib. Bununla paralel olaraq, bildiyiniz kimi, Türkiyə şirkətləri Azərbaycanda bundan əvvəl də fəal idi. Dövlət xətti ilə icra edilən layihələrdə ən çox yer alan Türkiyə şirkətləridir. Dəqiq rəqəmlər xatırlamıram, amma Türkiyə şirkətləri Azərbaycanda - Bakıda və bir çox başqa yerlərdə təqribən 10 milyard dollardan çox dəyəri olan layihələrdə, müxtəlif inşaat layihələrində iştirak ediblər.Təbii olaraq ilk kontraktlar imzalanarkən da Türkiyə şirkətləri olub. Görüləcək işlərin həcmi çox böyükdür".

Prezident İlham Əliyev həmin görüşdə ölkəmizin müdafiə sənayesinin inkişafı məsələsindən də danışıb: "Müharibə dövründə bütün dünya Türkiyə müdafiə sənayesinin keyfiyyətini gördü. Bu, artıq dünya üçün sirr deyil. Türkiyə istehsalı olan müdafiə sistemlərindən Azərbaycan məharətlə istifadə edib və müharibədə bu, bizə böyük üstünlük təmin etmişdir. ...Türkiyə tərəfi ilə Türkiyədə istehsal olunan ən müasir silah növlərinin Azərbaycana gətirilməsi üçün razılaşma əldə edilib. Yeni kontraktlar imzalanıb və bu, bizim hərbi gücümüzü böyük dərəcədə gücləndirəcək... Mən müharibə dövründə demişdim və bu, hər kəsə bəllidir ki, Türkiyə Ordusu dünya miqyasında ən güclü ordular sırasındadır, NATO-da güc baxımından ikinci ordudur. Biz də Azərbaycanda Türk Ordusunun kiçik modelini yaratmaq əzmindəyik. Artıq bu sahədə əməli-praktiki işlərə start verilib".

Ölkə başçısı İlham Əliyev jurnalistlərin suallarını cavablandırarkən Cənubi Qafqaz regionunun dərindən inteqrasiya olunmasına, qonşu dövlətlərlə iqtisadi əlaqələrin müxtəlif istiqamələrinə də toxundu. Prezident həmin görüşdə verdiyi mesajlarla Türkiyənin ən güvənilə biləcək, qardaş hesab etdiyimiz bir ölkə olduğunu növbəti dəfə bəyan etdi: "Türkiyə bu gün dünya miqyasında güc mərkəzi kimi, bütün bölgələrdə, o cümlədən bizim bölgəmizdə çox müsbət rol oynayır və bu, bölgənin sabitliyi üçün çox önəmlidir".

Samirə KƏRİMOVA

# İntensivləşən təhsil əlaqələri

## Təhsil naziri Emin Əmrullayevin Türkiyə səfəri ikitərəfli əlaqələrin ən yüksək səviyyəsi ilə səciyyələnir



Müstəqilliyimizin ilk illərindən Azərbaycanın Türkiyə ilə qardaşlıq münasibətlərinə əsaslanan ikitərəfli əlaqələri ötən müddət ərzində özünün ən yüksək mərhələsini yaşayır. Ümummilli lider Heydər Əliyev tərəfindən ifadə olunmuş "Bir millət, iki dövlət" fəlsəfəsinə uyğun olaraq iki ölkə arasında geniş vüsət almış əməkdaşlıq çərçivəsində Azərbaycan-Türkiyə təhsil əlaqələri də bu gün daha sürətli və dinamik inkişaf tempi qazanmaqdadır.

Azərbaycanın Təhsil naziri Emin Əmrullayevin qardaş ölkəyə nazir statusunda ilk səfəri də ikitərəfli əlaqələrin ən yüksək səviyyəsi ilə səciyyələnir.

Səfər çərçivəsində Emin Əmrullayev Ankara şəhərində ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib. Daha sonra Təhsil naziri Ankarada Ulu Öndərin adını daşıyan və Azərbaycan tərəfindən ərməğan edilən ümumtəhsil müəssisəsində tədrisin təşkili və məktəblilərin ifasında ulu öndərə həsr olunmuş yaradıcılıq nümunələri ilə tanış olub.

Azərbaycanın Təhsil nazirinin qardaş ölkəyə səfəri çərçivəsində iki ölkə arasında peşə təhsili sahəsində əməkdaşlığı özündə ehtiva edən "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında peşə təhsili sahəsində əməkdaşlığa dair Protokol"un imzalanması xüsusi əhəmiyyətə malikdir.

Təhsil naziri Emin Əmrullayevin Türkiyə Respublikasının milli təhsil naziri Ziya Selçukla birlikdə imzaladığı protokol çərçivəsində ölkəmizdə iki peşə məktəbinin Türkiyənin bu sahədə müsbət təcrübəsi əsasında yenidən qurulması, avadanlıq, məzmun və pedaqoji dəstəyin Tükiyə tərəfindən həyata keçirilməsi nəzərdə tutulur. "Biz hörmətli nazirlə görüşümüzdə öncəliklə yeni imzaladığımız "Türkiyə və Azərbaycan arasında peşə təhsili sahəsində əməkdaşlığa dair Protokol"un həyata keçirilməsi mövzusunda bəzi fikir mübadiləsi apardıq. Görüşlərimizin və əməkdaşlığımızın qardaş xalqlar üçün daimi olacağına inanıram", - deyə Z.Selçuk bildirib.

E.Əmrullayev Vətən müharibəsində Qələbədən sonra Türkiyə ilə təhsil və digər sahələrdə yeni işgüzar əlaqələrin daha da sürətlənəcəyini vurğulayıb: "Hesab edirik ki, protokol həm peşə təhsili, həm də infrastrukturun daha düzgün yaradılmasına xidmət edəcək".

İki ölkə arasında imzalanan protokol sənədindən gözləntilərin böyük olduğunu deyən E.Əmrullayev qeyd edib ki, bu saziş Azərbaycanda gənclərin peşə təhsili sahəsində daha yaxşı hazırlanmasına şərait yaradacaq.

Səfər çərçivəsində Təhsil naziri Emin Əmrullayev Türkiyə Respublikasının Xaricdə Yaşayan Türklər və Əqrəba Topluluqları Baş İdarəsi ilə Azərbaycan vətəndaşlarına Türkiyə Respublikasının seçilmiş tədqiqat universitetlərində doktorantura səviyyəsində təhsil almaq və qısamüddətli tədqiqat aparmaq imkanı yaradan Niyyət Məktubu imzalayıb. Yerli ali təhsil müəssisələrimizin pedaqoji və tədqiqat resurslarını artırmağa xidmət edən bu sənəd vətəndaşlarımıza qardaş Türkiyədə əlavə təhsil imkanı yaradır.

Emin Əmrullayev Türkiyənin Ali Təhsil Şurasında (YÖK) olub. Görüşdə Təhsil nazirinin Türkiyə Respublikasında təhsil alan 23 min vətəndaşımızın təhsilindən irəli gələn məsələlər müzakirə etmək imkanı olub. Bununla yanaşı, qardaş ölkənin ali təhsil müəssisələri ilə yerli ali təhsil müəssisələri arasında ikili diplom proqramlarının genişləndirilməsi üzrə müzakirələr keçirilib. Dövlət və özəl ali təhsil müəssisələri olaraq Ankara Universitetində və Bilkənt Universitetindəki görüşlərdə iki ölkənin ali təhsil müəssisələri arasında tələbə-müəllim mübadilələrinin həyata keçirilməsi, pedaqoji və inzibati heyətin ixtisasartırma imkanlarının yaradılması istiqamətində fikir mübadiləsi aparılıb.

Pandemiya dövründə tədrisin təşkilində Türkiyə Milli Təhsil Nazirliyinin uğurlu təcrübəsi ilə yaxından tanışlıq məqsədi ilə Təhsil naziri Emin Əmrullayev Ölçmə və Dəyərləndirmə Mərkəzi tərəfindən təqdim olunan EBA platformasının təqdimatında iştirak edib və Türkiyə timsalında ümumtəhsilin məzmununun çatdırılmasında texnoloji dəstəyin üstünlükləri dəyərləndirib.

Səfər çərçivəsində Emin Əmrullayev eyni zamanda Anadolu Peşə və Texniki Liseyini ziyarət edib və peşə təhsil müəssisələrinin əmək bazarının tələblərinə uyğun kadr hazırlığı ilə yerində tanış olub.

Beləliklə də Təhsil naziri Emin Əmrullayevin Türkiyə səfəri və əldə olunmuş razılaşmalar təhsil sahəsində əməkdaşlığın genişləndirilməsi, qarşılıqlı səylərin gücləndirilməsi istiqamətində mühüm mərhələ təşkil edir.

**Oruc MUSTAFAYEV**

# Apellyasiya Şurasının növbəti iclası keçirilib

Fevralın 26-da Təhsil nazirinin müavini, nazirliyin Apellyasiya Şurasının sədri Firudin Qurbanovun rəhbərliyi ilə şuranın növbəti iclası keçirilib.

"Microsoft Teams" platforması üzərindən keçirilən iclasda Bakı Şəhəri üzrə Təhsil İdarəsinin İnkişaf layihələri sektorunda baş məsləhətçi vəzifəsinə namizəd Sultanə Məmmədovanın, Cəlilabad Rayon Təhsil Şöbəsində aparıcı məsləhətçi vəzifəsinə namizəd Tacəddin Əlinin, Göygöl Rayon Təhsil Şöbəsində aparıcı məsləhətçi vəzifəsinə namizəd Firuzə Hidayətzadənin, Kəlbəcər Rayon Təhsil Şöbəsində məsləhətçi vəzifəsinə namizəd Elməddin Əsədovun, Lerik Rayon Təhsil Şöbəsində aparıcı məsləhətçi vəzifəsinə namizəd Vidadi Fətullayevin müsahibə nəticələri ilə əlaqədar şikayətlərinə baxılıb.

İclasda müsahibə komissiyaları üzvlərinin təqdim etdiyi məlumat və videogörüntülər əsasında şikayətlər araşdırılıb. 2 nəfərin şikayətinin təmin olunması, 3 nəfərin şikayətinin təmin edilməməsi barədə şura tərəfindən qərar qəbul olunub.

# Ali təhsil müəssisələrinin akkreditasiyası davam edir

Təhsildə Keyfiyyət Təminatı Agentliyinin təşkilatçılığı ilə Gəncə Dövlət Universiteti və Azərbaycan Texnologiya Universitetinin akkreditasiya qiymətləndirilməsi davam edir. Ölkədə yaranmış sanitar-epidemioloji vəziyyət nəzərə alınaraq, sözügedən ali təhsil müəssisələrinin akkreditasiya qiymətləndirilməsi təqdim edilən "Özünütəhlil hesabatları" və ona əlavə olunan sənədlər əsasında məsafədən həyata keçirilir.

Adıçəkilən təhsil müəssisələri ilə onlayn formatda təşkil olunmuş akkreditasiya qiymətləndirilməsinin müsahibə mərhələsi başa çatıb. Müvafiq Akkreditasiya Komissiyaları tərəfindən qiymətləndirmə nəticəsi olan Yekun Hesabatlar hazırlanaraq akkreditasiyaya dair yekun qərarın verilməsi üçün Təhsil Nazirliyinin Akkreditasiya Şurasının müzakirəsinə çıxarılması planlaşdırılır.

Qeyd edək ki, Nazirlər Kabinetinin müvafiq qərarı ilə təsdiq edilmiş "Təhsil müəssisələrinin akkreditasiyası Qaydaları"na əsasən Akkreditasiya Şurası akkreditasiyanın nəticələrinə dair qərar qəbul etmək səlahiyyətinə malik olan orqandır.

# Təhsil işçilərinin vaksinasiyasına başlanılıb

## Təhsil Nazirliyinin və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin birgə məlumatı

3 mart 2021-ci il tarixindən "Azərbaycan Respublikasında COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası"na uyğun olaraq ümumi təhsil müəssisələrinin pedaqoji və texniki heyəti üçün vaksinasiya prosesinə başlanılıb. İlkin olaraq yaşı 50 və daha yuxarı olan pedaqoji və texniki heyətin vaksinasiyasına start verilib.

Bu məqsədlə Bakı şəhərində yerləşən ümumtəhsil məktəblərində 10 peyvənd məntəqəsi yaradılıb. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən peyvənd məntəqələri kompüter avadanlıqları ilə təchiz olunub və data kart vasitəsilə internetə çıxış təmin olunub.

Qeyd edək ki, koronavirus pandemiyası şəraitində normal tədris mühitinin davam etdirilməsi üçün pedaqoji və texniki heyətin vaksinasiya prosesində iştirakı zəruridir.

# Rumıniyada 2021-2022-ci tədris ili üzrə HTP çərçivəsində təhsil

Rumıniyanın Təhsil və Tədqiqat Nazirliyi 2021-2022-ci tədris ili üzrə Azərbaycan vətəndaşları üçün təqaüd proqramı elan edir.

Təqaüd proqramı "Rumıniyanın Təhsil və Tədqiqat Nazirliyi ilə Azərbaycan Respublikası Təhsil Nazirliyi arasında təhsil sahəsində əməkdaşlığa dair 11 oktyabr 2004-cü il tarixində imzalanmış müqavilə"yə əsasən həyata keçirilir. Proqram hər iki ölkənin vətəndaşlarına tələbə mübadiləsi əsasında qarşı ölkənin ali təhsil müəssisələrində bakalavriat, magistratura və doktorantura səviyyələri üzrə təhsil almaq imkanı yaradır.

Təqaüd proqramına müraciət üçün son tarix 05 aprel 2021-ci il nəzərdə tutulub.

Ətraflı məlumatı elan *(http://htp.edu.az/uploads/fileuploads/2021/03/a0c30142cf084c72a75f94eb9a18c52f.pdf)* vasitəsilə əldə edə bilərsiniz.

# Koreyada növbəti tədris ili üzrə təqaüd proqramı

Koreya Respublikası tərəfindən 2021-2022-ci tədris ili üzrə elan edilən "Qlobal Koreya" təqaüd proqramına qeydiyyat davam edir.

Bakalavriat, magistratura və doktorantura, eyni zamanda tədqiqat üzrə elan olunan proqrama 40 yaşa qədər Azərbaycan Respublikası vətəndaşları müraciət edə bilərlər. Proqramda iştirak etmək istəyənlər 5 mart 2021-ci il tarixinədək sənədlərini Koreya Respublikasının Azərbaycandakı səfirliyinə təqdim etməlidirlər.

Təqaüd proqramı çərçivəsində təhsilə dair əlavə məlumatlarla elan *(http://htp.edu.az/uploads/fileuploads/2021/02/8eaf8384d65645958496b69be99e075c.pdf)* vasitəsilə tanış ola bilərsiniz.

# İSEF - Mühəndislik Sərgisində ölkəmiz 7 layihə ilə təmsil olunacaq

## “Sabahın alimləri” X respublika müsabiqəsinin bağlanış mərasimi

**Martın 2-də “Sabahın alimləri” X respublika müsabiqəsinin onlayn bağlanış mərasimi keçirilib. Tədbirdə Təhsil naziri Emin Əmrullayev, Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti İradə Hüseynova, Gənclər və idman nazirinin müavini Fərhad Hacıyev, Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin şöbə müdiri İndira Hacıyeva, Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Komitəsi sədrinin müavini Mirzə Cəfərzadə, Naxçıvan Muxtar Respublikasının Təhsil naziri Rəhman Məmmədov və müsabiqənin qalibləri iştirak ediblər.**







Mərasimdə çıxış edən Təhsil naziri Emin Əmrullayev bütün qalibləri təbrik edib, hər birinə fəaliyyətlərində uğurlar arzulayıb. Nazir “Sabahın alimləri” müsabiqəsinin əhəmiyyətindən söz açaraq müsabiqənin şagirdlərin gələcək inkişaf və karyerasına müsbət təsir göstərdiyini qeyd edib.

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti İradə Hüseynova, Gənclər və idman nazirinin müavini Fərhad Hacıyev, Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Komitəsi sədrinin müavini Mirzə Cəfərzadə də öz növbəsində qalib şagirdləri təbrik edərək, onlara gələcək işlərində uğurlar arzulayıblar.

Bildirilib ki, cari ildə 14 şəhər və rayonun ümumtəhsil məktəbində təhsil alan 208 şagird 123 elmi layihə ilə Elmi Ekspertiza Komissiyasının qərarına əsasən, müsabiqədə iştirak etmək hüququ qazanıb. Bu layihələrdən 37-i fərdi, 86-ı isə kollektiv işlənilmiş layihə olub.

Müsabiqəyə buraxılan layihələrlə Bakı şəhəri üzrə 55 faiz, Sumqayıt şəhəri üzrə 18 faiz, Şirvan şəhəri üzrə 10 faiz, həmçinin Naxçıvan Muxtar Respublikası və 10 rayon ümumtəhsil məktəbinin IX-XI sinif şagirdləri iştirak edib.

Şagirdlər müsabiqəyə riyaziyyat - 14, fizika, astronomiya -16, kimya - 8, biologiya - 16, tibb və sağlamlıq - 12, ekologiya, ətraf mühitin idarəolunması - 20, kompüter elmləri — 10, mühəndislik — 17 layihə ilə qatılıb.

Layihələrin qiymətləndirilməsini həyata keçirmək məqsədi ilə alimlərdən ibarət Münsiflər heyəti yaradılıb. Münsiflər heyətinin qərarına görə, müxtəlif kateqoriyalar üzrə I, II və III yerlərə 48 layihə üzrə 81 şagird, o cümlədən I yerə 8 layihə üzrə 13 şagird, II yerə 16 layihə üzrə 27 şagird, III yerə 24 layihə üzrə 41 şagird layiq görülüb.

Qaliblər sırasından İSEF- Mühəndislik Sərgisində ölkəmizi təmsil etmək üçün isə 7 layihə seçilib.

“Sabahın alimləri” respublika müsabiqəsinin iştirakçılarına hər il olduğu kimi bu il də ABŞ-ın müxtəlif beynəlxalq fondlar, assosiasiyalar və cəmiyyətlərinin Xüsusi Mükafatları verilib. Bu mükafatlar seçilmiş istiqamətlər üzrə 11 layihəyə (17 şagirdə) təqdim olunub.

Qaliblərə müsabiqənin təşkilatçıları adından diplom, medal və hədiyyələr təqdim ediləcək, yer tutmayan finalçılara isə müsabiqənin sertifikatları veriləcək.

Qeyd edək ki, Təhsil Nazirliyinin əsas təşkilatçılığı ilə 2012-ci ildən etibarən keçirilən müsabiqəyə ölkə miqyasında maraq ildən-ilə artır. Müsabiqə Təhsil Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, Gənclər və İdman Nazirliyi, Heydər Əliyev Mərkəzi, Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin təşkilatçılığı ilə keçirilir.

# Şəhid ailələri və qazilər dövlət qayğısı ilə əhatə olunur

⇦ Əvvəli səh.1

### Qazilərimizin sağlamlığının bərpasına xüsusi qayğı göstərilir

Bu qəbildən olan ardıcıl işlər göstərir ki, vətəndaşlarımızın daim qayğı ilə əhatələnməsi, dövlət dəstəyini hiss etməsi dövlət siyasətinin prioritet hədəflərinin təməlində dayanır. Vətənimizin, torpaqlarımızın bütövlüyünün bərpası uğrunda mübarizə aparmış qazilərimizin sağlamlıq vəziyyətləri, reabilitasiyası da daim diqqətdə saxlanılan məsələlərdəndir. Prezident İlham Əliyev davamlı olaraq şəhid ailələri və qazilərlə şəxsən görüşlər təşkil edir, onların problemi ilə yaxından maraqlanır. Vətən müharibəsi dövründə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva xəstəxanada müalicə alan qazilərimizə baş çəkib, onlara həm də mənəvi dəstəklərini ifadə etmişdilər.

### Şağan qəsəbəsində reabilitasiya mərkəzi əsaslı təmir olunub

Qazilərə tibbi yardım göstərilməsi məqsədilə əsaslı təmir işləri aparılmış Şağan qəsəbəsindəki reabilitasiya mərkəzinin şəraiti yaxşılaşdırılıb, müasir tibbi avadanlıqlarla təchiz olunub. Burada qazilərə yüksək səviyyədə müalicə təyin olunması, onların sağlamlıq ehtiyaclarına lazımi köməklik göstərilməsi üçün genişmiqyaslı hazırlıqlar aparılıb. Eyni zamanda, müharibə dövründə əlini, qolunu itirmiş qazilərimiz üçün də ən müasir protezlər sifariş edilib və bu da 300-dən çox qazimizin protezlərlə təmin edilməsinə imkan yaradır.

### 9200-ə yaxın şəhid ailəsi və müharibə əlilinə mənzil verilib

Dövlət başçımız bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirməkdə davam edir. Bu günə qədər 9200-ə yaxın şəhid ailəsi, müharibə əlili dövlət tərəfindən mənzillərlə təmin edilib. Təkcə keçən il 1572 mənzil verilib. Bu il isə 3 minə yaxın mənzil verilməsi nəzərdə tutulur. Beləliklə, həm Birinci, həm də İkinci Qarabağ müharibəsində şəhid olmuş övladların ailələrinə Bakıda, Sumqayıtda, Abşeron rayonunda bu ilin sonuna qədər mənzillər veriləcək. Əlavə olaraq, müharibə əlillərinə 7200-ə yaxın minik avtomaşını təqdim olunub.

### Haqq-ədalət savaşımızın qəhrəmanlarının həyat yolu örnəkdir

Haqq-ədalət savaşımızda bizə qələbə bəxş edən şəhidlərimiz, qazilərimiz, hərbçilərimizin qəhrəmanlığı, şücaəti gənc nəsil üçün əbədi miras qalan mənəvi dəyərimizdir. Məhz bu mirası gənc nəslə ləyaqətlə aşılayan, Vətən qarşısında öz vətəndaşlıq borcunu şərəflə yerinə yetirən minlərlə hərbçimiz Prezident tərəfindən yüksək dövlət orden və medalları ilə təltif edilib.

Azərbaycan bu şərəfli tarixi dövrdə həm də beynəlxalq müstəvidə haqq döyüşünün mübariz xalqı kimi tanındı. Uğurlu idarəçilik, peşəkar ordu quruculuğu, xalqının Prezidentinə etimadı, qətiyyətli liderinin ətrafında dəmir yumruq kimi birləşməsi Ermənistanın işğalçı ordusu üzərində qələbənin əldə olunmasını daha da sürətləndirdi. Beləcə, 30 illik tarixi olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli dünyada işğalçılığa göz yuman, bu niyyəti dəstəkləyən digər işğalçı qüvvələrə də mesaj oldu, həm də Azərbaycanın Müzəffər Ordusunun döyüş gücünü dünyaya, düşmənlərə göstərdi.

### Ordu quruculuğu uğurla davam edir

Ordu quruculuğu, ordunun təkmilləşdirilməsi prosesləri uğurla davam edir. Bu istiqamətdə yeni müqavilələr imzalanıb, ən müasir silahlar alınır. Beləliklə, Ermənistan hökuməti anladı ki, indiki rəqibi 30 il əvvəl, Birinci Qarabağ müharibəsində qarşılaşdığı hazırlıqsız, pərakəndə idarəçilik sistemi ilə idarə olunan dövlət deyil. Müasir Azərbaycan bütün sahələrdə, eləcə də hərbi sahədə də öz məsuliyyətini, beynəlxalq insan haqq və hüquqlarını dərk edir, hüquqi normalara qarşı sayğısızlıq sərgiləmir. Azərbaycan ordusu erməni işğalçılarının əksinə, onları öz torpaqlarımızdan uzaqlaşdıraraq məhz öz sərhədlərinə qədər qovdu.

44 günlük Vətən müharibəsində Ermənistan tərəfi Gəncə, Bərdə, Tərtər, Goranboy, Naftalan, Ağdam, Füzuli kimi rayonlarımıza raketlər atdı, arasında uşaqların da olduğu onlarla həmvətənimizi qətlə yetirdi. Sarsılmaz ordumuz bu itkilərin qisasını aldı və Ermənistanı böyük böhrana sürüklədi. Bu gün də qarşı tərəfin hakimiyyət dairələri arasında daxili çəkişmələr səngimir, idarəçi şəxslərin bir-birinə olan ittihamları, çaxnaşmaları getdikcə Ermənistanı tənəzzülə doğru aparır.

Azərbaycan isə qarşı tərəfin bu tənəzzülünün fonunda peşəkar dövlətçilik siyasəti yürüdərək, nəinki hərb, həm də təhsil, səhiyyə, digər sahələrdə müasir yanaşmalara əsaslanan layihələrlə güclü dayaqlar qurmaqdadır. Ölkənin inkişafını təmin edən bu məqsədyönlü layihələr həm də insan kapitalının gücləndirilməsini, rifahını sürətləndirir. Müstəqil Azərbaycan indi gücünə, qüdrətinə arxalanaraq əmin addımlarla irəliləyir.

# Ali təhsil müəssisələrinin akkreditasiyası davam edir

Təhsildə Keyfiyyət Təminatı Agentliyinin təşkilatçılığı ilə Gəncə Dövlət Universiteti və Azərbaycan Texnologiya Universitetinin akkreditasiya qiymətləndirilməsi davam edir.

Ölkədə yaranmış sanitar-epidemioloji vəziyyət nəzərə alınaraq, sözügedən ali təhsil müəssisələrinin akkreditasiya qiymətləndirilməsi təqdim edilən “Özünütəhlil hesabatları” və ona əlavə olunan sənədlər əsasında məsafədən həyata keçirilir.

Adıçəkilən təhsil müəssisələri ilə onlayn formatda təşkil olunmuş akkreditasiya qiymətləndirilməsinin müsahibə mərhələsi başa çatıb. Müvafiq Akkreditasiya Komissiyaları tərəfindən qiymətləndirmə nəticəsi olan Yekun Hesabatlar hazırlanaraq akkreditasiyaya dair yekun qərarın verilməsi üçün Təhsil Nazirliyinin Akkreditasiya Şurasının müzakirəsinə çıxarılması planlaşdırılır.

Qeyd edək ki, Nazirlər Kabinetinin müvafiq qərarı ilə təsdiq edilmiş “Təhsil müəssisələrinin akkreditasiyası Qaydaları”na əsasən Akkreditasiya Şurası akkreditasiyanın nəticələrinə dair qərar qəbul etmək səlahiyyətinə malik olan orqandır.

# Respublika fənn olimpiadalarının yarımfinal turu keçiriləcək

Fənn olimpiadalarının respublika mərhələsinin yarımfinal turunun keçiriləcəyi tarixlər açıqlanıb.

Belə ki, martın 8-də informatika fənni, martın 10-da isə digər fənlər (Azərbaycan dili və ədəbiyyat, tarix, coğrafiya, riyaziyyat, fizika, kimya, biologiya) üzrə respublika mərhələsinin yarımfinal turu keçiriləcək. Bu mərhələyə qeydiyyat *www.olimpiada.edu.az/* saytı vasitəsi ilə elektron formada həyata keçirilib.

Olimpiadaların yarımfinal turu mövcud pandemiya şəraitinə uyğun olaraq, ölkə üzrə 37 mərkəzdə təşkil ediləcək. Ümumilikdə, 6205 şagird bu mərhələdə iştirak hüququ qazanıb.

Qeyd edək ki, olimpiadaların təşkilində məqsəd istedadlı uşaqların aşkar edilməsi, şagirdlərdə müvafiq fənlərə olan marağın artırılması, onların sağlam rəqabət prinsipləri əsasında öz bilik və bacarıqlarını nümayiş etdirmələrinə şərait yaradılmasından ibarətdir.

Respublika fənn olimpiadaları “Kapital Bank”ın baş sponsorluğu ilə keçirilir.

**Son illərdə Azərbaycanın bütün sahələrdə inkişafı nəticəsində dünyanın bir çox tanınmış şirkətlərinin ölkəmizlə əməkdaşlıqda maraqlı olmasının hər birimiz şahidiyik. Artıq 15 ildən çoxdur ki, ölkəmizdə bir sıra dövlət qurumları ilə səmərəli əlaqələri olan “Microsoft” şirkətinin Azərbaycanda təhsil siyasətini uğurla həyata keçirən Təhsil Nazirliyi ilə işgüzar əməkdaşlığı da bu gün təhsilimizin daha modern, müasir dövrün çağırışlarına cavab verə biləcək səviyyədə inkişaf etdiyini deməyə əsas verir. Dünyanın ən böyük İT korporasyalarından olan “Microsoft” qeyd etdiyimiz kimi artıq neçə illərdir ki, Təhsil Nazirliyinin ən etibarlı tərəfdaşlarından biri hesab olunur.**




# “Microsoft”la əməkdaşlıq yeni müstəvidə

Təsadüfi deyil ki, 16 iyun 2020-ci il tarixində “Microsoft” şirkətinin təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə şirkətin vitse-prezidenti Filip Roq, Mərkəzi və Şərqi Avropa bölgəsinin korporativ əlaqələr və hüquqi məsələlər üzrə rəhbəri Nanna-Luize Linde, eləcə də “Microsoft” şirkətinin digər nümayəndələri arasında keçirilən videokonfransda ölkəmizin “Microsoft”la informasiya texnologiyalarının təhsildə tətbiq edilməsi ilə bağlı perspektivlərə də xüsusi toxunulub. Dövlət başçısı İlham Əliyev bildirib ki, hazırda Azərbaycanda rəqəmsal transformasiya üzrə hökumət strategiyası üzərində işlənir və bu məsələdə ölkəmizin “Microsoft”la yaxşı əməkdaşlıq edə biləcəyinə ümidvardır. Prezident bu proqramın növbəti 5 il üçün planlaşdırıldığını deyib: “Eyni zamanda, süni intellekt üzrə strategiyanın ətraflı işlənib hazırlanması ilə bağlı məsələlər də bizim gündəliyimizdədir. ...Əlbəttə, mən icra olunmuş layihələrin siyahısına baxdım. Aramızdakı əməkdaşlıq çox təsirləndiricidir və əminəm ki, bu, qarşıdakı illərdə tərəfdaşlığımızı gücləndirəcək. Həmçinin pandemiya ilə əlaqədar bu vəziyyət bizi məcbur edir ki, təhsil, distant təhsil məsələlərinə yeni bucaqdan baxaq”. Şirkətin vitse-prezidenti Filip Roq təhsil mövzusundan bəhs edilərkən “Microsoft”un Azərbaycanın təxminən 1 milyon tələbəsi üçün əlaqə qura bildiyini söyləyib.

Bəli, həmin videokonfransda aparılan müzakirələrdən də aydın oldu ki, 15 ildən çoxdur Azərbaycanla əməkdaşlıq edən “Microsoft” şirkəti ölkəmizlə iş birliyini qarşıdakı illərdə daha da gücləndirmək niyyətindədir. Çünki hər iki tərəf tərəfdaşlığın böyük potensialının olması qənaətindədir ki, bu da tərəflər üçün yaxşı perspektivlər açır.

## Təhsil Nazirliyi ilə məhsuldar iş birliyi

Təhsil Nazirliyi ilə məhsuldar iş birliyi olan “Microsoft” şirkətinin ölkəmizin təhsil sahəsində gördyü işlər, reallaşdırdığı layihələr onun fəaliyyətinin prioritet istiqamətlərindəndir. Uzunillik tarixi olan bu işbirliyi ilk vaxtlarda “2008-2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı”na və Təhsil Nazirliyinin “Microsoft” şirkəti ilə təhsil sahəsində uzunmüddətli əməkdaşlığına uyğun olaraq qurulsa da sonralar onun fəaliyyəti daha da genişləndi. Bu nüfuzlu şirkət tərəfdaşları ilə birgə müəllim və şagirdlər üçün yeni imkanlar yaratmaq, təhsili daha da təkmilləşdirmək üçün “İnnovativ müəllimlər”, “İnnovativ tələbələr”, eləcə də “İnnovativ məktəblər” layihələrini həyata keçirib. Təhsil Nazirliyinin şirkətlə əməkdaşlığı çərçivəsində orta məktəblərə verilmiş kompüterlərin lisenziyalaşdırılmış proqramla təminatı, müəllimlərin beynəlxalq səviyyəli forum və digər tədbirlərdə iştirakı təmin olunub, “Xalq kompüteri” layihəsi ilə bağlı müvafiq işlər görülüb.

Artıq ali təhsil müəssisələrinin tələbə və müəllimləri “Microsoft”un lisenziyalı proqramlarından istifadə edir, ali təhsil ocaqlarımızda şirkətin informasiya resursları təhsil proqramına inteqrasiyasının təkmilləşdirilməsi istiqamətində işlər həyata keçirilir. Azərbaycanın ali təhsil müəssisələrində təhsil alan tələbələrimiz “Microsoft Azerbaijan” şirkətinin “Imagine Academy” proqramının fəal üzvü olmaqla İKT sahəsində bilik və bacarıqlarını da yüksək səviyyədə formalaşdırıblar.

“Microsoft” şirkəti tərəfindən dünyada təbliq edilən və müəllimlər üçün nəzərdə tutulmuş “Həmkara dəstək” proqramı da ölkəmizdə Təhsil Nazirliyi ilə səmərəli əməkdaşlığın sayəsində uğurla reallaşdırılıb. Müəllimlərin informasiya kommunikasiya texnologiyaları vasitəsilə peşəkarlıq səviyyəsinin artırılmasına yönələn “Həmkara dəstək” proqramı məktəblərdə fəal müəllimlərin təlimçi rolunu yerinə yetirməsi və həmkarlarına dəstək göstərməsi məqsədi ilə yeni bilik və bacarıqlarının daha da təkmilləşdirilməsində yardımçı olub. Adıçəkilən proqram şagirdləri gələcəyə hazırlamaq məqsədi ilə texnologiyalarla zəngin effektiv təhsilə cəlb edilməsi, XXI əsr bacarıqlarının təhsilə tətbiqinin dəstəklənməsi, məktəblərin peşəkar inkişaflarını və öz tələbatlarını təmin etmək məqsədi ilə resursların yaradılmasında mühüm rol oynayıb.

## Fəaliyyət istiqamətləri genişləndirilib

“Microsoft” şirkəti rəqabətədavamlı milli innovasiya sisteminin formalaşmasında, cəmiyyətin innovativ səviyyəsinin yüksəldilməsi istiqamətində Təhsil Nazirliyinin dəstəyi və müxtəlif qurumların iştirakı ilə son illər fəaliyyət istiqamətlərini daha da genişləndirib. Həyata keçirilən işlərdən bir neçəsini diqqətə çatdırmaq istərdik. Məsələn, proqram təminatlarının lisenziyalaşdırılması sayəsində “Microsoft Azerbaijan “ şirkəti ilə Təhsil Nazirliyi arasında bağlanmış 3 illik sazişə əsasən təhsil müəssisələrində yerləşən 50.000 ədəd kompüter avadanlığında istifadə edilə biləcək “Microsoft” proqram təminatı lisenziyaları alınmışdır.

İnnovasiya sahəsində yeni perspektivlərə təkan verən layihələrdən biri də “Microsoft Imagine Cup” müsabiqəsidir.Qeyd edək ki, ötən il 5 nəfərlik şagird komandamız “Imagine Cup Junior” virtual süni intellekt hakatonunda II yerə layiq görülüb.

“Microsoft” şirkətinin formalaşdırdığı və Azərbaycanın da iştirak etdiyi “Rəqəmsal transformasiya üzrə dünyanın lider ölkələri” koalisiyası isə aparıcı ölkələrin texnologiya liderləri ilə təcrübə mübadiləsi əsasında rəqəmsal transformasiyanın daha effektiv və səmərəli olmasına dəstək olur.

Digər həyata keçirilən işlərdən biri İKT üzrə fənlərin tədris proqramlarının təhlili ilə bağlıdır. Belə ki, ali təhsilin bakalavriat və magistr səviyyələrində tədris olunan İKT üzrə fənlərin məzmunu, tədris proqramları və metodikasının “Microsoft” beynəlxalq təhsil proqramları əsasında yenilənməsi, qeyd olunan fənlər üzrə müəllimlərinin peşəkarlıq səviyyələrinin təkmilləşdirilməsi, müəllim və tələbələrin beynəlxalq sertifikasiyadan keçirilməsi istiqamətində mövcud vəziyyət təhlil edilərək bununla əlaqədar yeni təkliflər hazırlanmışdır.

Digər bir layihə “Microsoft Innovative Educator Expert - MIE Expert” (“Microsoft”-un innovativ ekspert müəllimi) proqramıdır. “MIE Expert” “Microsoft” şirkəti tərəfindən hazırlanmış təhsilin transformasiyası üçün texnologiyalardan istifadə edən dünyanın qabaqcıl müəllimlərini bir araya gətirən proqramdır. Və sevindirici haldır ki, ötən il “Virtual məktəb”də tədris aparan 15 azərbaycanlı müəllim “MIE Expert” adına layiq görülüb.

**Təhsil Nazirliyi və “Microsoft” şirkəti arasında əməkdaşlığın davam etdirilməsi barədə niyyət sənədi imzalanıb**

## “Microsoft” şirkəti tərəfindən yüksək qiymətləndirilən Azərbaycanın “Virtual məktəb”i

Və “Microsoft”la Təhsil Nazirliyinin əməkdaşlığı çərçivəsində hazırda uğurla tətbiq edilən “Virtual məktəb” layihəsi...

Bir ildir ki, insanların sağlamlığını təhdid altına alan, dünya iqtisadiyyatına ciddi zərbələr vuran COVID-19 təhlükəsi əfsuslar olsun ki, təhsil sahəsindən də yan keçmədi. Koronovirus pandemiyasına görə həyatımızın bütün sahələrində yaşanan müvəqqəti durğunluq tədris prosesinə də öz mənfi təsirini göstərdi. Məhz o dönəmdə Təhsil Nazirliyi və “Microsoft” şirkəti arasında əməkdaşlıq çərçivəsində həyata keçirilən “Virtual məktəb” layihəsi təhsillə bağlı yaranan çətinliklərin dəf edilməsində, çətin vəziyyətdən çıxmaq üçün uğurlu və zamanında atılmış addım oldu.

Bu layihə ümumtəhsil müəssisələrinin şagirdləri üçün məsafədən tədris imkanlarını genişləndirmək məqsədini daşıyır. Onu da qeyd edək ki, şagird və müəllimlərin rahatlıqla qeydiyyatdan keçərək elmi biliklər, qiymətləndirmə və onlayn dərslərə çıxışını təmin edən “Teams” bazası üzərində qurulmuş “Virtual məktəb” layihəsi ölkənin ən iri milli onlayn platformasıdır. “Microsoft Teams” platformasından istifadə təlim-tədris prosesinin məsafədən təşkilinin təmin edilməsində əhəmiyyətli rol oynadı.

Çox qısa zamanda “Virtual məktəb”in əhatə dairəsi genişləndi. Belə ki, ölkədə innovativ öyrənmə metodlarının təhsilə sürətli inteqrasiyasına yol açan platformada 2021-ci il 10-16 yanvar tarixləri üzrə qeydiyyatdan keçmiş şagirdlərin sayı 1442203, müəllimlərin sayı 128132, aktiv istifadəçi sayı 1 170528, həftə ərzində platformada keçirilmiş dərslərin sayı 6278106 təşkil edib. Artıq 830 min nəfər “Microsoft Teams” platformasını Azərbaycan dilindəki interfeys ilə istifadə edir.

Təsadüfi deyil ki, “Microsoft” şirkətinin internet saytında dərc olunan məqalədə Azərbaycanın “Virtual məktəb” platformasının məktəbəqədər və ümumi təhsil pillələri üzrə təhsil alan şagirdlərin öyrənmə prosesini təmin etdiyi xüsusi qeyd edilib. Azərbaycan təcrübəsinin yüksək dəyərləndirildiyi bu məqalədə təhsildə innovativ texnologiyaların tətbiqi və data əsaslı təhsilin gələcək perspektivləri yüksək qiymətləndirilib.

Məqalədə qeyd edilib ki, Təhsil Nazirliyi sözügedən onlayn təhsil platforması ilə pandemiya dövründə ölkədə 1,3 milyondan çox şagird üçün keyfiyyətli təhsilin əlçatanlığını təmin edib. “Microsoft Teams” platforması ilə təlim prosesinin bütün mərhələləri onlayn formada təşkil olunur, “Power BI” texnologiyası ilə statistik məlumatların təhlili aparılır və nəzarət mexanizmləri tətbiq edilir. Bu imkanlar zamanla tədris metodologiyalarını müasir tələblərə uyğun təkmilləşdirməyə şərait yaradır. Eyni zamanda, şagirdləri istənilən zaman və məkanda fərdi təhsil məzmununa çıxış imkanı ilə təmin edir. “Microsoft Teams” əsasında ümumi təhsil, peşə təhsili, orta-ixtisas və ali təhsil pillələri üzrə təqdim olunan “Virtual məktəb” platforması ölkədə innovativ öyrənmə metodlarının və yeni yanaşmaların təhsilə sürətli inteqrasiyasına yol açıb.

## Əməkdaşlığın gələcək perspektivləri

Təhsil Nazirliyi ilə “Microsoft” şirkətinin işgüzar əməkdaşlığının gələcək perspektivləri də artıq müəyyənləşdirilib. Bu ilin martın 3-də Təhsil Nazirliyi və “Microsoft” şirkəti arasında keçirilmiş onlayn tədbirdə birgə təhsil layihələri üzrə əməkdaşlığın davam etdirilməsi barədə niyyət sənədi imzalanıb. Təhsil naziri Emin Əmrullayev və “Microsoft” korporasiyasının vitse-prezidenti Anthony Salcito tərəfindən imzalanan sənədin məqsədi tərəflər arasında təhsil sahəsində əməkdaşlığı genişləndirmək və birgə innovativ layihələrin icrasını təmin etməkdir.

Niyyət sənədi çərçivəsində 4 istiqamət üzrə birgə fəaliyyətin aparılması nəzərdə tutulub. Belə ki, “Təhsildə rəqəmsal liderlik və siyasətin formalaşdırılması” istiqaməti üzrə birgə fəaliyyətə təhsilin rəqəmsal transformasiyası istiqamətində ümumtəhsil və ali təhsil sahələrində strateji əməkdaşlıq, Təhsil Nazirliyinin informasiya sistemləri və elektron xidmətlərin təkmilləşdirilməsi, həmçinin “Microsoft” korporasiyasının formalaşdırdığı “Rəqəmsal transformasiya üzrə dünyanın lider ölkələri” koalisiyasında Azərbaycanın iştirakı daxildir. Tərəflər eyni zamanda “Microsoft” təhsil proqramlarının tətbiq olunduğu nümunəvi məktəbin qurulması üzrə əməkdaşlıq etməyə razılıq əldə ediblər. “Tədris və öyrənmə” istiqaməti üzrə əməkdaşlıq nəticələrinə əsaslanan şagird mərkəzli öyrənmə, tədrisdə fərdi yanaşma, XXI əsr bacarıqları, gələcəyin müəllim modeli və analitik düşüncənin formalaşması üzrə birgə fəaliyyəti əhatə edir. Tərəflər pedaqoji ixtisas üzrə təhsil alan tələbələrin işə qəbuldan əvvəl texnoloji biliklərinin artırılması üçün xüsusi proqramların tətbiqini planlaşdırırlar. Eyni zamanda, bütün təhsil pillələri üzrə sənaye məzmununun və sertifikasiyanın tədrisə tətbiqi üzrə əməkdaşlıq ediləcək. “Rəqəmsal mühitin formalaşdırılması” istiqaməti bulud texnologiyaları və təhlükəsiz proqram təminatlarının bütün təhsil pillələri üzrə tətbiqini nəzərdə tutur. Qeyd olunan istiqamət üzrə xüsusi yer tutan fəaliyyətlər “Microsoft” süni intellektin Azərbaycan dilini tanıması və təhsildə qərarvermənin təkmilləşdirilməsi üçün yeni nəsil təhlil alətlərinin tətbiqi üzrə birgə əməkdaşlığın qurulmasıdır. “Təhsilalan və məktəbin uğuru” istiqaməti üzrə isə “Microsoft” korporasiyasının STEAM üzrə məzmunun inteqrasiyası, istənilən məkan, zaman və tempdə təhsilverənlərin texnologiyalar üzrə ixtisaslarının artırılması və sertifikatlaşdırması, yenilikçi fikirlərin, texniki həllərin yerli və beynəlxalq mühitdə təqdimatı, innovativ ekspert modelləri üzrə təhsil almaq imkanlarını özündə ehtiva edir.

**Samirə KƏRİMOVA**

# Sabahın alimləri

## İstedadlı məktəblilərin uğur hekayələri

**Məlumdur ki, yüksək elmi zirvələrə gedən yol məktəbdən keçir. Məhz orta məktəbdə qazanılan biliklər elm yolunu seçənlərin, eləcə də ölkənin gələcəyi üçün töhfələr verməyə hazır olanların gələcək uğur salnaməsini müəyyən edir. Son illər məktəblilər arasında elmi tədqiqatçılığın təşviq olunması yolunda Təhsil Nazirliyi tərəfindən görülən məqsədyönlü tədbirlər nəticəsində öz düşüncələrini, zəkalarının məhsulunu ortaya qoyan yeni istedadlı nəsil formalaşmaqdadır. "Sabahın alimləri" elm müsabiqəsi də belə tədbirlərdən biridir.**

**Artıq 10-cu dəfədir keçirilən müsabiqənin fevralın 2-də açıqlanmış nəticələrinə əsasən, müxtəlif kateqoriyalar üzrə qalib elan olunmuş 7 layihə Amerikada keçiriləcək ənənəvi İSEF - Mühəndislik Sərgisində ölkəmizi təmsil etmək hüququ qazanıb.**

**Ölkəmizi İSEF - Mühəndislik Sərgisində təmsil edəcək şagirdlər "Azərbaycan müəllimi"nə öz layihələri barədə danışdılar.**


Banuçiçək Kərimli


Murad Məmmədzadə


Rafiq Qasımov


Emin Xəlifəyev


Faiq Qasımov


İlkin Səmədov


Əli Əkbərzadə


Məhəmməd Abbaslı


Rəvsan Həbibullayev


Tamilla Süleymanova

### Əzələ hərəkətlərini danışığa çevirən cihaz

Sumqayıtdakı 11 nömrəli tam orta məktəbin XI sinif şagirdi Banuçiçək Kərimli və IX sinif şagirdi Murad Məmmədzadənin müsabiqəyə təqdim etdiyi layihənin adı "Smart Speech Synthesizer"dır. Bu, üz əzələ hərəkətlərini danışığa çevirən cihazdır. Olduqca maraqlı və aktual olan bir yaradıcılıq məhsuludur. Layihə barədə məlumat verən B.Kərimli qeyd edir ki, layihəmizin əsas məqsədi nitq qüsurlu insanların ətraf mühitlə ünsiyyətini təmin edərək onların həyat keyfiyyətini yüksəldəcək Danışıq Sintezi İnterfeysi (DSI) yaratmaqdır.

- Layihəmiz 3 əsas problemi həll edir. Məlumdur ki, nitq qüsurlu insanlar ətraf mühitlə ünsiyyət qura bilmirlər. Bu insanlar arasında işarə dilinin məhdud istifadə olunması və iş tapmaqda çətinlik çəkmələridir. Bu problemlərə həll yolu olaraq əzələ hərəkətlərini danışığa çevirən cihaz təklif edirik. Layihəmizdən nitq qüsurlu insanlar faydalana biləcəklər. Cihazımızın işləmə qaydası belədir: EMG elektrod, yəni əzələ sensoru xəstə insanın yanaq əzələlərinə bərkidilir. Əzələ hərəkətlərini nitqə çevirən kod vasitəsi ilə insanların əzələ hərəkətləri səsləndirilir. Bizim fərziyəmizə əsasən təklif etdiyimiz model daha dayanıqlı və davamlı EMQ (elektromioqrafiya) potensialları əsasında mükəmməl sistem qurmağa imkan verəcək. Əvvəlki oxşar sistemlərlə müqayisədə biz daha dayanıqlı, davamlı və mükəmməl interfeys icad etmişik. İstifadə etdiyimiz naqilsiz EMQ əlillərin danışığının rahat sintezini təmin edəcək. Layihəmizi təkmilləşdirmək gələcək planlarımızdan biridir. Cihazımızı optimallaşdırmaq, daha böyük bir kütləyə təqdim etmək və qlobal bazara daxil olmaq da məqsədimizdir.

### Standart məsələlərin qeyri-standart həlli

Heydər Əliyev adına Müasir Təhsil Kompleksinin XI sinif şagirdi Rafiq Qasımovun riyaziyyat nominasiyası üzrə təqdim etdiyi layihə tədris prosesinin təkmilləşdirilməsi və optimal variantların axtarılıb tapılması nöqteyi-nəzərindən maraq kəsb edir.

- Məlumdur ki, bəzi tənliklər və tənliklər sistemlərini standart üsullarla həll etmək cəhdi çox vaxt böyük çətinliklər yaradır. Lakin həmin tənlik və tənliklər sistemini triqonometrik funksiyaların xassələrindən istifadə etməklə həll etmək daha əlverişli olur və məsələnin həllini xeyli asanlaşdırır. "Triqonometriyanın köməyi ilə bəzi cəbri misalların həlli" adlı layihəmdə mən cəbri misalların triqonometrik əvəzetmələrin köməyilə həllinə çalışmışam. Həll etdiyim tənlikləri analitik üsulla həll etmək xeyli çətin olduğundan, düşünürəm ki, göstərdiyim həll üsulu riyaziyyatla dərindən maraqlananlar üçün çox faydalı ola bilər. Layihə üzərində işləyərkən mənə göstərdiyi diqqət və qayğıya görə elmi rəhbərim, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru V.Sərdarova öz dərin təşəkkürümü bildirirəm.

### Almazdan bərk material

Bakıdakı 132-134 nömrəli təhsil kompleksinin XI sinif şagirdi Emin Xəlifəyevin "Super sərt ion birləşmələrinin tədqiqi" mövzusunda layihəsi müasir fiziki-kimyəvi tədqiqatlarda ən çox maraq doğuran problemin həllinə həsr olunub. E.Xəlifəyev elmi rəhbəri, kompleksin müəllimi doktor Fransis Manto ilə üzərində işlədiyi layihə barədə fikirlərini bölüşür:

- Məlumdur ki, təbiətdə ən sərt maddə Moos şkalası üzrə on balla qymətləndirilən almazdır. Lakin bugünkü reallıqlar yeni yüksəkbərkilyə malik materialların kəşf olunmasını tələb edir. Tədqiqatımın məqsədi sərtliyinə görə almaz ilə müqayisə olunan, lakin hərbi sənayedə (bıçaq və saper kəsiciləri), konveyer istehsalında (çilingər və yonma dəzgahları), cərrahiyyədə (skalpellər və oftalmoloji bıçaqlar) daha əlverişli və praktik olan materialları aşkar etməkdir.

Layihə üzərində işləyərkən mən kristal kimya və bərk maddənin mexaniki modelləşdirilməsi prinsiplərindən istifadə edərək 40.000-dən çox hipotetik birləşməni araşdırdım. Layihəm təklif olunan materialların səmərəliliyinin artırılması və daha keyfiyyətli məhsulların maya dəyərinin aşağı salınması üçün işçi səthinə tətbiq edilməsini nəzərdə tutur.

### Qıcolmaların həllində innovativ yanaşma

Bakı Avropa liseyinin X sinif şagirdi Faiq Qasımovun tibb və sağlamlıq sahəsinə həsr olunmuş tədqiqat işi də cəlbedici və aktuallığı ilə seçilir. Müasir tibbin ən problemli məsələlərindən olan - qıcolmaların diaqnostikasına həsr olunmuş layihənin tam adı "NİRS neonatal qıcolmaların diaqnostikasında innovativ yanaşma"dır. Göründüyü kimi, tədqiqat işi ənənəvi tibbi problemlərin həllinə innovativ yanaşmanı özündə ehtiva edir ki, bu da şagirdlərimizdə elmi yenilikçi ruhun yüksək olmasından xəbər verir:

- Layihəm müasir tibbin ən aktual, hələ də öz həllini tapmamış problemlərindən biri olan körpə ölümü və erkən əlillik probleminə həsr olunub.

Məlumdur ki, əlil olan uşaqların bir çoxu körpəlikdə qıcolmalar keçirib. Bunu əsas tutaraq apardığım tədqiqatda qeyri-invaziv metod olan infraqırmızı spektrometriyadan qıcolmaların erkən diaqnostikasında istifadə etmişəm, eyni zamanda aparılan müayinə metodu ilə beyin zədələnmələrinin ağırlıq dərəcəsini müəyyən etməyə nail olmuşam. Beləliklə də alınan nəticələrin vasitəsi ilə gələcəkdə körpələri qıcolmalar baş vermədən öncə müayinə etmək mümkün olacaq ki, bu da effektiv müalicə metodunun seçimində köməklik edəcək.

### Virtual laboratoriya

Bakıdakı 260 nömrəli tam orta məktəbin X sinif şagirdi İlkin Səmədovun və BDU nəzdindəki "Gənc istedadlar" liseyinin X sinif şagirdi Əli Əkbərzadənin tədqiqat işi "Tədrisdə virtual laboratoriyanın yaradılması və onun tətbiqi" kimi maraqlı bir mövzuya həsr olunub. İ.Səmədovun sözlərinə görə, tədris prosesində müasir virtual təlim texnologiyalarından istifadə mühüm əhəmiyyət kəsb edir.

- Bu, özünü pandemiya dövründə də büruzə verdi. Təqdim olunan iş biologiya dərslərində istifadə üçün virtual laboratoriyaların yaradılmasına həsr olunmuş və mühüm nəticələr əldə edilmişdir. Eksperimentin alqoritmi qurulmuş və onun "Unity" proqram dilində proqramı yazılmışdır. Yekun olaraq virtual laboratoriya hazırlanmışdır.

İ.Səmədov qeyd edir ki, bütün inkişaf etmiş ölkələrin ali və orta məktəblərində tədrisdə virtual laboratoriyaların yaradılmasına və tətbiqinə böyük üstünlük verilir. Bu isə tədrisdə əyaniliyi təmin etmək, tələbə və şagirdlərin diqqətini tədrisə cəlb etmək üçün böyük rol oynayır. Virtual laboratoriyaların yaradılmasının bir sıra üstünlükləri vardır. Birincisi, bu laboratoriya şagirdlərin təhlükəsizliyini təmin edir, ikincisi isə maddi tərəfdən daha əlverişlidir. Çünki aparılan canlı tədqiqatlar zamanı istifadə olunan maddələr və ləvazimatlar böyük miqdarda maliyyə vəsaiti tələb edir.

### İtkiləri azaldan robot - "Army Bot"

Bakıdakı akademik Zərifə Əliyeva adına liseyin IX sinif şagirdi Məhəmməd Abbaslının "Army Bot" adlı layihəsi öz müasirliyi və orijinallığı ilə seçilir.

- Layihəmin əsas məqsədi hərbi sahədə insan itkisinin qarşısının alınması, eləcə də insan rolunun azaldılmasını nəzərdə tutur. Amma burada bir neçə məqamı qeyd etmək lazımdır:1)Düşmən tərəfi haqqında informasiya toplamaq; 2)Hərbçilərə müəyyən sənədlərin, yüklərin çətin keçilən yollarla çatdırılması; 3)Sərhədin qorunması; 4)Yerli şərait haqqında (hava, relyef, iqlim şəraiti) məlumatın əldə olunması. Bu robotun böyük effektivliyini nəzərə alaraq insan itkilərini azaltmaq olar. Məsələn, bu robot tamamilə kəşfiyyatçıların və mina axtaranların işini əvəz edə bilər.

### "RNT-lər və zülallar"

Bakı Dövlət Universiteti nəzdində "Gənc istedadlar" liseyinin X sinif şagirdləri Rəfsan Həbibullayev və Tamilla Süleymanovanın "biologiya" kateqoriyası üzrə tədqiqat layihəsi "RNT-lər və zülallar" mövzusuna həsr olunub.

Şagirdlərimiz qeyd edirlər ki, layihənin məqsədi insan, bəzi məməlilərdə və ali bitkilərdə eyni istiqamətli, yaxın, qonşu gen cütlərini genom miqyasında müəyyənləşdirmək və həmin genomların hüceyrə differensiasiyası, xərçəng və qocalmada rol oynayan eyni istiqamətli (quyruq-baş) və yaxın qonşu transkripsiya ilə induksiya olunan ximer RNT-lərin törənmə potensialını müqayisəli surətdə qiymətləndirmək olub.

- Biz elmi rəhbərimiz, AMEA Biofizika İnstitutu İnteqrativ Biologiya laboratoriyasının rəhbəri, AMEA-nın müxbir üzvü, biologiya elmləri doktoru, professor İlham Şahmuradovun köməyi ilə bu layihədə insan və 4 məməli heyvanın (rezus meymunu, şimpanze, ev siçanı və adi siçovul) və 6 ali bitkinin (soya, qara yonca, qara qovaq, pomidor, şərab üzümü və qarğıdalı) nüvə genomlarında ximer RNT-lər törətmə potensialına malik quyruq-baş gen cütlərini müəyyənləşdirmişik. Analiz olunmuş genomların hər birində quyruq-baş gen cütlərinin ümumi sayı təxminən 9700-19900, yaxın qonşu, yaxud qismən kəsişən quyruq-baş gen cütlərinin sayı təxminən 100-640 intervalında dəyişir. Yəni, bu genomların hər birində, xüsusən də qismən kəsişən gen cütlərinin ximer transkript törətmək potensialına malik quyruq-baş gen cütləri vardır.

Sonda qeyd edək ki, Təhsil Nazirliyi tərəfindən hər il keçirilən "Sabahın alimləri" kimi bilik yarışları, fənn olimpiadaları hər bir şagird üçün öz imkan və qabiliyyətlərini nümayiş etdirmək baxımından olduqca mühüm əhəmiyyət kəsb edir. Məhz buna görədir ki, şagirdlər arasında bu cür müsabiqələrə maraq ildən-ilə artır.

**Oruc MUSTAFAYEV**

# Şuşakənd şəhidi qəhrəman müəllim




**"Bir il idi işləyirdi məktəbimizdə. Bu qısa müddətdə böyük hörmət qazanıb kollektivin sevimlisinə çevrilmişdi. İşə can yandıran idi. İnsan kimi tayı-bərabəri yox idi. Yeri çox bilinir". Bu sözlər müəllimliyə yeni başlayan, zabit olaraq cəmi 4 illik hərbi təcrübəsi olan, ömrünü təsərrüfat sahəsində keçirməyə hazır Əvdil müəllim haqqında işlədiyi məktəbin direktoru Sevda Quliyevanın dedikləridir.**

## *Şəhid qızı Tamara Quluzadə:* "Torpaqlarımızın bütövlüyünü öz canı və qanı ilə bərpa edənlərin sırasında mənim atam da var"

Əvdil müəllim 48 illik ömrünü zəhmətlə yaşayıb. Yaşadığı ömrün haqqını da əməyi, tökdüyü təriylə verib. İndi ondan geriyə dürüstlüyü, yardımsevərliyi və bir də qəhrəmanlığı miras qalıb Əvdil Qardaşxan oğlu Quliyevin. Çünki orada doğulmasa da, böyüməsə də "O kənd mənim kəndimdi" dediyi Mərzilinin işğaldan azad olunması uğrunda silaha sarılıb o da. Bir çox silahdaşları kimi ucadan uca şəhadət zirvəsinə yüksəlib. Sevdiyi torpağa qarışaraq VƏTƏN olub balaları, ailəsi, əzizləri, həmkəndliləri və bütövlükdə milləti üçün.



### Kənd məktəbinin hərbi hazırlıq müəllimi

Əvdil Quliyev 1972-ci ildə Beyləqan rayonunun Təzəkənd kəndində anadan olub. Atası Ağdamın Mərzili kəndindəndir. Özünü mərzilili kimi hiss etməsinin səbəbi də bu idi.

Ali təhsilini Kənd Təsərrüfatı Akademiyasında (indiki Gəncə Dövlət Aqrar Universiteti) aldıqdan sonra həqiqi hərbi xidmətdə olub. Ali məktəbi leytenant olaraq başa vurduğundan 1996-cı ildə həqiqi hərbi xidmətə zabit olaraq başlayıb. 2000-ci ilə qədər Tovuzda taqım komandiri vəzifəsində xidmət edib və baş leytenant rütbəsi alıb. Hərbi xidmətdən tərxis olunaraq evinə qayıdıb və elə o il də müəllim bir qızla ailə qurub. Həyatını birləşdirdiyi qadınla əvvəlcə evini, uşaqlarına olan sevgisini, daha sonra müəllimliyi, məktəbi, şagirdlərinə olan bağlılığını paylaşıb. Həyat yoldaşı Səbinə xanım coğrafiya müəllimidir. Əvdil müəllim də 2019-cu ildən xanımının işlədiyi məktəbdə - Ə.Məmmədov adına Təzəkənd kənd tam orta məktəbində onunla çiyin-çiyinə çalışıb. "Gənclərin çağırışaqədərki hazırlığı" fənnini tədris edib.

### 48 yaşlı zabitə Vətəndən çağırış

Sevdiklərinlə sevinci-kədəri paylaşmaq asandır, amma torpağı paylaşmaq vətənpərvər təbiətli, millətçi ruhlu, torpaq sevdalısı biri üçün mümkünsüz idi. Bir canı səngərdə, ürəyi işğal altındakı torpaqlardaydı. Bu narahatlığını dindirmək üçün hərbi xidmətə davam etməyə can atırdı. Xanımının sözlərinə görə, dəfələrlə elədiyi cəhdlər boşa çıxırdı. Axırıncı dəfə Tovuz hadisələrindən sonra ərizə yazaraq əlinə silah almaq, müdafiə qüvvələrimizin sırasında yer tutmaq istəyini bəyan eləmişdi. 48 yaşı olduğu üçün çağırılacağına olan inamını itirir, buna görə narahatlıq keçirirdi. Bu dəfə onu çox gözlətmədilər. Nəhayət, çağırış gəldi və oktyabrın 1-də könüllü baş leytenant taqımının önündə yerini aldı.

Bundan sonra könüllü zabit Əvdil Quliyevin cəbhə gündəliyi yazılmağa başladı. Cəbhədən-cəbhəyə irəliləyərək Füzuli, Cəbrayıl, Xocavənd, Qubadlı istiqamətlərində döyüşdü. İllərdir işğal altında olan torpaqlarda qarış-qarış irəliləyən Azərbaycan Ordusunun sıralarında Əvdil müəllim də vardı. Dəfələrlə mühasirəyə düşsə də, ağıllı qərarları və seçdiyi döyüş taktikaları ilə gözlənilməz vəziyyətlərdən çıxmağı bacardı. Qəhrəmanlığı ilə əsgərlərinə örnək oldu. Onları da çıxılmaz situasiyalardan sağ-salamat qurtardı.

Ömür-gün yoldaşı Səbinə Ağayeva ilə axırıncı dəfə oktyabrın 30-da danışıblar: "Döyüşlər, oradakı vəziyyətlə bağlı heç nə danışmazdıq. Sadəcə onu dedi ki, Şuşaya doğru gedirik. Ondan sonra heç danışmadıq. Noyabrın 6-da Şuşakənddə şəhid oldu. Snayperlə vurulmuşdu. Noyabrın 8-də dəfn olundu. Dəfn mərasimində insanlar evimizə axışdı. Onu çiyinlərində marş oxuya-oxuya apardılar".

Atası Qardaşxan kişi oğlundan sonra çox qalmayıb. Oğlundan 20 gün sonra şəhid atası kimi o da köç edib ruhlar dünyasına.

### Zabit yoldaşını xilas edərkən şəhid olub

Döyüşdə zabit yoldaşına kömək etmək istəyərkən snayper gülləsinə tuş gələrək şəhid olub Əvdil müəllim. Sadəcə döyüşdə yox, həyatda da ətrafındakı insanlara, onların problemlərinə biganə qalmayıb. Özü üçün nə qədər çətin olsa da, başqalarından köməyini əsirgəməyib. Onun yardımsevərliyinin şahidlərindən biri də dostu, Təzəkənd kənd Ə.Məmmədov adına tam orta məktəbin direktor müavini Tapdıq Qasımovdur: "Əvdil müəllimi kənd adamlarının söhbətlərindən tanıyırdım. Barəsində həmişə yaxşı fikirlər eşidirdim. Vətənə, elobaya bağlı bir adam olduğunu kənddə çox adam bilirdi. Barəsində o qədər yaxşı fikirlər eşitmişdim ki, onunla maraqlanmağa başlamışdım. Sonra elə oldu ki, yaxın qonşu olduq. Bundan sonra onu yaxından tanımaq imkanım oldu. Tanıdıqca barəsində eşitdiklərimin səbəbini daha yaxşı anladım. Səhhətimdə tez-tez problemlərim yaranırdı. Qonşu, dost olduğumuzdan bunu o da bilirdi. Yoldan keçəndə həyətdə bir iş gördüyümü görsə, gəlib əlimdən alib o davam edərdi. "Sənə olmaz", - deyirdi. Bir mənə yox, hamıya qarşı qayğıkeşiydi. Həm qonşu, həm dost, həm də yaxşı iş yoldaşı idik".

Tapdıq müəllim müharibə ərəfəsində Əvdil müəllimin hiss etdiyi narahatlıqları da xatırlayır: "Səfərbərlik zamanı çox narahat idı. Çağırılanda sevinci gözlərindən oxunurdu. Çağırış məntəqəsinə getdi. Füzuli, Cəbrayıl, Qubadlı, Hadrut Xocavənd və Şuşa uğrunda döyüşlərdə istirak etdi. Hər zəng edəndə ruh yüksəkliyi ilə danışırdı döyüşlərdən. Axırıncı dəfə oktyabrın 30-da danışdıq. Son döyüşü Şuşa istiqamətində oldu".

### Niyyətin hara...

Həyat yoldaşı deyir ki, əziyyətsiz, zəhmətsiz bir günü olmayıb, həyatda hər şeyi çətinliklə əldə edib: "20 ildi ailəliyik. İndiyədək nəyisə asan əldə etdiyinin şahidi olmamışam. Nəyə nail olmuşuqsa, onun yorulmaz zəhmətinin, alın tərinin nəticəsidir".

Gündəlik həyatda ən çox kitab oxumaqdan zövq alıb. Xüsusən, silahlarla bağlı kitablar oxumağı xoşlayırmış. Necə deyərlər, hərbi həvəsi oxu seçimində də təsir edib: "Çox mütaliə edirdi. Müasir insanlar internetə meyil eləyirlər. Onun əlindən kitab düşməzdi. Hərdən özünü niyə yorur, deyə soruşurdum. Deyirdi ki, kitab oxumaq adamı yormur. Hərb elmi ilə, silahlarla çox maraqlanırdı".

Hərb sənətini sevən, hərbçi olmaq üçün durmadan cəhdlər edən zabit axırda əlində silah şəhadətə ucaldı. Gedərkən də ocağında 3 bala qoydu. Vətən əmanəti 3 övladı indi atasının adıyla öyünür, qəhrəmanlığı ilə qürurlanır. Tələbə qızlarıyla VII sinif şagirdi məktəbli oğlu üçün şəhid övladı olmaq qürurvericidir.

Ata-anası kimi müəllim olmağı hədəfləyən Tamara Quluzadə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Fizika fakültəsinin III kurs tələbəsidir: "Atamın yoxluğu bizi çox sarsıdıb. Onun ölümüylə heç cür barışa bilmirəm".

Tamaranın sözlərinə görə, atası istər aprel döyüşləri, istərsə də iyul döyüşləri zamanı müharibəyə getməyə can atıb: "Generalımız Polad Həşimovun və zabit yoldaşlarının şəhid olması sanki onun dincliyini əlindən almışdı. Vətən müharibəsinə çağrılanda sevindi. Əynində hərbi forma onun çoxdankı arzularının həyata keçməsi demək idi".

### "Mən burdayam, narahat olmayın!"

Arzusu gerçəkləşən atasından aldığı qələbə soraqlı xəbərləri gözləyən balaları üçün günlər asan keçmirdi: "İmkan tapanda cəbhədən zəng edərdi. Amma bu zənglər çox qısa olardı. Harada olduğunu demirdi. Hər şey yaxşıdır. Düşmənin məğlubiyyətinə az qalıb"- deyərdi, vəssəlam. Beyləqan raket atəşinə tutulanda anam bizi Bakıya yollamaq istədi. Atam razı olmadı, dedi ki: "Mən burdayam, narahat olmayın!" Döyüş yoldaşlarının dediyinə görə, hərbi əməliyyata gedərkən sürücü yolu səhv salıb və pusquya düşüblər. Atamın dəstəsi 3 saat döyüşərək pusqudan itkisiz çıxır. Bir dəfə də gecə maşınla gedəndə düşmənin minamyot atəşinə tuş gəliblər. Maşının çadırı çöldən bağlı olduğundan dərhal çıxa bilməyiblər. Atam özünü itirməyib. Süngü-bıçaqla çadırı cırıb əsgərləri atəş altından çıxararaq həyatlarını xilas edib. Dəfələrlə yaralı əsgərləri döyüş gedəgedə atəş altından çıxararaq həyatlarını xilas eləyib. Zabit yoldaşının dediyinə görə, son döyüşündə də zabit yoldaşına kömək edərkən snayper atəşi ilə vurulub".

Əvdil müəllimin şəhadəti qızının doğum gününə təsadüf edib: "Atamın şəhid xəbəri yavaş-yavaş qapımıza toplaşan insanlarla gəldi. O dəhşətli günü xatırlamaq bu gün belə çətindir. Ancaq bir təsəllimiz var. Bilirik ki, atamın ən böyük arzusu vətənimizin bütövlüyü idi. Ölkəmiz artıq bütövdür. Torpaqlarımızın bütövlüyünü öz canı və qanı ilə bərpa edənlərin sırasında mənim atam da var. Atamla fəxr edirəm! Şəhadətin mübarək, atam!"

Tamara atası ilə sadəcə qürur duymur, həm də onun arzuladığı kimi olmağa çalışır: "Vətənini azad və bütöv, bizi isə oxumuş, ali təhsilli, öz ayaqları üzərində dura bilən görməyi arzulayırdı. Bacım da Gəncə Dövlət Universitetində Texnologiya müəllimliyi ixtisası üzrə təhsil alır. İkimiz də onu bu uğurumuzla sevindirdik. Bu da bizim ən böyük təsəllimizdir".

Ölümündən sonra "Vətən uğrunda" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunan Azərbaycan Ordusunun cəsur zabiti, Azərbaycan məktəbinin qəhrəman müəllimi Əvdil Quliyevin adı, sadəcə ailəsində, elində-obasında yox, bütün ölkə hüdudlarında daima hörmətlə anılacaq.

Ruhun şad olsun, qəhrəman müəllimimiz!

**Ruhiyyə DAŞSALAHLI**

**"Dövlət Proqramı təqaüdçüləri"**

# "Xaricdə təhsil almaq fərqli təcrübədir"

**Müasir dövrdə hər bir ölkənin davamlı inkişafında ali təhsilin müstəsna rolu danılmazdır. Sürətli dəyişikliklərin baş verdiyi hazırkı vaxtda məhz ali təhsil hər ölkənin davamlı inkişafının başlıca hərəkətverici qüvvəsi hesab olunur. Buna görə də son illər dövlət başçısı tərəfindən ali təhsilin əlçatanlığının artırılması, ölkədə yüksək ixtisaslı, peşəkar kadrların hazırlanması, ali təhsildə rəqabət mühitinin formalaşdırılması sahəsində mühüm qərarlar qəbul olunub. Ölkə başçısı İlham Əliyev tərəfindən 2018-ci ilin noyabrında imzalanmış "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nı ali təhsil sahəsində qəbul olunan mühüm qərarlardan biri kimi göstərmək olar. Növbəti müsahibimiz hazırda uğurla icra olunan Dövlət Proqramı çərçivəsində xaricdə doktorantura təhsili alan Cəmilə Bayramovadır.**

## *Cəmilə Bayramova:*

## "Düşünürəm ki, Dövlət Proqramı iştirakçılarının Azərbaycana gətirəcəkləri yeni elmi yeniliklər ölkəmizdə böyük inkişafa səbəb olacaq"



**Tanıtım**

**1993-cü ildə Qazax rayonu, Yuxarı Salahlı kəndində anadan olub. 1999-cu ildə Zahid Mahmudov adına Yuxarı Salahlı kənd orta məktəbində ibtidai təhsilinə başlayıb. 2010-cu ildə Bakıdakı Vüqar Əvəzov adına 300 nömrəli tam orta məktəbi bitirib. 2010-2014-cü illərdə Bakı Dövlət Universitetinin biologiya fakültəsində təhsil alıb. 2015-ci ildə Azərbaycan Milli Elmlər Akademiyası Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunda magistratura təhsilinə başlayıb və 2017-ci ildə təhsilini fərqlənmə diplomu ilə başa vurub. Hazırda "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" çərçivəsində "Xərçəngin genetikası" ixtisası üzrə İstanbul Universitetində doktorantura təhsilini davam etdirir.**

– *2019-2023-cü illər üzrə Dövlət Proqramı (DP) çərçivəsində təhsil alırsınız. Yüksəkixtisaslı mütəxəssislərin hazırlanmasında DP-nin əhəmiyyətini necə qiymətləndirirsiniz?*

– Əlbəttə ki, yüksək qiymətləndirirəm. Dövlət Proqramı bizlərə bir çox imkanlar təqdim edir. Bunlardan birincisi yerli ali təhsil müəssisələri (ATM) ilə sıx əməkdaşlığın təmin edilməsidir. Düşünürəm ki, bizlər, dünyanın bir sıra ölkələrindəki tədqiqat mərkəzlərində əldə etdiyimiz bilik və bacarıqları ölkəmizə gətirdiyimiz, Azərbaycanda elm, təhsil, texnologiyanın inkişafına təkan verdiyimiz halda məqsədimizə çatacağıq. Bu baxımdan yerli ali təhsil müəssisələri ilə əməkdaşlığın bizim təhsil müddətimizdən etibarən qurulması olduqca əhəmiyyətlidir. Eyni zamanda, bu, Azərbaycan elminin dünyaya inteqrasiyası üçün də körpü rolu oynayacaqdır. Bundan başqa, DP müxtəlif ixtisas sahələrində fəaliyyət göstərən tələbələri əhatə edir, eyni və ya oxşar ixtisasa sahib, lakin fərqli tədqiqat mərkəzlərində çalışan tələbələrin bir-biri ilə əlaqə qurmasına, öz təcrübələrini bölüşməsinə imkan yaradır.

– *Azərbaycanlı gənclərin xaricdə təhsil almaq istəklərini nə ilə izah edirsiniz? Dövlətin bu sahədə dəstəyi barədə nə deyərdiniz?*

– Fikrimcə, bu istək sadəcə azərbaycanlı gənclərə məxsus deyil. Dünya təcrübəsində də, təhsil, səhiyyə, texnologiya, hərbi və s. istənilən peşə sahəsində bu, çox rast gəlinən və təbii bir haldır. Xüsusilə elm sahəsində dünyada elə bir mərkəz yoxdur ki, orada bütün mövcud elmi yeniliklərin hamısı ilə tanış olmaq, onları mənimsəmək mümkün olsun. Nəticədə təbii olaraq, elmi yenilikləri yaxından izləmək üçün müxtəlif ölkələrdə, tədqiqat mərkəzlərində mütəmadi olaraq ezamiyyələrdə, "workshop"larda, kurslarda olmaq ehtiyacı yaranır. Amma xaricdə təhsil almaq bir qədər daha fərqli təcrübədir. Bizlər bu haqda qərar verərkən, Azərbaycanda hazırda olmayan və ya zəif inkişaf etmiş elmi istiqamətləri seçmişik. Bu isə bizlərə, həmin ixtisas sahəsi üzrə möhkəm elmi baza yaratmağa və inkişaf etdirməyə imkan verir.

Dövlətin bu sahədə dəstəyi şübhəsiz olduqca əhəmiyyətlidir. Ümummilli lider Heydər Əliyevin sözləri ilə ifadə etsək "Təhsil hər bir dövlətin, ölkənin, cəmiyyətin həyatının, fəaliyyətinin mühüm bir sahəsidir. Cəmiyyət təhsilsiz inkişaf edə bilməz". Bu gün Azərbaycanın güclü iqtisadiyyatının, hərbi texnikasının, neft və qeyri-neft sahəsinin inkişafı bu sahələrdə çalışan yüksək ixtisaslı, savadlı kadrların sayəsindədir. Belə yüksək ixtisaslı kadrların yetişdirilməsi isə ibtidai sinifdən başlayaraq gənc nəslin maariflənməsinə, elmi bilik-bacarıqlarının artırılmasına, inkişafına şərait yaratmaqla mümkün olur. Dövlətin bu sahədə diqqətini, qayğısını və bunun müsbət nəticəsini görmüşük və görməkdə davam edəcəyik. Dövlət Proqramının təsis edilməsi dövlətin elmin inkişafında maraqlı olduğunun, gənclərə qarşı olan maddi və mənəvi dəstəyin növbəti göstəricisidir.

– *Sizcə, DP-nin də əsas hədəflərindən olan yüksək rəqabətli mütəxəssislər hansı meyarlara cavab verməlidir?*

– Düşünürəm ki, istənilən peşə sahibi öz işini sevməli, onu böyük məsuliyyətlə yerinə yetirməlidir. Eyni zamanda işində "ən yaxşısı" olmağa çalışmalıdır. Biz bəzən "rəqabət" sözünü yanlış şərh edirik. Rəqabət yalnız özünü təkmilləşdirmək, bilik və bacarıqlarını artırmaq, vəzifəsini ən yaxşı şəkildə və vicdanla yerinə yetirməyə çalışmaqla olmalıdır. Bizlər yüksək ixtisaslı mütəxəssislər ola bilərik, amma öncəliyimiz vətənimizin, xalqımızın inkişafı olmalıdır. Bütün peşə sahiblərinin əsas amalı ailəsinə, vətəninə və millətinə xidmət etmək olmalıdır. Bunu etdiyimiz halda öz borcumuzu yerinə yetirmiş olarıq.

**Düşünürəm ki, bizlər, dünyanın bir sıra ölkələrindəki tədqiqat mərkəzlərində əldə etdiyimiz bilik və bacarıqları ölkəmizə gətirdiyimiz, Azərbaycanda elm, təhsil, texnologiyanın inkişafına təkan verdiyimiz halda məqsədimizə çatacağıq.**

– *İxtisasınız və tədqiqat mövzunuz barədə nə deyə bilərsiniz, nələri araşdırmaq istərdiniz?*

– Təhsilimi davam etdirdiyim "Xərçəngin genetikası" ixtisası olduqca əhəmiyyətlidir. Belə ki, bu istiqamətdəki tədqiqatlar sadəcə xərçəngin effektiv müalicəsinə yönəlməyib, eyni zamanda, xərçəng xəstəliyinin erkən dövrdə aşkarlanmasını hədəfləyir. Xərçəngin genetik xəstəlik olduğunu nəzərə alsaq, ailədə bir və ya bir neçə xərçəng xəstəliyindən əziyyət çəkən şəxslərin olması digər sağlam ailə fərdlərində və dünyaya gələcək yeni nəsildə xərçəngin müşahidə olunma ehtimalını artırır. Xərçəng xəstəliyinin genetikasının öyrənilməsi, məhz bu şəxslərdə, xərçəng xəstəliyini meydana gəlmədən öncə aşkarlamağa və profilaktik tədbirlər almağa imkan verir. Bu proses genetik testlər və konsultasiyalar ilə həyata keçirilir.

Tədqiqat mövzusunu seçmək mənim üçün bir qədər çətin oldu. Çünki tədqiqat mövzumun həm xərçəng xəstəliyi üzrə tədqiqatlara töhfə verməsini, həm də əldə etdiyim elmi-praktik bilik və bacarıqların Azərbaycana qayıtdıqda onkoloji tədqiqatların inkişafına təkan verməsini istəyirdim. Nəticədə tədqiqat mövzumun Dünya Xərçəng Statistikasının (GLOBOCAN -The Global Cancer Observatory) 2019-cu və 2020-ci illərin nəticələrinə əsasən xərçəngə bağlı ölüm sayına görə birinci yeri tutan ağciyər xərçəngi haqqında olmasına qərar verdim. Qeyd etmək istərdim ki, cari ildə dünya üzrə xərçəngə bağlı 10 milyon ölüm müşahidə edilmişdir ki, bunun 18%-i ağciyər xərçənginin payına düşür. Bu baxımdan, həmin istiqamətdə tədqiqatların aparılması olduqca böyük əhəmiyyət kəsb edir. Tədqiqat işində əsas məqsəd xərçəng xəstəliyinin formalaşmasına və inkişafına səbəb olan genlərin susdurulması, bununla da xərçəng xəstəliyinin inkişafının qarşısını almaq, eyni zamanda xərçəng hüceyrələrini öldürərkən sağlam hüceyrə və toxumaların qorunmasına nail olmaqdır.

Düşünürəm ki, bu istiqamətdə görüləcək işlər, eyni zamanda DP-nin digər iştirakçılarının nailiyyətləri və Azərbaycana gətirəcəkləri yeni elmi yeniliklər Azərbaycanda elm, səhiyyə, texnologiya və s. kimi sahələrdə böyük inkişafa səbəb olacaqdır.

– *Təhsil aldığınız İstanbul Universitetində araşdırmalarınız üçün nə kimi imkanlar var? Pandemiya Universitetin fəaliyyətinə, tədris və elmi tədqiqatlarınıza necə təsir edib?*

– Mənim çalışdığım "Xərçəngin genetikası" laboratoriyası İstanbul Universiteti Onkologiya İnstitutunun binasında yerləşir. Hansı ki, onkoloji xəstələrin qəbulu, onların müalicəsi bu mərkəzdə aparılır. Tədqiqat İnstitutları əsasən xəstə nümunələrini xəstəxanalardan qəbul edir və üzərində işləyir. Onkologiya İnstitutunda isə həm xəstələrin qəbulu və müalicəsinin, həm də genetik tədqiqatarın eyni struktur daxilində olması bizim xəstələrlə birbaşa əlaqədə olmağımıza və onları müalicənin müxtəlif mərhələlərində müayinə etməyimizə imkan verir. Deyək ki, əgər biz müxtəlif genetik göstəricilərin xəstənin aldığı müalicələrdən (kimya terapiya, şüa terapiyası, cərrahiyə, hormon terapiyası və s.) əvvəlki və sonrakı dinamikasını ölçmək istəyiriksə, bunu dərhal etmək mümkündür. Xəstələrin aldığı müalicənin effektivliyini, sonrakı müalicənin seçilməsini məhz bu nəticələr müəyyənləşdirir. Bundan başqa, laboratoriya müasir genetik tədqiqatların aparılması üçün lazım olan bütün növ maddi-texniki baza ilə təchiz edilmişdir.

Türkiyədə virusun ortaya çıxması mart ayında oldu və artıq 1 ildir ki, bütün dünyada olduğu kimi Türkiyədə də bir çox sahələr kimi təhsil və səhiyyə sahəsinə də pandemiya öz təsirini göstərdi. Dərslər online formada keçirilməyə başladı. Pandemiyanın geniş vüsət aldığı ilk dövrdə və ikinci dalğa müddətində tədqiqatlara və xəstə qəbuluna müəyyən məhdudiyyətlər gətirildi. Profilaktik tədbirlər alınaraq, daha az işçi sayı ilə gündəlik iş yükü yerinə yetirilməyə çalışıldı. Hal-hazırda normal iş rejimi bərpa olunmuş haldadır. Təbii ki, lazımi tədbirlər daxilində.

**Bizlər yüksək ixtisaslı mütəxəssislər ola bilərik, amma öncəliyimiz vətənimizin, xalqımızın inkişafı olmalıdır. Bütün peşə sahiblərinin əsas amalı ailəsinə, vətəninə və millətinə xidmət etmək olmalıdır.**

– *Necə bilirsiniz, müasir tibb elmi xərçəngin müalicəsinə nə dərəcədə yaxınlaşıb?*

– Hələ də hər il dünyada təqribən 10 milyon insan xərçəng xəstəliyi səbəbi ilə həyatını itirir. Dünyanın hər yerində bu istiqamətdə çox vacib nəticələr əldə olunan araşdırmalar aparılır, bəs nə üçün xərçəng xəstəliyi hələ də tamamilə müalicə olunmur? Bunu 3 əsas səbəblə bağlaya bilərik:

1. Bu xəstəlik qrupu, bəziləri hələ aydınlaşdırılmamış minlərlə molekulyar və genetik mexanizmə malikdir.
2. Bu gün biz artıq sadəcə xərçəng şişlərindən yox, onları əhatə edən mikromühitdən də bəhs edirik. Hansı ki, bu mikro mühit şişin "qoruyucusu" kimi qarşımıza çıxır, onu istər immunsistemindən, istərsə də kənardan tətbiq edilən müalicələrə qarşı "görünməz" edə bilir və bununla da şişin daha çox aqressivləşməsinə və inkişafına şərait yaradır. Xərçəng müalicələrinin bəzən nəticəsiz qalmasının səbəblərindən biri budur.
3. Xərçəng hüceyrələri ətraf mühit şərtlərinə tez uyğunlaşır, az qala ağıllı bir orqanizm kimi davranır və buna görə dərmanlara qarşı müqavimət inkişaf etdirirlər.

Təbii ki, xərçəng olduqca kompleks bir xəstəlikdir. Onun müalicəsinin mürəkkəbliyini sadəcə bu 3 səbəblə izah etmək kifayət etməz. Amma müasir tibb elmi, xərçəng xəstəliyi qarşısında tamamilə çarəsiz deyil. Bu gün bütün xərçəng xəstəliklərinin 50%-in qarşısı alına bilir, 2/3-si isə müalicəsi mümkündür. Bunlar olduqca əhəmiyyətli göstəricilərdir. Artıq "xərçəng müalicə olunmaz xəstəlikdir!", "xərçəngin müalicəsi yoxdur!" kimi fikirlər keçmişdə qalmaqdadır. Bir sıra yeni metodların bu sahədə inkişafı xərçəngin daha effektiv müalicəsini mümkün edir. Bunlardan, mənim də olduqca diqqətimi çəkən yeni gen terapiya metodu "CRİSPR-Cas9" texnologiyasıdır. Hansı ki, 2020-ci ildə bu texnologiyanın müəllifləri Nobel mükafatına layiq görüldü. Xərçəng xəstəliyinin genetik xəstəlik olduğu nəzərə alındığında bu gen terapiya metodu böyük ümidlər doğurur. Düşünürəm ki, müasir elm ən qısa zamanda xərçəng xəstəliyinin tam müalicəsinə nail olacaq.

– *Doktorantura təhsilinizdən gözləntiləriniz barədə nə deyə bilərsiniz?*

– Doktorantura təhsilimin artıq 2 il yarım müddəti geridə qalmaqdadı. Bu müddəti müvəffəqiyyətlə başa vurmuşam. Bundan sonrakı müddətdə də, tədqiqat işimin ən yaxşı şəkildə icrasına və xərçəng xəstəliyinin müalicəsində rol oynaya biləcək nəticələr əldə etməyə çalışacağam.

– *Gələcək planlarınız və arzularınız...*

– Doktorantura təhsilini başa vurmuş şəxslərə ixtisası üzrə "fəlsəfə doktoru" elmi dərəcəsi verilir və "alim" olaraq qiymətləndirilir. Bu ad mənim üçün çox dəyərli və hazırda doktorantura təhsilimi davam etdirməyimə baxmayaraq olduqca yüksək, əlçatmazdır. Mənim arzum bu ada layiq bir tədqiqatçı olmaqdır. Ən böyük arzum isə Azərbaycanda elmin, təhsilin, səhiyyənin inkişafında rol oynamaqdır. Gələcək planlarım və arzum "Azərbaycan vətəndaşı" və "Azərbaycan alimi" kimi faydalı işlər görməkdir.

**Oruc MUSTAFAYEV**

## Psixoloq məsləhəti

**Yəqin razılaşarsınız ki, yaşadığımız dünya özünün təlatümləri, gözlənilməz, daha doğrusu ağlasığmaz hadisələri ilə bu gün həyatımızın sanki düzənini pozub. Valideyn-övlad münasibətlərində aqressivlik, anlaşılmazlıq halları çoxalıb, özümüzlə bərabər övladlarımız da stress, depressiya yaşayır? Psixologiya üzrə fəlsəfə doktoru Aynur Bünyatova ilə bu və digər psixoloji məsələlərə, valideynləri maraqlandıran bir sıra məqamlara toxunmağa çalışdıq.**




# Hər uşaq şərtsiz sevildikdə və sevməyi öyrəndikdə...



## *Aynur Bünyatova:* "Ailələr uşaqlarda yeni düşüncə formaları yaradılmasında köməkçi olmalıdırlar"

- *Hər yaşın öz spesifik xüsusiyyətləri, müəyyən psixoloji məqamları var. Əsasən hansı yaşlarda psixoloji çətinliklər özünü daha qabarıq göstərir və bu zamanında korreksiya olunmadıqda nə kimi psixi pozğunluqlara gətirib çıxara bilər?*

- Yaş dövrləri hazırda ən aktual problemlərdən biridir. Çünki meydana çıxan bir çox çətinliklər bilavasitə insanın müəyyən yaş dövrü ilə əlaqədardır. İnsanın hansısa yaş dövründə aldığı travmalar, ailənin verdiyi tərbiyə üsulu, həmin yaş dövründə insanın keçirmiş olduğu hiss və həyəcanlar, psixoloji gərginliklər və digər səbəblər özünü yetkin yaş dövründə açıq şəkildə büruzə verir. İnsanların başqalarını hədəf kimi seçməsinin, aqresiyasiyasının kökündə yaş dövründən qaynaqlanan problemlər dayanır.Uşaq psixologiyasında böhran problemi dörd kəskin məqamlarda baş verir: 1). 1 yaşın böhranı (çağalıq yaşından körpəlik yaşına keçid zamanı); 2).3 yaşın böhranı (körpəlik yaşından məktəbəqədər yaşa keçid zamanı); 3).6-7 yaşın böhranı (məktəbəqədər yaşdan məktəb yaşına keçid; 4).Yeniyetməlik yaşının böhranı.

Məsələn, 3 yaş böhranı nə deməkdir? Psixoloji ədəbiyyatda üç yaşın böhranı eyni zamanda kompleks canlanma adı ilə səciyyələnir. Bu böhran dövrü körpə yaşından məktəbəqədər yaş dövrünə keçid prosesində sərhəd rolunu oynayır. Uşağın həyatında çətin dövr kimi yadda qalır. Uşağın mövqeyinin dəyişməsi, müstəqilliyə və fəallığa can atması və onları əhatə edən yaşlı adamlardan münasibətlərinə dəyişiklik etməyi tələb edir. Onlarda neqativizm, neqativ reaksiyalar yaranır, tərslik, şıltaqlıq göstərir, yaşlılara qarşı çıxırlar, cavab qaytarırlar . Bəzi hallarda qəddarlıq müşahidə olunur, özlərindən balaca olanları döyürlər. Uşaqlar öz hərəkətlərini qiymətləndirməyi bacarmırlar, əlində olanları sındırırlar, qırırlar.

6-7 yaşın böhranı dedikdə, uşağın məktəbə hazır olma problemi nəzərdə tutulur. Şəxsiyyətin dərki prosesində 7 yaş böhranı yaranır. Bu zaman uşağın sabit halı arzu olunan ilə gözlənilən davranış arasında yaranan uyğunsuzluq əsasında pozulur. Belə ki, uşaq xüsusi tərz davranışlar ifadə edir, sanki nə isə gizlədir. "Acı konfet" sindromu - uşaq özünü pis hiss edir, lakin bunu göstərməməyə çalışır. Məktəb öncəsi yaranan bu böhranın digər səbəbi onun yeni şəraiti neqativ qarşılamasıdır. Əsas səbəb isə valideynlərin uşağı məktəb, müəllim ilə hədələməsidir.

Biz əgər yeniyetməlik yaşının böhranından söz açırıqsa, bu dövrdə səxsiyyətin identifikasiyası və rolların qarışması baş verir. Öz inkişafının beşinci mərhələsinə (12-18 yaş arası) keçid zamanı uşaq klassik psixoanalizin iddia etdiyi kimi, valideynlərə qarşı "sevgi və nifrət" hissi ilə qarşılaşır. Bu problemin müsbət həlli onun öz yaşıdları arasında sevgi predmeti tapa bilməməsindən asılıdır.

Valideynlərin uşağın inkişaf böhranlarının gedişatına az və ya çox dərəcədə təsir edə bildiyi yaş inkişafının əvvəlki mərhələlərindən fərqli olaraq, burada onların təsiri daha həlledicidir. Əgər valideynləri sayəsində yeniyetmə etibar, müstəqillik, təşəbbüskarlıq və bacarıq hissi mənimsəyibsə, onun identifikasiyası, yəni öz fərdiyyətinin dərki şansı artır.

- *Valideynlərimiz övladlarının tərbiyəsində nələri diqqətdə saxlamalıdırlar?*

- Diqqət edilməsi vacib olan bir çox mühüm məqamlar var ki, onlardan xüsusilə 3-nü diqqətə çatdırmaq istərdim. Birincisi sevgidir. Bilirik ki, hər ana və ata uşağına sevgi göstərir. Amma, bu sevgini necə nümayiş etdirir? Şərtlərin və istəklərin üstünə qurulmuş sevgi bağı, güvən problemi, dəyərsizlik hissi yaradacaq. Hər uşaq şərtsiz sevildikdə və sevməyi öyrəndikdə hüzur tapır. Şərtsiz sevgi xoşbəxtliyin açarıdır.

İkinci məqam, mükəmməlikdən uzaq olun. Uşağınızdan mükəmməl olmasını gözləmək həm onu, həm də sizi yorar. Uşaqlar hər yaşda bir işi bacardıqlarını hiss etmək istəyərlər. Bu hal onları gücləndirər.Əziz valideynlər, uğurla dəyər hissini qarışdırmayın. Bacarmadıqları işə görə övladlarınıza dəyərsiz olduqlarını hiss etdirməyin.

Üçüncüsü, uşaqlarınızı heç kimlə müqayisə etməyin. Övladınızı başqaları ilə müqayisə edərək ona fayda vermiş olmayacaqsınız. Bu yıxıcı təsir aranızdakı sevgi bağına da zərər verə bilər. Hər kəsin bacarığı və istedadı fərqlidir.

- *Bu gün elə uşaqlar var ki, onları "çətin tərbiyə olunan" adlandırırlar. Bu fikir nə dərəcədə düzgündür?*

- Uşağa "çətin olduğunu" deyəndə, sanki ona bir damğa vururlar. Çətin uşaqlar olmur, sadəcə hər uşağın ona uyğun ünsiyyət və münasibət tərzi var. Böyuklər onu müşahidə əsasında izləməyə bacarmalıdır. Uşağın hər xoşağəlməz davranışının arxasında hansısa problem və ya komplekslər gizlənə bilər. Məsələn, aqressivliyin, kobudluğun arxasında hansısa travmatik hadisə ola bilər və ya uşağa lazımınca diqqət, sevgi və tərif olmadığı üçün özünə qapanar, sakit, heç kəslə ünsiyyət qurmaqda maraqlı olmaz. Bir sözlə, valideyn bu cür xoşagəlməz davranış modeli ilə qarşılaşmamaq üçün tərbiyə üslubunda öz səhvlərini anlamalı, övladı ilə ümumi dil tapmağa çalışmalıdır. Valideynlər uşağın daxili aləmini anlamağa cəhd etməlidirlər və yarana bilən çətinliklər zamanı vaxtında mütəxəssislərə müraciət olunmalıdır.

- *Psixi pozuntular arasında depressiya daha geniş yayılıb. Təəssüflə qeyd etməliyik ki, bu gün depressiyaya düşənlər arasında uşaq, yeniyetmə və gənclərimizin də sayı az deyil. Bu, onların yaşadığı ailədə baş verən proseslərdənmi qaynaqlanır, yoxsa ətraf mühitin təsirindənmi?*

- Statistika bizə məktəbəqədər yaşda hər 100 uşaqdan 5-nin və yeniyetməlik dövründə hər 100 uşaqdan 8-nin psixoloji pozğunluq əlamətləri olduğunu deyir. Uşaqlarda depressiya tək bir səbəbə bağlana bilməz. Bu, uşağın təməl, psixoloji xüsusiyyətlərinə və ətrafın təsirlərinə görə ortaya çıxa bilər. Hansı faktorun daha ön planda olduğu uşaqdan-uşağa dəyişir. Ana-ata həyatdakı rollarını nizamlaya bilmədikdə uşaq özünü tək və çarəsiz hiss edər. Çox vaxtı valideynlər, belə deyək də, uşağın yaşadığı böhrandan xəbərsizdir. Övladlarının fərqli bir iç dünyaları olduğunu, yaddaşlarının çox güclü olmadığını və bəzi şeylərə əhəmiyyət vermədiklərini düşünürlər. Halbuki uşaqların hissləri, nə qədər maraqsız görünsə də, son dərəcə açıqdır. Ətraflarında olan bitənlərin fərqindədirlər. Ancaq mühakimə gücləri inkişaf etmədiyindən, problemlərin nədən qaynaqlandığını anlamazlar, çox vaxtda problemlərin özlərindən qaynaqlandığını zənn edərlər. Valideynlərin uşaqlarının ruh sağlamlığına təsir edəcək davranışlarından qaçmaları həm uşaqlar, həm də özləri üçün çox əhəmiyyətlidir. Körpəlik və uşaqlıq dövründə meydana gələn hər hansı psixoloji narahatlıqlar, övladlarımızın yetkinlik dövründə də əks olunur. Uşaqda meydana gələcək psixi çöküntü, həyatı boyunca qarşısına çıxıb onu narahat edə bilər.

Uşaqlarda ən əhəmiyyətli depressiya səbəbi, anadan ayrılıq vəziyyətidir. Onlar ana ayrılığına ilk etapda ani narahatlıq, hirs partlamaları ilə reaksiya göstərirlər. Ananı geri gətirmək üçün cəhd edərlər. Daha sonra ümidin itirilməsi, susqunluq, kədərlilik və ağlamalar müşahidə olunar. Bir müddət sonra da taleləri ilə barışmalı olarlar. Bu dövrdə uşaqlar yetkin depressiya xüsusiyyətlərini göstərirlər. Körpəlik dövründən etibarən güvən mühitində böyüdülməyən, ehtiyacları qarşılanmayan, stress altında, diqqət əskikliyi, öyrənmə və ya davranış pozulması olan uşaqlar daha asan depressiyaya düşürlər. Uşaqlarda depressiya əlamətlərini belə sıralamaq olar: Əsəbilik və huysuzluq; daimi görülən bədbəxtlik və ümidsizlik; sosial həyatdan əl çəkmək; iştahın azalması və ya artması; yuxu rejimindəki dəyişikliklər - çox yatmaq və ya yuxusuzluq; qışqırmaq və ağlamaq; zəif enerji və halsızlıq; dəyərsizlik və ya günahkarlıq hissi; ölüm və ya özünə qəsd düsüncəsi.

Bütün uşaqlarda bu əlamətlərin hamısı özünü göstərməyəcəyi kimi, fərqli zaman və mühitdə fərqli şəkillərdə ortaya çıxa bilər. Uşaqlıq depressiyasını təyin edə bilmək və qiymətləndirmək olduqca çətindir. Çünki uşaqların bir çoxu duyğu və düşüncələrini dilə gətirməkdə çətinlik çəkirlər. Uşaqlar razı olmadıqlarında, qorxduqlarında ya da özlərini pis hiss etdiklərində ağlayırlar. Böyüklər bu vəziyyətdə uşağı əyləndirərək, diqqətini başqa istiqamətə çəkməklə, həmin duyğuların keçəcəyini düşünürlər. Bu zaman məktəb və yoldaş əlaqələrindəki dəyişikliklər qiymətləndirilməli, təhsil müəssisəsinin rəhbərliyinin, müəllimlərin və psixoloqun ümumi fikri, məsləhət və tövsiyələri nəzərə alınmalıdır. Həmin anlarda xüsusilə valideynlərin rolu çox əhəmiyyətlidir. Buna görə də ailələr uşaqlarına nümunə, onlarda yeni düşüncə formaları yaradılmasında köməkçi olmalıdırlar. Çünki uşaqlar depressiya müddətində ailələrini nümunə olaraq götürə bilərlər. Onlar ən çox sevgiyə ehtiyac duyurlar.

- *Yeniyetmə və gənclərimizin psixi sağlamlıq və psixoloji durumunu necə qiymətləndirirsiniz?*

- Bu dövr bütün yaş dövrlərindən məsuliyyətli və çətin, bir sıra komponentlərin birləşdiyi bir dönəmdir. Məhz bu yaş dövrlərində övladlarımız artıq müstəqil həyata keçid alır. Müstəqil fikirləri formalaşmağa başlayır və müəyyən qərarlar qəbul edəcək yaşa gəlib çıxırlar. Artıq öz həyat yolunu seçmək məcburiyyətində qalırlar. Bu ilk baxışdan nə qədər asan görünsə də, bir o qədər çətin və məsuliyyət tələb edən bir qərardır. Bundan başqa, həmin dövrdə yeniyetmənin orta təhsili bitirmək və ali təhsil almaq kimi hədəfləri olur. Təbii ki, bütün bunlar bu yaş dövrü üçün sözün əsl mənasında çətindir. Çünki uşaq birdən-birə sanki ağır yükün altına girir və bu zaman psixoloji durumlar ortaya çıxır. Bəzən bu yaş dövründə depressiya hadisələrinə daha çox rast gəlinir. Yeniyetmə və gənclərdə əsasən ailədaxili konfliktlər, özünə inamsızlıq, fobiyalar, deviant davranış, ünsiyyət çatışmazlığı və s. kimi problemlər müşahidə olunur ki, bu da onların psixi sağlamlıq və psixoloji durumuna mənfi təsir göstərir.

- *Məktəbdə davranış pozuntusu nümayiş etdirən şagirdlərlə iş necə aparılmalıdır?*

- Şagrdlərlə davranış pozuntusu olan hər hansı bir uşağı onun üçün maraqlı və faydalı bir işə cəlb etmək lazımdır. Sinifdə uşağın rahat hiss edəcəyi və sinif yoldaşlarının hesabına özünü təsdiq etmək ehtiyacına malik olmayan bir atmosfer yaradılmasına diqqət verilməlidir. Uşaqda ev tapşırığı hazırlamaqda və mütəmadi olaraq dərslərdə iştirak etmək üçün müstəqil olaraq məsuliyyət daşımağa kömək edəcək iradi keyfiyyətləri inkişaf etdirmək vacibdir.

Xüsusilə belə uşaqların valideynləri övladlarının müəllimləri və dostları ilə sıx ünsiyyətdə olmalı, məktəbin psixoloqunun köməyindən yararlanmalıdırlar.

- *Bir neçə aydır ki, COVID-19 pandemiyası ilə əlaqədar karantin rejimi yaşamaqdayıq. Artıq müəyyən yumşalmalar var ki, onlardan biri də tədrisin qismən əyani formada bərpa olunmasıdır. Şagirdlərimiz müəyyən fasilədən sonra məktəbə qayıdıblar. Bununla bağlı yarana biləcək psixoloji çətinliklərin dəf olunması üçün müəllim və valideynlərə hansı tövsiyələr vermək istərdiniz?*

- Məcburiyyətdən irəli gələn uzunmüddətli sosial izolasiya hər birimiz üçün çətin sınaq olsa da düşünürəm ki, onun öhdəsindən birlikdə gəlməyi bacarırıq. Təbii ki, mövcud pandemiya şəraitində tətbiq olunan qaydalara uşaqların adaptasiyası müəyyən zaman tələb etsə də sonda buna nail olundu. Uşaqların məktəblərindən, sinif yoldaşlarından, sevimli əyləncələrindən ayrı düşmələri onlarda müəyyən problemlər yaratsa da sonradan bu vəziyyətlə barışmalı oldular. Bəzi ailələrdə isə təəssüf ki, yalnızlıqdan, anlaşılmazlıqdan və qayğısızlıqdan əziyyət şəkən uşaqlara da rast gəlirik. Uşaqlar tez-tez ailə şiddətinin şahidi və qurbanı olurlar. Bununla bağlı yaranan psixoloji çətinliklərin aradan qaldırılması üçün müəllim və valideynlərə uşaqlarda əsas üç istiqamətə- onların emosional hallarının tənzimlənməsinə fikir verməyi, fiziki aktivliyini və asudə vaxtın yaşa uyğun təşkilini tövsiyə edirəm.

## Valideynlər nələri diqqətdə saxlamalı

**Diqqət edilməsi vacib olan bir çox mühüm məqamlar var ki, onlardan xüsusilə 3-nü diqqətə çatdırmaq istərdim. Birincisi sevgidir. Bilirik ki, hər ana və ata uşağına sevgi göstərir. Amma, bu sevgini necə nümayiş etdirir? Şərtlərin və istəklərin üstünə qurulmuş sevgi bağı, güvən problemi, dəyərsizlik hissi yaradacaq. Hər uşaq şərtsiz sevildikdə və sevməyi öyrəndikdə hüzur tapır. Şərtsiz sevgi xoşbəxtliyin açarıdır.**

**İkinci məqam, mükəmməlikdən uzaq olun. Uşağınızdan mükəmməl olmasını gözləmək həm onu, həm də sizi yorar. Uşaqlar hər yaşda bir işi bacardıqlarını hiss etmək istəyərlər. Bu hal onları gücləndirər. Əziz valideynlər, uğurla dəyər hissini qarışdırmayın. Bacarmadıqları işə görə övladlarınıza dəyərsiz olduqlarını hiss etdirməyin.**

**Üçüncüsü, uşaqlarınızı heç kimlə müqayisə etməyin. Övladınızı başqaları ilə müqayisə edərək ona fayda vermiş olmayacaqsınız. Bu yıxıcı təsir aranızdakı sevgi bağına da zərər verə bilər. Hər kəsin bacarığı və istedadı fərqlidir.**

**Samirə KƏRİMOVA**

## Bölgələrdən

# Vətən müharibəsi iştirakçıları şagirdlərlə görüşüb



İmişli rayonu Hacırüstəmli kənd tam orta məktəbində II Qarabağ müharibəsinin iştirakçıları Rasim Allahyarov, Şəmsi Cəfərli, Murad Bədirxanov, İlkin Məmmədov və Rəsul Süleymanovla görüş keçirilib.

Təhsil şöbəsindən verilən məlumata görə, görüşün keçirilməsində məqsəd Vətən müharibəsinin iştirakçılarını, onların igidlik və şücaətlərini şagirdlərə tanıtmaq və məktəbliləri vətənə məhəbbət ruhunda tərbiyə etməkdən ibarət olub.

Qonaqlar şagirdlərə müharibə ilə bağlı xatirələrindən, göstərdikləri igidliklərdən danışıb və onları maraqlandıran sualları cavablandırıblar.

## Nümunəvi sinfə şəhidin adı verilib

Şuşa şəhər 1 nömrəli tam orta məktəbdə şagirdlərə vətənpərvərlik ruhunun aşılanması məqsədilə VII "a" nümunəvi sinfinə Vətən müharibəsində şəhidlik zirvəsinə ucalmış Pərviz Məmmədovun adı verilib. Pərviz Məmmədov Şuşa şəhər 18 nömrəli tam orta məktəbin məzunu olub.

Təhsil şöbəsindən bildiriblər ki, həmin sinfin şagirdləri bu adı doğrultmağı özlərinə bir vəzifə və mənəvi borc kimi qiymətləndiriblər.

## "Nə? Harada? Nə zaman?"

Astara rayon Y.Ağayev adına Artupa kənd tam orta məktəbində "Nə? Harada? Nə zaman?" bilik yarışmasının məktəbdaxili turu keçirilib.

Təhsil şöbəsindən verilən məlumata görə, yarışmada eyni sinif pilləsi üzrə təhsil alan 7 "a" və 7 "b" sinif şagirdləri iştirak edib.

Yarışda fərqlənən komanda məktəb rəhbərliyi tərəfindən mükafatlandırılıb.

## Ağdam məktəblilərinin qonağı

Ağdam rayon 149 nömrəli tam orta məktəbin şagird və müəllim kollektivi yazıçı Sevinc Nuru qızı ilə virtual görüş keçirib.

Rayon təhsil şöbəsindən bildiriblər ki, görüşdə şagirdlərə mütaliənin mənəvi zənginliyə aparan yol olduğunu vurğulayan yazıçı vətənpərvərlik mövzusunda yazdığı əsərlərindən söz açaraq yaradıcılığı barədə məlumat verib.

Sonda qonaq məktəblilərin suallarını cavablandırıb.

# "Şagirdlərimizi vətənpərvərlik ruhunda tərbiyə etmək əsas vəzifəmizdir"



**Ağayeva Əminə Bəxtiyar qızı. Akademik biliyi, kreativ düşüncəsi, pedaqoji ustalığı ilə seçilən bu müəllim həm də təvazökar, humanist və həssas bir insan kimi işlədiyi kollektivin sevgisini qazana bilib. Pedaqoji fəaliyyətində uğurlar ard-arda onu izləyir. 2020-ci ildə Bakı Dövlət Universitetinin coğrafiya fakültəsini bitirən Əminə Ağayeva elə həmin ildə əmək fəaliyyətinə E.Məmmədov adına İsmayıllı şəhər 3 nömrəli məktəb-liseydə başlayıb.**

## *Əminə Ağayeva:* "Yurdumuzun coğrafiyasını öyrədə-öyrədə onlarda Vətənə sevgilərini artırıram"

*- Əminə müəllim, işlədiyiniz müddətdə yadınızda qalan ilk nailiyyətləriniz hansılar olub?*

- Şagirdlərimlə birlikdə Sülh korpusunun layihələrində iştirak etmişəm. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü və "İslam Həmrəyliyi İli"nə həsr olunmuş "Bir günəşin zərrəsiyik" Beynəlxalq Şagird Konfranslarında şagirdim Əhmədli Nihad Fəraiz oğlu "Azərbaycanda multikulturalizm siyasəti" mövzusunda məruzəsi ilə qatılıb. Nəticədə uğur qazanıb.

Sonra "Qlobal çağırış" beynəlxalq müsabiqəsində şagirdim Toğrul Qasımovun "Hər kəsə təmiz içməli su" mövzusunda yazdığı inşa yazısı II yerə layiq görülüb.

*- Coğrafiya müəllimi kmi şagirdlərinizə bu fənni necə sevdirə bilibsiniz?*

- İlk gündən şagirdlərimə ölkəmizin havasına, suyuna, torpağına, təbii sərvətlərinə, eləcə də ekoloji problemlərinə hamımızın ortaq olduğumuzu və planetimizin coğrafiyasını öyrənməyin vacibliyindən söhbət açmışam. Bu öyrənmə prosesi şagirdlərə intellektual zövq verib.

Bu gün dərslərimdə şagirdlərimə yer üzünün sakini olmağın qüruru ilə yanaşı, onun məsuliyyətini paylaşmağı öyrədir və yurdumuzun coğrafiyasını öyrədə-öyrədə onların doğma Vətənə sevgilərini artırıram.

*- Şagirdləriniz coğrafiya fənnindən respublika fənn olimpiadalarında uğur qazanıbmı?*

- Doğrusu, zəhmətim hədər getməyib. 2019-cu ildə yetirməm IX sinif şagirdi Şıxməmmədli Aytən Telman qızı respublika fənn olimpiadasında II yeri qazanaraq gümüş medala layiq görülüb. 2020-ci ildə XI sinif şagirdi Salehova Aytən Vüqar qızı və IX sinif şagirdi Namazova Lamiyə Mübariz qızı respublika fənn olimpiadasında coğrafiya fənni üzrə II yeri tutaraq gümüş medal qazanıblar.

Lamiyə Namazova Avropa Coğrafiya Olimpiadasında ölkəmizi təmsil edib.

Rəhbərliyim altında bu il X sinif şagirdi Süleymanzadə Səyid Süleyman oğlu "Sabahın alımləri" respublika müsabiqəsinin finalına çıxıb.

*- Bəs sinif rəhbəri olduğunuz sinifdə şagirdləriniz məktəbin ictimai işlərində necə iştirak edir?*

- Rəhbərlik etdiyim XI "b" sinif şagirdləri məktəbimizin bütün işlərində fəal iştirak edirlər. Onlar Vətən müharibəsi zamanı ordumuzun əsgər və zabitlərinə sevgilərini, onlarla həmrəy olduqlarını cəbhə bölgəsinə gedərək apardıqları sovqatları ilə ifadə ediblər.

*- Əminə xanım, bu məqamda bir sual yaranır. Vətənpərvərlik sizin üçün nə deməkdir?*

- Şagirdlərimiz bilməlidirlər ki, vətənpərvərlik hamımız üçün ən ülvi hiss, doğma yurda olan sonsuz sevgi və el-obaya bağlılığımızdır. Vətənə olan borcunu ödəməkdir vətənpərvərlik. Bu, təkcə sözdə deyil, əməldə də olmalıdır. Vətənpərvərlik ilahi bir sevgidir, hər kəsə nəsib olmur. Mübariz, Fərid, Murad, Samid, Çingiz kimi oğullarımız canlarını Vətən yolunda qurban verdilər. Deməli, əsl vətənpərvər insan ölümün gözünə dik baxandır. Şəhidlər xiyabanında gecə-gündüz alovlanan məşəl də vətənpərvərliyə bir çağırışdır. Şagirdlərimizi vətənpərvərlik ruhunda tərbiyə etmək biz müəllimlərin əsas vəzifəsidir.

**Səhifəni hazırladı:** *Şakir CƏFƏROV*

# Region ali məktəbləri inkişaf yolunda

# ADPU-nun Quba filialı daha böyük hədəflərə doğru



**Yusif ALIYEV,**
*ADPU-nun Quba filialının direktoru, dosent*

**“Təhsil millətin gələcəyidir” - ulu öndər Heydər Əliyevin bu müdrik kəlamı təhsilin millət üçün necə böyük əhəmiyyətə malik olduğunun əyani sübutudur. Yəni, hər bir dövlətin inkişafı təhsildən keçir, təhsilin inkişafı isə milli şüurdan asılıdır. Təhsil çox mürəkkəb bir sistem olaraq həm də önəmli və həssas sahə olduğundan bilmək lazımdır ki, təhsil deyərkən təfəkkürümüzdə nəyi nəzərdə tuturuq. Ona görə də ilk olaraq o problemdən başlamaq lazımdır. Bəzən səhvən təhsillə tədrisi eyniləşdirirlər. Təhsil və tədris anlayışlarını qarışdırmamaq üçün fizikadakı kütlə və ağırlıq anlayışları ilə müqayisə etmək istərdim. Yanlış olaraq əksər vaxt kütlə ilə ağırlığı da eyni qəbul edirlər.**

## İlk bacarıq öyrənməkdir

Əslində isə kütlə cismin maddə miqdarının ölçüsüdür. Məsələn, bir parça metalın kütləsi o metal parçasını təşkil edən bütün atomların kütlələrinin cəminə bərabərdir. Ağırlıq isə həmin kütləni aşağı çəkən cazibə qüvvəsinin ölçüsüdür. Yəni, bir cismin kütləsi Marsda da Yerdə olduğu kimidir, lakin mühitin cazibəsindən asılı olaraq ağırlıqları fərqli olacaq. Eynilə təhsil anlayışı da dünyanın hər yerində eyni məna və eyni anlama malikdir. Lakin ölkələri təhsil göstəricilərinə görə bir-birindən kəskin fərqləndirən onların mükəmməl təhsil texnologiyalarına sahib olmalarıdır. Beləliklə, təhsil öyrəniləcək biliklərin məcmusu, tədris isə o bilik və bacarıqları özünə cəlb edib öyrənciyə ötürəcək vasitədir. Deməli, yüksək təhsil üçün ilk bacarıq öyrənməkdir.



## Rəqabətqabiliyyətli universitet

Bəli, qeyd etməliyik ki, dünya vahid çərçivədə haşiyələnmədiyindən, təhsilin də hər hansı bir ümumi, vahid modeli mümkün deyildir. Hər bir ölkənin özünəməxsus milli təhsil sistemi vardır. Bütün ali təhsil müəssisələri həmin ölkənin təhsil siyasətinə uyğun olaraq bu və ya digər formada fəaliyyət göstərirlər. Azərbaycanda da həmçinin. Universitetlərarası sağlam rəqabət mühitinin daha da mükəmməlləşdirilməsi müasir dövrün çağırışıdır ki, bu rəqabətdən sıyrılıb irəli çıxan ali məktəblər dünyanın reytinq göstəricili top universitetləri siyahısına düşə bilsin. Əminliklə söyləyə bilərəm ki, bu gün Azərbaycanda ali təhsil sahəsində olduqca fundamental işlər görülüb, görülür, inanıram ki, daha yaxşısı da görüləcək. Məsələn, Azərbaycan universitetlərinin istənilən birini götürüb 5 il öncəki forma və məzmunu ilə müqayisə aparsaq böyük fərq müşahidə edərik. Elə götürək Azərbaycan Dövlət Pedaqoji Universitetini. Son 5 ilin təhlili göstərir ki, 20 mindən çox tələbə kontingentinin təhsil aldığı universitetdə köklü islahatlar aparılaraq ölkə səviyyəsində rəqabətqabiliyyətli ali təhsil müəssisəsi quruldu. Son pandemiya şəraiti də daxil olmaqla universitetdə tədris texnologiyasının mükəmməlləşdirilməsi, maddi-texniki bazanın müasirləşdirilməsi, təlim-tərbiyənin yüksəldilməsi, proqram təminatının yenilənməsi, öyrənmənin öyrədilməsi, biliyin qiymətləndirilməsi kimi vacib işlər müsbət dinamika üzrə inkişaf etdirilir. Ölkənin müəllim kadrlara olan ehtiyacının böyük hissəsini qarşılayan Pedaqoji Universitetin nüfuzu artdıqca, adekvat olaraq müəllimin də hörməti artmış oldu. Böyük əmək və zəhmət hesabına qazanılmış ölkədaxili uğurlardan sonra universitetin dünya təhsil sisteminə inteqrasiyası baş tutdu. Belə ki, keçən il ADPU ilə ABŞ-ın Corc Vaşinqton Universiteti arasında ikili diplom proqramı üzrə saziş imzalandı. Dünya universitetlərinin akademik sıralama cədvəlində önəmli yerdə qərarlaşan Corc Vaşinqton Universiteti ilə imzalanan sazişə əsasən magistr hazırlığı üzrə təhsilin idarəedilməsi sahəsində Azərbaycan üçün yeni nəsil mütəxəssislər yetişdiriləcək. Bu halda dünya təhsil sisteminə inteqrasiya etmiş bizim universitetlərin adlarına dünya universitetlərinin akademik sıralama cədvəlində də rast gəlinəcək.

Təbii ki, təhsilin inkişafı dedikdə, təkcə paytaxtdakı ali məktəblərimiz deyil, bölgələrdə fəaliyyət göstərən universitet və universitet filiallarının inkişafı da nəzərə alınır. Azərbaycanın bölgələrində tarixi ənənələrə malik 10 universitet və 8 universitet filialı fəaliyyət göstərir. Bəzi ölkələrin təcrübəsinə əsaslanaraq demək olar ki, dünya universitetlərinin akademik sıralama cədvəlində öndə qərarlaşan ali məktəblərin böyük əksəriyyəti regionları təmsil edir.

Bu gün bəşəriyyət üçüncü sənaye inqilabı üzərindən sürətli keçid edərək rəqəmsal inqilab sayılan dördüncü sənaye inqilabı dövrünü yaşayır. Eksonensial şəkildə baş verən dördüncü sənaye inqilabı isə özünün sərt və radikal tələblərinə cavab verməyən ölkələrin sənaye infrastrukturlarını vurub sıradan çıxarır. Bunun qarşısını almaq üçün isə hər bir ölkə öz təhsil modelini modernləşdirmək zərurəti ilə qarşılaşır. Bunun üçün region ali təhsil müəssisələrinin inkişafına daha çox önəm verilməsi zərurətə çevrilir.

## Regionun inkişafında ali təhsilin rolu

Azərbaycan Respublikası Prezidentinin 29 yanvar 2019-cu il tarixli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın əsas məqsədi, vəzifələri və icrasının prioritet istiqamətləri olaraq regionlarda təhsilin səviyyəsinin yaxşılaşdırılması yönündə stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi məsələləri də öz əksini tapmışdır. Bu yöndə artıq bir çox layihələrin də icrasına başlanılmışdır. Həmçinin Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də dünya üzrə artan rəqabətə davam gətirə bilmək üçün XXI əsrin tələblərinə uyğun təhsil modelinin qurulmasından bəhs edilir. Güclü təhsil hesabına yüksək peşə bacarıqlarına malik insan kapitalı yaratmaq üçün, həmçinin region ali təhsil müəssisələri də beynəlxalq səviyyədə keyfiyyət baxımından rəqabətədavamlı olmalıdır.

Region universitetlərinin nüfuzunun qaldırılması təbii formada - tələblər əsasında olmalıdır. Çünki dünyanın inkişaf etmiş ölkələrində region universitetləri getdikcə daha çox inkişaf üçün katalizator kimi qəbul olunur. Yəni, region universitetləri yalnız təhsil, tədris və elmi-tədqiqat işləri ilə deyil, həm də regionda iqtisadi, sosial və mədəni mühitin inkişafında fəal rol oynayır. Universitetlərin regional inkişafa verdikləri töhfənin xüsusiyyətləri araşdırılaraq onların bölgənin inkişafındakı rolunu təhlil etmək lazımdır. Tədqiqat və bilik yönümlü ali təhsil müəssisələri getdikcə daha çox təhsil verməklə yanaşı bölgələrin iqtisadi, sosial və mədəni inkişafında da aktiv rol oynamalı, əmək bazarı, məşğulluq sahəsinə töhfələr verməlidir. Region ali təhsil müəssisələri bu işləri yerinə yetirərkən bölgənin ekoloji, coğrafi, etnik, iqtisadi, tarixi və sosial həssaslıqlarını belə nəzərə almalıdır. Həmçinin regional universitetlər dövlət siyasətinin bölgələrdə düzgün yönləndirilməsi üçün ən etibarlı yerli inteqratoru kimi çıxış etməlidirlər. Həmçinin İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) təhsil sahəsindəki tədqiqatları göstərir ki, ali təhsil müəssisələrinin ənənəvi funksiyalarından əlavə üçüncü missiyası kimi yerləşdikləri regionun iqtisadi, sosial və mədəni inkişafına yardımçı olmalıdırlar.

“Regionlarda ali təhsilin inkişafı üzrə Strateji yol xəritəsi”nin hazırlanması hesab edirəm ki, səmərəli olacaq. Bu sənədin hazırlanması ilə Azərbaycanın iqtisadi rayonlaşmasına uyğun olaraq təhsil-sənaye-iqtisadiyyat klasterləri yaradılacaq.

## Şimal bölgəsinin yeganə ali məktəbi

Quba-Xaçmaz iqtisadi rayonunda ADPU-nun Quba filialı mövcuddur. Şimal bölgəsində fəaliyyət göstərən yeganə ali təhsil ocağının zəngin tarixi keçmişi vardır. Belə ki, filial 1942-1953-cü illərdə fəaliyyət göstərmiş Quba Dövlət Müəllimlər İnstitutunun varisi hesab olunur. 1991-ci ildə İncəsənət Universitetinin filialı olaraq yaradılan, 2015-ci ildə ADPU-ya birləşdirilən Quba filialında 6 ixtisas üzrə təhsil alan 845 tələbəyə 150 nəfər professor-müəllim və inzibati heyət xidmət göstərir. Filialda ölkənin 29 rayonundan tələbə təhsil alır ki, bu da region üçün önəmli göstəricidir. Son illər ərzində filialda həyata keçirilən əsaslı yeniliklər həm təhsilin, həm təlim-tərbiyənin inkişafına, həm də filialın ümumi nüfuzunun artmasına səbəb olmuşdur. Statistik göstəriciləri təhlil etdikcə qarşılaşdığımız real mənzərə onu deməyə əsas verir ki, filial hazırda strateji hədəflərə doğru irəliləyir. Həmçinin bölgənin əmək bazarını təftiş edərkən ehtiyac duyulan kadrların hazırlanması üçün yeni ixtisasların yaradılmasına böyük zərurət yarandığından 2021/2022-ci tədris ili üçün əlavə olaraq üç ixtisas üzrə qəbul planı sifariş edərək illik planını 50% artırmışıq. Həmçinin Şimal bölgəsinin turizm imkanlarının genişliyini və bölgədə fəaliyyət göstərən turistik məkanların peşəkar ixtisaslı kadrlara ehtiyacını nəzərə alaraq filialda yeni turizm, otelçilik, bələdçilik və tərcüməçilik ixtisaslarının açılmasına da böyük zərurət vardır. Filialın inkişaf istiqamətləri şaxələndikcə maddi-texniki bazası daha da zənginləşir, yeni ixtisasların açılmasına zərurət yaranır ki, bununla da yeni stukturların yaradılması qaçılmaz olur. Təbii ki, mümkün qədər kadr təyinatlarını yerli kadrların potensialından istifadə edərək həyata keçirməyə çalışılır. Belə ki, ADPU-nun Quba filialında 18 nəfər fəlsəfə doktoru, 2 nəfər elmlər doktoru hazırlığı üzrə doktorantura və dissertanturada təhsil alırlar ki, onların da böyük əksəriyyəti dissertasiya işlərini tamamlayıb, müdafiə üçün tələb olunan şərtləri yerinə yetiriblər.

Həmçinin bölgədəki multikultural və tolerantlıq dəyərlərinin daha geniş şəkildə yayılmasını, etnik və dini rəngarəngliyi nəzərə alaraq filialda “Multikulturalizm” mərkəzinin yaradılması və Şimal bölgəsinin maddi-mədəniyyət nümunələrinin beynəlxalq səviyyədə təbliğ edilməsi də planlaşdırılıb.

Hər il filiala qəbul olan tələbələrin kəmiyyət göstəriciləri ilə yanaşı keyfiyyət göstəricilərində də irəliləyişlər müşahidə olunur. Belə ki, 500-dən artıq bal toplayaraq Quba filialını seçən tələbələrin sayı əvvəlki illərə nisbətən çox artmışdır. Filialda 845 tələbədən 162 tələbə dövlət təqaüdü, 93 tələbə əlavə təqaüd, 12 tələbə “Gələcəyin müəllimi” məqsədli təqaüdü alır. Həmçinin bu təqaüdlərlə yanaşı Azərbaycanın görkəmli tarixi şəxsiyyətlərinin adlarına məbləği 100 manat olan Heydər Əliyev adına ali adlı təqaüd, hər birinin məbləği 50 manat olan Fətəli xan adına, Nadir İbrahimov adına, Səməd Vurğun adına, Abbasqulu ağa Bakıxanov adına, Badisəba xanım Köçərli adına, Kübra Fərəcova adına adlı təqaüdlər təsis edilmişdir ki, tələbələrin təhsildə fərqlənmələri üçün stimul yaratmışdır. Filialda təhsilin keyfiyyətinin yüksəldilməsi istiqamətində görülən işlərdən biri kimi fənn olimpiadalarının keçirilməsini misal göstərmək olar. Təhsilini başa vurub magistratura pilləsinə qəbul olan tələbələrin sayı keçən il 10 nəfər olmuşdur ki, bu da filial tarixində ilk rekord idi. Bundan başqa, MİQ imtahanlarında onlarca məzunumuz 50-dən yüksək bal toplayaraq müəllim adını qazanmışdır. Artıq filialda “Azərbaycan dili və ədəbiyyatı müəllimliyi”, “Təhsildə sosial-psixoloji xidmət” ixtisasları üzrə magistr hazırlığını həyata keçirmək üçün kadr potensialına malik qüvvə mövcuddur. Əslində perspektiv planlar sistemli şəkildə filialın “Strateji İnkişaf Planı”nda və ondan doğan “Qısa, orta, uzunmüddətli inkişaf hədəfləri” adlı sənəddə incəliklə qeyd edilmişdir. Artıq bir çox işlərimizi müvafiq sənədə istinadən icra edərək daha böyük hədəflərimiz uğrunda çalışırıq.

Bütün bu qeyd edilənlərə əsaslanaraq deyə bilərəm ki, ADPU ailəsinin bir hissəsi olan Quba filialı gələcəkdə müstəqil universitet statusunu qazanmaq üçün böyük hədəflərinə doğru inamla addımlayır.

Norveçin Arktika Universitetinin təhsil araşdırmaçısı Peter Arbo region ali məktəblərinin regionun inkişafındakı rolunu, önəmini akademik səviyyədə araşdırıb təhlil edərkən göstərir ki, ali təhsil regional inkişaf üçün bir “toxum yatağı”, “çoxalma zəmini”, “yumurtlama yeri”, “katalizator” deməkdir. Bu anlayışlar cücərdikdən sonra çiçək açır və istənilən yaxşı nə varsa, onunla birləşdirmək olur ki, bu da yenilik və canlanma üçün münbit şərait yaradır. Arbonun fikirlərinin qüvvəti olaraq demək olar ki, region ali təhsil müəssisələrinin inkişafına hər birimiz sorumlu olmalıyıq ki, qeyd edilən toxum cücərib çiçək açsın və sonda onu daha yaxşı tərəflərlə birləşdirmək imkanlarımız olsun.



# Naxçıvan Dövlət Universiteti: yeni inkişaf mərhələsi, yeni uğurlar, yeni perspektivlər

**Naxçıvan Dövlət Universiteti Azərbaycan Respublikasının milli iqtisadi quruculuq proseslərinə, uzunmüddətli sosial hədəflərinə, etibarlı infrastruktur quruculuğuna, ən müasir təhsil standartlarının əlçatanlığına, ixtisaslaşmış kadr potensialının hazırlanmasına və digər mühüm nailiyyətlərin əldə olunmasına doğru inamla addımlamaqdadır. Günümüzün tələblərinin, eyni zamanda, yeni dünya çağırışlarının içərisində təhsilalma istiqamətindəki göstəricilərin artan dinamikasının təşəkkülü özünün aktuallığı ilə seçilir ki, bu sahədə də NDU-nun yeri və rolu artmaqdadır.**

Hadisələrin gedişinə və qarşıya çıxan sosial-iqtisadi problemlərin aradan qaldırılması istiqamətindəki tədbirlərin strukturuna diqqət etdikdə aydın olur ki, elm, təhsil və bu sahədəki təcrübə üstünlük təşkil edir və məhz bu da NDU-nun təcrübəsində, timsalında və reallaşdırdığı qabaqlayıcı tədbirlərin fonunda daha mütərəqqi görünməkdədir. Demək olar ki, 2020-ci il üzrə bütün fəaliyyət sektorlarında məhdudlaşdırıcı mövcudluğu ilə özünü göstərən COVİD-19 pandemiyası şəraitində belə tədris proseslərinin ağsadılmadan davam olunmasındakı tədbirlər Naxçıvan Dövlət Universitetinin:

- maddi-texniki təchizatının yüksək səviyyədə olmasını göstərdi;
- innovativ inkişaf sahəsindəki imkanların geniş əhatədə təşəkkülünün ifadəsinə çevrildi;
- tələbələrlə işlərin düzgün qurulmasındakı etibarlılığını, həmçinin qətiyyətliliyini bir daha ortaya qoydu. Təbii ki, bütün bunlarla birlikdə qeyd olunanların düzgün təşkili və idarə olunmasında dövlət tənzimlənməsinin zəruri rolunu bir daha göstərmiş oldu.

Artıq Naxçıvan Dövlət Universiteti qalib ölkənin inkişaf edən, bununla da, hər birimizin sonsuz qüruruna çevrilən ali məktəbidir. Burada təhsilin idarə olunması sahəsində həyata keçirilən genişmiqyaslı tədbirlər elmi biliklərin, dünyagörüşün və dünyaya çıxışın hüdudsuz olduğunu, heç bir sərhəd tanımadığını, əksinə, durmadan və dayanmadan, öz əhatəsini və miqyasını daha da genişləndirdiyini bir daha sübut etməkdədir. Öyrənməyin, savadlanmanın, biliyin, müasir düşüncənin, bir sözlə, intellektual mülkiyyətin sarsılmaz dayaqlarının yaradılmasının daha da aktuallaşdığı hazırkı şəraitdə NDU-da əldə olunan uğurlar öz əhatəsini artırmış, məsafədən və şəraitdən asılı olmayaraq təhsilalmanın dəyişməz ünvanına çevrilmişdir.

Bütün bunlarla, müəyyən olunan hədəflərinə doğru inamla addımlayan ali məktəbimiz həm də müəllim və tələbələrin qarşılıqlı elmi mübadilə sahəsində mərkəzi olaraq təşəkkül tapmışdır. Yeni təhsil imkanlarının yaradılması proseslərinin davamlılığı qarşıdakı dövrlər üçün çox güclü baza olacaqdır. Fikrimizi fevralın 15-də Naxçıvan Dövlət Universitetinin xarici dillər fakültəsinin yeni tədris korpusunun istifadəyə verilməsi də sübut edir. Artıq bu, universitetin bundan sonrakı elmi və pedaqoji həyatında keyfiyyətcə yeni mərhələnin başlanğıcı olacaqdır.

Qeyd edək ki, istifadəyə verilən fakültədə İngilis dili və metodika, Roman-german dilləri, İngilis dili və tərcümə, Rus və şərq dilləri kafedraları, xarici ölkə ədəbiyyatı və 2 linqafon kabinəsi, eləcə də "Tədris - metodiki mərkəz", "Sinxron tərcümə mərkəzi", "Fransız dili", "İngilis dili", "Alman dili", "Rus dili", "Ərəb dili", "Fars dili" mərkəzləri və "Tərcümə mərkəzi" fəaliyyət göstərir ki, bütün bunlar da universitet idarəetməsinin, müəllim keyfiyyətlərinin və tələbə yetkinliyinin çox mühüm göstəriciləri olaraq əhəmiyyət kəsb edəcəkdir. Bütün bunlarla Naxçıvan Dövlət Universiteti:

- yeni qabiliyyətlərin və yeni bacarıqların mərkəzinə çevrilmişdir. Müxtəlif startap layihələrinin reallaşmasında, ümumiyyətlə, "Startap Naxçıvan" hərəkatının uğurlu nəticələrinin əldə olunmasında Naxçıvan Dövlət Universitetinin rolu böyük olmaqdadır. Çünki "Startap Naxçıvan" hərəkatının əsas məqsədi də elə məhz muxtar respublikada yaradıcı düşüncəni və inkişafa xidmət edən ən yaxşı layihələri üzə çıxarmaq, innovativ ideyaların uğurlu biznes sahəsinə çevrilməsinə dəstək olmaqdır. Məhz bu keyfiyyətlərin mövcudluğu şəraitində universitet "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin imzaladığı sərəncama öz töhfələrini verməkdədir;
- yeni ideyaların reallaşma potensialını yaratmaqdadır. Elmin istehsalata tətbiqinin çox mühüm nəticəsi olacaq bu proseslər Naxçıvan Dövlət Universitetinin artıq ənənə halını alan uğurlarını təşkil etməkdədir;
- yeni uzunmüddətli hədəflər müəyyən olunmuşdur. Yüksək təşkilatçılıq qabiliyyətinin, təşəkkül tapan milli təhsil standartlarının və sosiallaşma proseslərinin ən mühüm göstəriciləri özünə kök salmışdır. Artıq universitet iqtisadi və sosial, həmçinin idarəetmə sahəsində peşəkar və ixtisaslaşdırılmış kadr hazırlığı istiqamətindəki uğurlarının əhatəsini daha da genişləndirməkdədir. Və bu imkanlardan nəinki, bizim ölkəmiz, hətta təhsil sahəsində əməkdaşlıq etdiyimiz ölkələr də bəhrələnəcəkdir. Belə ki, bu günlər yeni tədris korpusunun istifadəyə verildiyi Xarici dillər fakültəsində İngilis dili müəllimliyinin, Fransız dili müəllimliyi, Alman dili müəllimliyi, Rus dili müəllimliyi, Tərcümə (İngilis-Azərbaycan dilləri), Tərcümə (Ərəb-Azərbaycan dilləri), Tərcümə (Fars-Azərbaycan dilləri) olmaqla, 7 ixtisas üzrə 433 tələbə təhsil alır ki, onlardan 6-sı Türkiyə və Banqladeş vətəndaşlarından ibarət olmaqdadır. Qeyd edək ki, tədris korpusunda 12 elektron lövhə, 7 proyektor, 112 kompüter quraşdırılmış və sürətli internetə çıxış təmin olunmuşdur ki, bu da tələbələrin müasir təhsil və tədris sahəsindəki əlçatanlığının daha da asanlaşmasına xidmət edir.

NDU uğurlarındakı ardıcıllığa təhsilin inkişafı ilə yanaşı tanıtma və bəyanetmə sahəsindəki fəaliyyətini də aid etməkdədir. Ölkəmizin uğurla davam etdirdiyi milli iqtisadi və sosial sahələr üzrə islahatlara sadiq qalaraq, çox qısa müddətdə, daha doğrusu, 2020-ci il ərzində təhsilin və tədrisin idarə olunması sahəsində keyfiyyət göstəricilərinin əldə olunması məqsədilə hələ ötən ilin may ayında yeni fakültələr yaradılmışdır. Nəticədə, universitetin dünyaya çıxışı üçün mühüm mərhələ başlanmış, ingilis dilində iqtisadiyyat ixtisasına qəbul keçirilmiş və bu sahə üzrə yüksək göstəricilər əldə olunmuşdur. Artıq həmin uğurların davamı olaraq, ali təhsil ocağının "Universitet" televiziyasının ingilis dilində yayımlanan ilk xəbər buraxılışı ictimaiyyətə təqdim olunmuşdur. Çox sevindiricidir ki, hər zaman yüksək qayğı və diqqəti ilə əhatə olunduğumuz Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən "Universitet" televiziyasının muxtar respublika üzrə yayımının təmin olunması barədə tapşırıqlar verilmişdir.

Naxçıvan Dövlət Universiteti öz hədəflərinə doğru yüksək qətiyyətlə, artan potensialla və böyük inamla addımlamaqdadır. Ali təhsil ocağının əyani və qiyabi şöbələrində bakalavr üzrə 5648, magistratura üzrə 360, doktorantura üzrə 138 və rezidentura üzrə 52 tələbə təhsil alır ki, onlar yaradılmış imkanlardan yetərincə istifadə edir. Muxtar respublikamızın etibarlı qonşuluq və sadiq tərəfdaşlıq münasibətlərinin inkişafına universitet özünəməxsus imkanlarla töhfə verir. Türkiyə, İran, Banqladeş, Nigeriya, Pakistan, Özbəkistan, Rusiya, İraq, Cənubi Koreyadan olan 1029 əcnəbi tələbənin universitetdə təhsil alması bütövlükdə Azərbaycan təhsilinin, inkişafın Naxçıvan modelinin bəyanında böyük nəticədir.

Beləliklə, Naxçıvan Dövlət Universiteti ölkənin milli təhsilin inkişafı üzrə uzunmüddətli prioritetlərinə doğru qətiyyətlə addımlayır. Burada həm təhsil, həm dünyagörüş, həm elmi biliklərin artırılması, həm nəzəri və təcrübi bacarıqların üzə çıxarılması, həm də təşkilatçılıq və idarəetmə qabiliyyətlərindən ibarət zəruri göstəricilər yer almaqdadır. Təbii ki, bütün bunlarla qarşıdakı dövrlərdə ali məktəbin daha böyük uğurlarının şahidi olacağıq.

**Cavadxan QASIMOV,**
*Naxçıvan Dövlət Universitetinin dosenti, iqtisad üzrə fəlsəfə doktoru*

# 100 yaşlı ali məktəb tədqiqatlarda

**Azərbaycanda elmi-pedaqoji elitanın formalaşmasında müstəsna xidmətləri olan Azərbaycan Dövlət Pedaqoji Universitetinin təşkilinin bu il 100 ili tamam olur. Bu qocaman elm və təhsil məbədinin bir əsrlik yubileyinin yüksək səviyyədə keçirilməsinə hazırlıq işləri görülür. Pedaqoji Universitetin təşəkkülü və inkişafının bütün mərhələləri yenidən araşdırılır, bu təhsil ocağında fədakarlıqla çalışan təhsil fədailərinin xidmətlərinin gənc nəslə çatdırılması istiqamətində uğurlu layihələr həyata keçirilir. Bu baxımdan, ADPU-nun İbtidai təhsil fakültəsinin dekanı, Əməkdar elm xadimi, pedaqoji elmlər doktoru, professor Fərrux Rüstəmovun arxiv sənədləri və ilk mənbələr əsasında yazdığı və nəşr etdirdiyi əsərlər mühüm əhəmiyyətə malikdir. Görkəmli təhsil və pedaqoji fikir tarixçisi, Azərbaycan pedaqogikaşünaslığının yaradıcısı, dərsliklər müəllifi kimi tanınan professor Fərrux Rüstəmovun bu istiqamətli tədqiqatları əsl fədakarlıq nümunəsidir.**




Pedaqoji İnstitutun ilk məzunlarına ("Ali Pedaqoji İnstitutun salnaməsi"), ilk yubileyinə ("Azərbaycan Ali Pedaqoji İnstitutu") həsr olunmuş məcmuələrin əski əlifbadan transliterasiya edilərək nəşr edilməsi, zəngin arxiv materialları əsasında yazılan "Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektorları" və "Azərbaycan Dövlət Pedaqoji Universitetinin inkişafının ikinci mərhələsi (1930-1946)" adlı ciddi elmi araşdırmaların meydana gəlməsi onun sistemli araşdırmalarının məhsuludur. Professor Fərrux Rüstəmovun bu istiqamətli tədqiqatlarının təhlilinə və təbliğinə ciddi ehtiyac duyulmaqdadır. Biz müəllifin bütün kitabları haqqında deyil, son günlərdə nəşr edilən "Azərbaycan Dövlət Pedaqoji Universitetinin inkişafının ikinci mərhələsi (1930-1946) (Bakı,2021, 188 s.) kitabı ilə bağlı fikirlərimizi oxucularla bölüşməyi vacib hesab etdik.

Kitab iki hissədən ibarətdir. Birinci hissədə ADPU-nun 1930-1946-cı illərdəki fəaliyyəti araşdırılır, həmin illərdə tədrisin və elmi işlərin təşkili sahəsində görülən işlər ümumiləşdirilir. Ali Pedaqoji İnstitutun Azərbaycan Dövlət Universitetinin tərkibinə verilməsinin (1927), iki il sonra yenidən bərpasının (1929), ADU-nun ləğv edilməsinin (1930) və onun Pedaqoji fakültəsinin Pedaqoji İnstitutun tərkibinə verilməsinin, müharibə illərində Pedaqoji İnstitutun ADU-ya birləşdirilməsinin və yenidən (1943) təşkilinin pedaqoji kadr hazırlığına vurduğu zərər elmi mənbələr əsasında sübut olunur. Bu ayrılmalar və birləşmələr milli dövlətçilik təfəkkürünün formalaşmasına vurulan ağır zərbə kimi dəyərləndirilir. Bununla yanaşı, 30-40-cı illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun pedaqoji və elmi-pedaqoji kadr hazırlığının mərkəzinə çevrilməsi inandırıcı faktlarla sübut olunur. Qeyd edilir ki, pedaqogika, psixologiya və ayrı-ayrı fənlərin tədrisi metodikası bir elm sahəsi kimi məhz burada təşəkkül taparaq sürətlə inkişaf etdi. Pedaqoji-psixoloji araşdırmalar ümumtəhsil, orta ixtisas və ali məktəblərin ehtiyaclarına istiqamətləndirildi. Kitabda respublikada elmi-pedaqoji fikrin əsas mərkəzinə çevrilən Pedaqoji İnstitutun Azərbaycan Pedaqoji Akademiyasına çevrilməsi ilə bağlı institutun direktoru Məmməd Abbas oğlu Bayramovun bu sahədəki fəaliyyəti, onun ÜİK(b)P-nin Zaqafqaziya Vilayət katibi Kartvelişviliyə, Azərbaycan K(b)P MK-nın katibi Ağa Sultanova, Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri Dadaş Bünyadzadəyə, Xalq maarif komissarı Maqsud Məmmədova ünvanlandığı rəsmi sənədlər və məktublar geniş araşdırılır. 30-40-cı illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunda tədrisin təşkili və elmin inkişaf istiqamətlərini əhatəli araşdıran professor F.Rüstəmov həmin dövrdə Pedaqoji İnstitutda tədris və elmi işlərin keyfiyyətinin yüksəldilməsi məqsədilə həyata keçirilən tədbirləri (yeni fakültə və kafedraların təşkili, elmi dərəcəsi olanların tədris prosesinə cəlb edilməsi, illik, altıaylıq və üçaylıq hazırlıq kurslarının təşkili, kitabxananın zənginləşdirilməsi, kimya və fizika laboratoriyasının yeni avadanlıqlarla təchizi və s.) əhatəli və sistemli şəkildə araşdırmağa nail olur. Tədqiqatda ilk dəfə olaraq Pedaqoji İnstitutunun "Lenin tərbiyəsi uğrunda" qəzetinin və ilk "Elmi əsərlər"in fəaliyyət istiqamətləri araşdırılır.

Kitabda Pedaqoji İnstitutda erməni şöbəsinin təşkiliməkrli erməni siyasətinin bariz nümunəsi kimi təqdim edilir və ermənilərin bir institutun timsalında Azərbaycan millətinin başına açdığı oyunların real mənzərəsi yaradılır. Onların Azərbaycanda bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də geniş şəbəkə yaratdığı faktlarla sübut olunur. 1944-cü ildə Pedaqoji İnstituta Nazirlər Sovetinin təsdiq etdiyi qəbul planı göndərilir. Sənəddə növbəti tədris ilində ADPİ-yə 30% azərbaycanlı, 60% erməni və 10% rusun qəbulunun planlaşdırıldığı göstərilir. İnstitutun direktoru Əhməd Seyidovun ciddi etirazı nəticəsində ermənilərin bu məkrli siyasəti baş tutmasa da, uzun müddət ermənilərin millətçilik işlərinin qarşısını almaq mümkün olmur.

Kitabda diqqəti cəlb edən əsas məsələlərdən biri də Pedaqoji İnstitutun 25 illik yubileyinin keçirilməməsinin səbəblərinin müəyyənləşdirilməsidir. F.Rüstəmov bu problemin izahına ritorik bir sualla başlayır: "İlk baxışdan təəccüblü görünən odur ki, Azərbaycan K(b)P MK-nın katibi M.C.Bağırovun siyasi nüfuzunun yüksək olduğu 1946-cı ildə Pedaqoji İnstitutun yubileyi nə üçün keçirilməyib?". Sonra da M.C.Bağırovun Moskvaya- ÜİK(b)P MK-nın katibi A.A.Jdanova ünvanladığı məktubun məzmununu verir. Deməli, siyasi rəhbərlik razı olub, bəs onda niyə keçirilməyib? Müəllifin fikrincə, "institutun yubileyinin keçirilməməsinin səbəbi SSRİ Nazirlər Sovetinin və ÜİK(b)P MK-nın 10 aprel 1941-ci ildə qəbul etdiyi "Yubileylərin keçirilməsi haqqında" 886 saylı qərarla bağlı olmuşdur. Həmin qərarda birmənalı olaraq bildirilir ki, böyük nailiyyətləri olan təhsil müəssisələrinin 20 illik, 50 illik və 100 illik yubileyləri keçirilə bilər".

Professor Fərrux Rüstəmovun "Azərbaycan Dövlət Pedaqoji Universitetinin inkişafının ikinci mərhələsi (1930-1946)" adlı kitabının ikinci hissəsində yubiley nəşri kimi nəzərdə tutulan və 1948-ci ildə işıq üzü görən "V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutu (1921-1946)" məcmuəsi kiril əlifbasından latın qrafikasına çevrilərək nəşr edilmişdir.

Məcmuə institutun direktoru dosent Əhməd Seyidovun "V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutu 25 il ərzində" məqaləsi ilə açılır. Məqalədə Pedaqoji İnstitutun 25 illik fəaliyyəti inandırıcı faktlarla təhlil edilir. İnstitut partiya komitəsinin katibi S.Abramovanın "APİ partiya təşkilatı kommunist tərbiyəsi uğrunda mübarizədə" məqaləsində respublikada savadsızlığın ləğvində, 7 illik icbari təhsilin başa çatdırmasında, orta məktəblərin, texnikumların ali təhsilli müəllim kadrları ilə təmin edilməsində institutun əməkdaşlarının fəaliyyəti təqdir olunur. İnstitutun yalnız Azərbaycan məktəblərinə deyil, Ermənistan, Gürcüstan, Dağıstan və Orta Asiya respublikalarına da yüzlərlə yüksək ixtisaslı müəllim kadrları hazırladığı vurğulanır.

İnstitutun tədris və elmi hissə üzrə direktor müavini dosent M.Mehdizadə "APİ və Azərbaycanda pedaqoji təhsilin inkişafı" məqaləsində Pedaqoji İnstitutda aspiranturanın təşkilinin elmi-pedaqoji kadr hazırlığına təsirindən, elmi kadr hazırlığında rus alimlərinin köməyindən bəhs edilir, institut əməkdaşları tərəfindən pedaqogika ilə bağlı müdafiə olunan dissertasiyalar və dərs vəsaitləri haqqında məlumat verilir.

Məcmuədə Pedaqoji İnstitutda filologiya elminin inkişafı ilə bağlı professor Ə.Sultanlının və dosent İ.Əfəndiyevin"Azərbaycan filolojisinin ilk ocağı", Azərbaycan dilçiliyi kafedrasının müdiri, professor Ə.Dəmirçizadənin"Azərbaycan dilçiliyi kafedrası", Xarici dillər fakültəsinin dekanı Ə.Xudaverdiyevin və İngilis dili kafedrasının müdiri R.Qayıbovanın "İnstitutun əcnəbi dillər fakültəsi", Tarix fakültəsinin dekanı, dosent C.İbrahimovun "Tarix fakültəsi 25 il ərzində", Əməkdar elm xadimi, professor M.R.Əfəndiyevin "Fizika-riyaziyyat fakültəsi 25 il ərzində", Fizika kafedrasının müdiri, dosent A.Abaszadənin "Azərbaycanda fizikanın inkişafında Dövlət Pedaqoji İnstitutunun rolu", Təbiyyat fakültəsinin dekanı, dosent Z.Şahtaxtinskayanın "Respublikamızda təbiyyat elmlərinin ilk ocağı", Qeyri-üzvi kimya kafedrasının müdiri, dosent X.Ş.Kələntərlinin "Kimyaçı kadrların hazırlanmasında V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun rolu" məqalələri və hər bir məqalənin məzmununa uyğun olaraq xeyli şəkil verilmişdir.

Professor Fərrux Rüstəmovun "Azərbaycan Dövlət Pedaqoji Universitetinin inkişafının ikinci mərhələsi (1930-1946)" kitabı Pedaqoji Universitetin inkişafının 30-40-cı illər mərhələsini öyrənmək baxımından mühüm əhəmiyyətə malikdir.

**Ramiz ƏLİYEV,**
*ADPU-nun Ümumi psixologiya kafedrasının müdiri, psixologiya elmləri doktoru, professor, Əməkdar müəllim*

**Yaqub BABAYEV,**
*filologiya elmləri doktoru, professor*

# İngilis dilini öyrənənlər üçün dərs nümunələri

BRITISH COUNCIL

LearnEnglish Print

## UN World Refugee Day

**Did you know that every minute of the day 20 people leave their homes to escape war or terror? World Refugee Day is a day when we can support and celebrate the strength and courage of millions of refugees worldwide.**



Across the world there are currently over 65 million people who have had to leave their homes. Some have settled in new countries; many more are living in refugee camps, waiting for it to be safe enough to go home or to be resettled in a different country. The United Nations decided that refugees should have a special day, when we think of them and show our support. The first World Refugee Day was on 20 June 2001 and it's been celebrated every year since then.

### A refugee crisis

Sixty-five million people means that nearly one in 100 people in the world is a displaced person or refugee. The number of refugees has doubled in the last twenty years. Fifty-five per cent of refugees worldwide come from Syria, Afghanistan and South Sudan. Since the start of the war, more than 5.6 million Syrians have escaped the country and 6.1 million are still living in Syria but have had to leave their homes. Around half of these 11 million people are children.

### The aim of World Refugee Day

A refugee crisis on this scale is difficult to deal with, but the United Nations Secretary General, Antonio Guterres, reminds us that 'the problems are war and hatred, not people who flee.' World Refugee Day is about raising awareness of the situation and showing the refugees that together we can work to end the crisis and help displaced people to find safe and happy homes.

### What you can do to help

A few years ago, the United Nations started a petition, #WithRefugees, for people worldwide to ask their governments to support refugees. So far nearly 2 million people have signed the petition. Many people also write letters to their governments or make a donation to a charity that supports refugees.

*For more information, visit www.un.org/en/events/refugeeday*

## ACTIVITIES

### 1. Vocabulary

**Match the definitions (a–f) with the vocabulary (1–6).**

| **vocabulary** | **definition** |
|---|---|
| 1. a refugee | a. to go and live somewhere permanently |
| 2. a donation | b. money given to help a person or charity |
| 3. a border | c. someone who has had to escape their country because their life was in danger |
| 4. to settle | d. to escape danger by running away |
| 5. to flee | e. an extremely difficult or dangerous time |
| 6. a crisis | f. the line that divides one country from another country |

### 2. True or false

**Are the sentences true or false?**

| | | |
|---|---|---|
| 1. The first World Refugee Day was in 2000. | *True* | *False* |
| 2. The refugee crisis was worse twenty years ago. | *True* | *False* |
| 3. About 50 per cent of Syrian refugees and displaced people are under 18 years old. | *True* | *False* |
| 4. Antonio Guterres agrees that refugees are a big problem. | *True* | *False* |
| 5. Only a few hundred people have supported the United Nations petition so far. | *True* | *False* |

**DISCUSSION**

What can be done to change how people see refugees?

**ANSWERS**

ACTIVITY 1

1. c; 2. b; 3. f; 4. a; 5. d; 6. e

ACTIVITY 2

1. False; 2. False; 3. True; 4. False; 5. False

To find more English language activities visit www.britishcouncil.org/learnenglish

© British Council 2019




# Məktəblilər Ümumdünya Mülki Müdafiə Günü ilə bağlı məlumatlandırılıb

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) tabeliyindəki ümumi təhsil müəssisələrində şagirdlər 1 mart Ümumdünya Mülki Müdafiə Günü ilə əlaqədar məlumatlandırılıb.

Məktəblərdə Ümumdünya Mülki Müdafiə Gününün qeyd edilməsinin əsas məqsədi şagirdlərin diqqətini fövqəladə hallar zamanı davranış qaydalarının mənimsənilməsinə yönəltmək, məktəblilərə baş verə biləcək təbii fəlakət, yanğın və qəza hadisələri zamanı düzgün təxliyə olunmanı öyrətməkdən ibarətdir.

Şagirdlərə yanğının söndürülməsi, yaralılara tibbi yardımın göstərilməsi, kimyəvi zəhərlənmə zonasının lokallaşdırılması, obyektə kimyəvi kəşfiyyatın təşkili ilə bağlı zəruri tədbirlər haqqında məlumat verilir. Ətrafdakı radiasiyanın müəyyən olunması, əleyhqaz və digər vasitələrdən istifadə qaydaları izah edilir.

Maarifləndirmə çərçivəsində fövqəladə hal anlayışı, mülki müdafiə, texnogen qəzalar, fərdi mühafizə vasitələri, yanğın, partlayış, zəhərlənmə təhlükəsindən mühafizə, dəm qazından zəhərlənmənin profilaktikası, ilkin tibbi yardım, "112" zəng xidmətindən istifadə mövzularında ətraflı məlumatlar şagirdlərin nəzərinə çatdırılır.

"AZƏRBAYCAN MÜƏLLİMİ"

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı 5 saylı "Mətbuat şöbəsi"
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 4244, **Sifariş** 447

**Məsul növbətçi:** O.Mustafayev

# Etibarsız sayılır

**Lənkəran rayon** Boladi kənd 2 nömrəli tam orta məktəbi 1998-ci ildə bitirmiş Cavadov Ramin Hacağa oğluna verilmiş A-159685 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 124 nömrəli tam orta məktəbi 2012-ci ildə bitirmiş Nağızadə Fatma Mahir qızına verilmiş A-173521 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Quba şəhər** 2 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Zamanova (Bəkərova) Türkan Aydın qızına verilmiş B-436443 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 102 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş Əsədov Kənan Əlişad oğluna verilmiş B-590862 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 40 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Xankişiyev Vüsal Fazil oğluna verilmiş B-050715 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Milli Konservatoriyası** tərəfindən 2019-cu ildə Muradov Murad İlqar oğluna verilmiş magistr qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

**Goranboy şəhər** 1 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Atai (Məmmədova) Səidə Rəşid qızına verilmiş A-197995 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**2 nömrəli Bakı Baza Tibb Kolleci** tərəfindən 2013-cü ildə Fəhradova Sahilaya verilmiş AA-028226 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 193 nömrəli məktəbin nəzdindəki qiyabi-qrupu 2016-cı ildə bitirmiş Əhmədov Nəriman Şahin oğluna verilmiş A-511119 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci** tərəfindən 2013-cü ildə Bayramova (Əliyeva) Aygün Elxan qızına verilmiş AA-031989 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 265 nömrəli tam orta məktəbi 1995-ci ildə bitirmiş Savinova (Panaş) Violetta Viktor qızına verilmiş A-114285 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2004-cü ildə Ağababayeva İlahə Hacıhəsən qızına verilmiş AB-I-085326 nömrəli diplom və 2005-ci ildə verilmiş 0395 nömrəli internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2009-cu ildə Səfərova Aytən Famil qızına verilmiş BB-I-012215 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Qusar rayon** Sudur kənd tam orta məktəbi 2004-cü ildə bitirmiş Maksimov Səxavət Rasim oğluna verilmiş B-079618 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2008-ci ildə Heydərova Kamilə Yusif qızına verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti** tərəfindən 1996-cı ildə Ağasoy Eldəniz Cəmşid oğluna verilmiş AB-I-034897 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2013-cü ildə Ələkbərova Aysel Əvəz qızına verilmiş B-264839 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan Dövlət Universiteti** tərəfindən 2003-cü ildə Hacıyev Hafiz Zöhrab oğluna verilmiş A-137719 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Dillər İnstitutu** tərəfindən 1999-cu ildə Mövlamov Ramil Səyyad oğluna verilmiş A-042181 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Saatlı rayon** Cəfərxan kənd tam orta məktəbin IX sinfini 2005-ci ildə bitirmiş Həsənova Eyzan Mirhüseyn qızına verilmiş A-129392 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2009-cu ildə Xankişiyeva Səidə Ramiz qızına verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Bakı Biznes və Kooperasiya Kolleci** tərəfindən 2010-cu ildə Məlikova Aygün Eldar qızına verilmiş BB-II-111746 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Şərur rayon** Arbatan kənd tam orta məktəbi 1998-ci ildə bitirmiş Nəbiyev Ramil Hidayət oğluna verilmiş A-226063 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Tovuz rayon** Qaraxanlı kənd tam orta məktəbi 2005-ci ildə bitirmiş Pənahova Aytən Nurəddin qızına verilmiş 187618 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutu** tərəfindən 1987-ci ildə Nağıyev Rauf Əvəz oğluna verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Kəlbəcər rayon** 117 nömrəli tam orta məktəbi 2011-ci ildə bitirmiş Bağırzadə (Hüseynzadə) Aynurə Əsgər qızına verilmiş A-051045 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** Niyazi adına 22 nömrəli uşaq musiqi məktəbini 2020-ci ildə bitirmiş Nuriyev Elmir Rəşad oğluna verilmiş C-1249 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Şabran şəhər** 1 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Nəzərov Kamran Zeynal oğluna verilmiş A-796711 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 229 nömrəli tam orta məktəbi 1990-cı ildə bitirmiş Lixomanova Tamara Qennadievnaya verilmiş 057786 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**2 nömrəli Bakı Texniki Peşə Məktəbi** (indiki Dəmiryol və Metropoliten üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi) tərəfindən 1975-ci ildə Məhərrəmov Səlim Kərim oğluna verilmiş 535278 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 10 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Nuriyev Xəzər Azər oğluna verilmiş A-362803 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 4 nömrəli Xarici Dil Təmayüllü məktəb-liseyi 2005-ci ildə bitirmiş Zərbəliyeva (Babayeva) Günel Rasim qızına verilmiş B-136590 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 34 nömrəli tam orta məktəbi 2013-cü ildə bitirmiş Haqverdiyeva Nigar Bayram qızına verilmiş A-320469 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**İmişli şəhər** 1 nömrəli orta məktəbi 1999-cu ildə bitirmiş Həşimov Tural Rafiq oğluna verilmiş A-385229 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 273 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Qocayev Nail Ramiz oğluna verilmiş B-026745 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şərur rayon** Alışar kənd tam orta məktəbi 1995-ci ildə bitirmiş Məmmədova Sevinc Məmməd qızına verilmiş A-106947 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdaş rayon** Ləki qəsəbə 6 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş Cümşüdov Saleh İsmixan oğluna verilmiş B-658471 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2004-cü ildə Musayev Abbas Həsən oğluna verilmiş B-006156 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universitet** tərəfindən 2019-cu ildə Namətova Ayşən Azad qızına verilmiş CN-037071 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası** tərəfindən 2007-ci ildə Ağayeva Nuriyyə Fərhad qızına verilmiş EN-04308 nömrəli Elmlər Namizədi diplomu itdiyi üçün etibarsız sayılır.

**Xaçmaz şəhər** 6 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Səlimova Gülər Asif qızına verilmiş B-139348 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdam rayon** 47 nömrəli tam köçkün orta məktəbi 2015-ci ildə bitirmiş İsayev Gündüz Sevindik oğluna verilmiş A-451176 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Füzuli rayon** 23 nömrəli tam orta məktəbi 2001-ci ildə bitirmiş Həsənov Xəyyam İlham oğluna verilmiş A-565524 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutu** tərəfindən 1990-cı ildə Əliyeva (Babayeva) Svetlana Məmməd qızına verilmiş УВ-I-113201 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası** tərəfindən 2001-ci ildə Babayeva Svetlana Məmməd qızına verilmiş EN-02285 nömrəli Elmlər Namizədi diplomu itdiyi üçün etibarsız sayılır.

**Tərtər şəhər** 6 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Şirinova Gülnar Tofiq qızına verilmiş B-393146 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 297 nömrəli tam orta məktəbi 2013-cü ildə bitirmiş Seyidəhmədli Firudin Bəhruz oğluna verilmiş A-197870 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Yevlax şəhər** 4 nömrəli tam orta məktəbin IX sinfini 1995-ci ildə bitirmiş Rəhimova (Abdullayeva) Sevda İbrahim qızına verilmiş 001159 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dəmiryolu Nəqliyyat Texnikumu** tərəfindən 1976-cı ildə Məmmədov Nadir Rəmzi oğluna verilmiş Ш-674193 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Osaküçə kənd tam orta məktəbini 1993-cü ildə bitirmiş Həbibov Nail Yadulla oğluna verilmiş A-012616 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 284 nömrəli tam orta məktəbi 2010-cu ildə bitirmiş Məhərrəmova Aygül Xanlar qızına verilmiş B-670671 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2013-cü ildə Allahverdili Nihat Mehti oğluna verilmiş A-009340 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Zaqatala şəhər** 1 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Məmmədova Aysel Nizami qızına verilmiş B-107045 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Yevlax şəhər** M.Ə.Sabir adına 2 nömrəli tam orta məktəbi 2013-cü ildə bitirmiş Nəsibli (Məmmədzadə) İnci Zəfər qızına verilmiş A-242161 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Respublika Olimpiya İdman Liseyinin Qax şöbəsini** 2013-cü ildə bitirmiş Bağırov Kamran Valeh oğluna verilmiş A-210652 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ağcabədi şəhər** 7 nömrəli tam orta məktəbin IX sinfini 2006-cı ildə bitirmiş Həşimova Gülər Xalıqverdi oğluna verilmiş A-324467 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Əliyaqublu kənd tam orta məktəbi 1995-ci ildə bitirmiş Nəbiyeva (Məmmədova) Sənubər Əyyar qızına verilmiş A-1327 nömrəli attestat əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Neftçala rayon** S.Vurğun adına Bankə qəsəbə 2 nömrəli tam orta məktəbi 1999-cu ildə bitirmiş Əliyeva (Müslümova) Aygün Xanbala qızına verilmiş A-328901 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

# "Kiçik Akademiya"lar

"Kiçik Akademiya"nın fəaliyyət göstərməsi şagirdlərin elmi axtarışlara sövq edilməsi, onların müasir tədqiqat metodlarına yiyələnməsi, bu sahədəki fəaliyyətlərinin stimullaşdırılması, elmi-tədqiqat fəaliyyətinə meyli olan istedadlı şagirdlərin vaxtında aşkara çıxarılması baxımından önəmli rol oynayır.

"Kiçik Akademiya"nın fəaliyyəti könüllülük, hüquq bərabərliyi və özünüidarə prinsipləri əsasında qurulur. Akademiyaya üzvlük könüllü olaraq qəbul edilir. Könüllü olaraq ictimai birlikdə işləmək arzusunda və elmi-tədqiqat işlərinə meyli olan şagirdlər "Kiçik Akademiya"nın üzvü ola bilərlər. Marağı və istedadı olan bütün şagirdlər təhsil aldıqları məktəbdə fəaliyyət göstərən Akademiyaya üzv ola bilərlər".

"Burada mən çox yeniliklər öyrənmişəm və yeni biliklər əldə etmişəm. Tədqiqatı necə aparmaq və hansı istiqamətdə işlər görülməlidi, problemi necə həll etmək olar və s. vərdişlərə yiyələnmişəm".



## *Cəlil Cabbarlı, XI sinif şagirdi:*
## "Burada mən çox yeniliklər öyrənmişəm və yeni biliklər əldə etmişəm"

**Bu gün ümumtəhsil müəssisələrində "Kiçik Akademiya"ların fəaliyyətinin gücləndirilməsi və genişləndirilməsi ilə bağlı böyük işlər görülür. Günümüzdə "Kiçik Akademiya"ların fəaliyyəti şagirdlərin layihələrinin tədqiqatyönümlü olmasının vacibliyi onların dünyagörüşünün, ictimai fəallığının, özfəaliyyət və təşkilatçılıq qabiliyyətinin, bacarığının formalaşmasına müsbət təsir göstərir. Bəs görəsən, bu təşkilatın yaradılması özündə hansı məqsəd və vəzifələri daşıyır? Şagirdlər tərəfindən bura üzvülük hansı prinsiplər üzərində həyata keçirilir? Kimlər "Kiçik Akademiya"ların üzvü ola bilər? Bu kimi suallara cavab tapmaq üçün Bakı Şəhəri üzrə Təhsil İdarəsinin İnkişaf layihələri sektorunun baş məsləhətçisi Sevinc Əzimova ilə əlaqə saxladıq.**

Sevinc Əzimova bizimlə söhbətində bildirdi ki, Bakı şəhərinin ümumi təhsil müəssisələrindəki "Kiçik Akademiya"ların fəaliyyəti təkmilləşdirilir. "Kiçik Akademiya"ların fəaliyyətinin gücləndirilməsi, əhatə dairəsinin genişləndirilməsi, şagirdlərdə akademiyalara marağın artırılması, rəhbərlərin düzgün təlimatlandırılması qarşıya qoyulan əsas hədəflərdən hesab edilir: "Orta məktəblərdə fəaliyyət göstərən "Kiçik Akademiya"lar bütün mövcud imkanlardan istifadə edərək şagirdləri yüksək səviyyədə maariflənməyə çağırır. Ümumi təhsil müəssisələrində "Kiçik Akademiya"nın fəaliyyət göstərməsi şagirdlərin elmi axtarışlara sövq edilməsi, onların müasir tədqiqat metodlarına yiyələnməsi, bu sahədəki fəaliyyətlərinin stimullaşdırılması, elmi-tədqiqat fəaliyyətinə meyli olan istedadlı şagirdlərin vaxtında aşkara çıxarılması baxımından önəmli rol oynayır. Akademiyaya üzv olan şagirdlərin elmi konfranslarda, olimpiadalarda və "Kiçik Akademiya"nın digər tədbirlərində iştirak etmək, şagirdlər arasında elmi bilikləri təbliğ etmək və s. kimi vəzifələri var. Eyni zamanda, "Kiçik Akademiya" üzvü olan şagirdlər seçdiyi fəaliyyət istiqamətində müstəqil olaraq biliklərini artırır, ünsiyyət və davranış qaydalarına riayət etməklə digər şagirdlərə bir nümunə göstərirlər. Şagirdlər yaradıcılıq və elmi-tədqiqat işlərinə maraq göstərir, tədqiqat sahəsində potensial imkanları ilə fərqlənir, əldə etdikləri nəticələri sərbəst şəkildə təqdim edirlər. Orta məktəblərdə bu sahədə aparılan bütün işlər hərtərəfli inkişaf etmiş şagirdlərin yetişdirilməsində və onların əsl vətəndaş kimi formalaşmasında böyük əhəmiyyət daşıyır. Şagirdlərin dünyagörüşünün, ictimai fəallığının, özfəaliyyət və təşkilatçılıq qabiliyyətinin və bacarığının formalaşdırılması, şübhəsiz, onlarda ictimai işə olan marağı da artıracaqdır".

Təşkilatın məqsəd və vəzifələrindən danışan Sevinc Əzimova elmi-tədqiqat fəaliyyətinə meyilli olan istedadlı şagirdlərin gələcək həyatında "Kiçik Akademiya"ların rolu və əhəmiyyətindən söz açdı. "Kiçik Akademiya"nın təşkilində əsas məqsəd istedadlı uşaq və gənclərlə aparılan işlərin tənzimlənməsinə, bu sahədə səmərəli fəaliyyət mexanizminin yaradılmasına köməklik göstərməkdən, şagirdlərdə tədqiqatçılıq qabiliyyətinin formalaşması ilə bağlı tədbirlərin sistemli həyata keçirilməsini təmin etməkdən ibarətdir: "Elmi-tədqiqat fəaliyyətinə meyilli olan istedadlı şagirdləri vaxtında aşkara çıxarmaq, mövcud yaradıcılıq potensialları nəzərə almaqla onların gələcək peşə istiqamətlərini müəyyənləşdirmək, şagirdlərdə elmi yaradıcılığa maraq yaratmaq, onların tədqiqatçılıq bacarıqlarını inkişaf etdirmək, şagirdlərdə elmi dünyagörüş formalaşdırılması istiqamətində sistemli iş aparmaq, tanınmış alim və mütəxəssisləri istedadlı şagirdlərlə işə cəlb etmək, tədqiqatçılıq bacarığı ilə fəqlənən şagirdlərdə elmi məruzə ilə çıxış etmək, referatlar hazırlamaq, birgə elmi layihələrdə iştirak etmək vərdişləri formalaşdırılmasına əlverişli şərait yaratmaq "Kiçik Akademiya"nın əsas vəzifələridir".

S.Əzimova bildirdi ki, "Kiçik Akademiya"nın fəaliyyəti könüllülük, hüquq bərabərliyi və özünüidarə prinsipləri əsasında qurulur. Akademiyaya üzvlük könüllü olaraq qəbul edilir. Könüllü olaraq ictimai birlikdə işləmək arzusunda və elmi-tədqiqat işlərinə meyli olan şagirdlər "Kiçik Akademiya"nın üzvü ola bilərlər. Marağı və istedadı olan bütün şagirdlər təhsil aldıqları məktəbdə fəaliyyət göstərən Akademiyaya üzv ola bilərlər".

Təhsil ocaqlarında "Kiçik Akademiya"ların fəaliyyəti ilə yerində tanışlıq məqsədi ilə Bakıdakı 291 nömrəli Ekologiya Liseyində olduq. Liseydə yaradılan "Kiçik Akademiya"nın prezidenti, biologiya müəllimi, fəlsəfə elmləri doktoru Ariz Məmmədovla qurumun fəaliyyəti barədə söhbət etdik. Ariz müəllim hesab edir ki, "Kiçik Akademiya"lar bütün mövcud imkanlardan istifadə edilərək, şagirdləri yüksək səviyyədə maariflənməyə və təhsil almağa çağırır: "Artıq neçə ildir ki, məktəbimizdə "Kiçik Akademiya" fəaliyyət göstərir. Bu işə xüsusi diqqət və məsuliyyətlə yanaşan pedaqoqlarımız yetərincədir. Belə fikirləşirəm ki, "Kiçik Akademiya"lar şagirdlərin indiki tələbata uyğun keyfiyyətlərin, xüsusiyyətlərin, vərdişlərin formalaşdırılması və aşılanmasının, kadr siyasətinin təməlini təşkil edir. Bu məqsədlə "Kiçik Akademiya"ların fəaliyyətinin inkişaf etdirilməsi uşaqlarda nəticə çıxarmaq, qərar vermək, hər hansı bir işi müstəqil araşdırmaq, təcrübələr aparmaq imkanlarını artırır. Uşaqlara mövzu seçimində sərbəstlik verilməlidir. Eyni zamanda onlara araşdırdıqları hər hansı mövzu barədə həvəsləndirici işlər görülməlidir. Bizim akademiyada şagirdləri maraqlandıran istənilən mövzu realaşdırılır, tədiqiqatlar aparılır. Liseyimizin "Kiçik Akademiya"sı öz seminarlarına çıxış etmək üçün digər qonşu məktəblərdən də şagirdlər dəvət edir, öz fəaliyyət dairəsini genişləndirir. Eyni zamanda məktəbin radio qovşağı da akademiya üzvlərinin ixtiyarına verilmişdir. Belə ki, şagirdlərimiz radioda aparıcılıq edir, müxtəlif mövzularda verilişlər də hazırlayırlar. Bu onlarda diksiya, nitq mədəniiyətinin formalaşmasına msbət təsir göstərir. Bundan başqa, hər həftə bir fənnə aid mövzular müəyyən edirik. Din, inanclar, Novruz çərşənbələri və s. mövzular işləmişik. Həftədə üç dəfə seminarlar keçiririk. Gördüyümüz işlər uşaqların və rəhbərliyin diqqətini belə cəlb edirsə və uşaqlar belə həvəs və maraqla bu işə qoşulursa, deməк, bunun özü elə böyük uğurdur. Akademiyaya üzv olan şagirdlərin elmi konfranslarda, olimpiadalarda və "Kiçik Akademiya"nın digər tədbirlərində iştirak etmək, şagirdlər arasında elmi bilikləri təbliğ etmək və s. kimi vəzifələri vardır. Eyni zamanda seçdiyi fəaliyyət istiqamətində müstəqil olaraq biliklərini dəqiqləşdirir və ünsiyyət və davranış qaydalarına riayət etməklə digər şagirdlərə bir nümunə göstərirlər. Onlar məktəb çərçivəsində müəllimlərin rəhbərliyi ilə müəyyən edilmiş istiqamətlərdə sadə elmi araşdırmalar aparır, məruzə, tezis, referat və hesabatlar hazırlayırlar. Bu işlər həm fərdi, həm də kollektiv şəkildə yerinə yetirilir. Olimpiada, bilik yarışları, müsabiqə və toplantıların, nəzərdə tutulan tədbirlərin hazırlanması və həyata keçirilməsində bu şagirdlər müəllimlərinin ən yaxın köməkçiləridir".



Liseyin akademiyasında olarkən şagirdlərin də mövzu barədə fikirlərini öyrənməyə çalışdım. "Kiçik Akademiya"nın vitse-prezidenti, 11-ci sinif şagirdi Cəlil Cabbarlı akademiyada həvəslə işlədiyini və həmişə onu maraqlandıran mövzuların araşdırıldığını bildirib: "Burada mən çox yeniliklər öyrənmişəm və yeni biliklər əldə etmişəm. Tədqiqatı necə aparmaq və hansı istiqamətdə işlər görülməlidi, problemi necə həll etmək olar və s. vərdişlərə yiyələnmişəm".

Akademiyanın 2-ci vitse-prezidenti, 9-cu sinif şagirdi Nərgiz Heydərova da "Kiçik Akademiya"nın onların həyatında rolundan danışararaq əldə etdiyi bilikləri bizimlə bölüşdü: " Mən artıq iki ildir ki, akademiyada çalışıram. Burada olmaq mənim dünya görüşümün artmasına və əldə etdiyim biliklərin çoxalmasına olduqca müsbət təsir göstərir. Bizi maraqlandıran mövzuları müzakirə və araşdırmağa təqdim edirik. Eyni zamanda hər hansı bir məsələni araşdırdıqda onu iclasların gündəliyində müzakirə edirik. Maraqlı məqamlardan biri odur ki, bizim araşdırmalarımız qəbul olunur və biz özümüzü bir anlıq böyük bir tədbirlərdəki kimi təsəvvür edirik. Fikirlərimizə hörmətlə yanaşılaraq bəyənilir. Bu, bizi çox sevindirir".

9-cu sinif şagirdi, kiçik akademiyanın 3-cü vitse prezidenti Məryəm Nəzərovanın fikrincə akademiya şagirlərin bilik və bacarıqlarının artırılması baxımından bir məktəbdir: " Akademiyada bizlər daha sərbəst və istənlən mövzu barədə fikir yürütmək baxımından özümüzü rahat hiss edirik. Burda biz maraqlı tədbirlər də keçiririk. Elə bu yaxınlarda Xocalı faciəsinin 29-cu ildönümü ilə bağlı seminar keçirdik. Orada erməni vəhşiliyinin qurbanı olan Xocalı sakinlərinin üzləşdiyi çətin vəziyyəti müzakirə etdik".

Akademiyanın müşaviri, 9-cu sinif şagirdi Fateh Zərquluyevin akademiyada işi seminarların keçirilmə tarixini müəyyən etmək və digər məktəblərdən gələn işlərin seminara buraxılmasına nəzarət etməkdən ibarətdir: "Bizim akademiya qonşu məktəblərdə olan akademiyalarla daim əməkdaşlıq edir. Bizlər onların tədbirlərində, onlar isə bizim akademiyanın seminarlarına və iclaslarına dəvət olunurlar. Seminarlarda olduqca maraqlı fikir mübadilələri aparırıq. Bilmədiyimiz şeyləri onlardan öyrənirik. Yeni dostlar tapırıq. Fikrimcə, belə müzakirlələrin biz şagirdlər arasında aparılması çox yaxşıdır".

**Rəşad ZİYADOV**